**MƏMMƏDOVA SƏADƏT**

**DAVUD QIZI**

# KEÇİD DÖVRÜNDƏ ŞƏXSİYYƏT PROBLEMİ

## *(sosioloji aspekt)*

**«ELM» nəşriyyatı**

**B A K I - 2005**

**Elmi redaktor: Rəfiqə Əzimova**
Fəlsəfə elmləri doktoru

**Rəyçilər: Cəmil Əhmədli**
Fəlsəfə elmləri doktoru, professor
Əməkdar elm xadimi

**Firuddin Həsənov**
Sosiologiya elmləri namizədi

**Məmmədova Səadət Davud qızı.** Keçid dövründə şəxsiyyət problemi (sosioloji aspekt) – Bakı, «Elm» nəşriyyatı, 2005, - 148 səh.

ISBN 5-8066-1701-8

Tədqiqat işi social reallıq kimi qəbul edilən keçid dövrü prosesində cəmiyyət-şəxsiyyət proseslərinin qarşılıqlı təsir xüsusiyyətlərinin öyrənilməsinə həsr edilib. Şəxsiyyət problem siyasi, social-iqtisadi, mənəvi-mədəni proseslər prizmasından öyrənilir, keçid dövründə aparılan iqtisadi islahatların xarakterik xüsusiyyətləri və Azərbaycan Respublikasında iqtisadi islahatların özünəməxsusluğu, bu dövrdə yaranan təbəqələşmə prosesi analiz edilir. Sonda Azərbaycan Respublikasında keçid dövründə mövcud proseslərin öyrənilməsilə bağlı aparılan sosioloji sorğulardan əldə edilmiş nəticələr təqdim edilir.

Təqdim edilən araşdırma "şəxsiyyətin sosiologiyası", "siyasətin sosiologiyası", "iqtisadi sosiologiya", "mədəniyyətşünaslıq" kurslarında və idarəçilik orqanları, social sahə işçiləri tərəfindən istifadə edilə bilər.

M $\frac{0301020000}{655(07)\text{-}2005}$

**© «Elm» nəşriyyatı 2005**

# *G i r i ş*

Özünün dalğavari (təkamüllu-inqilabi) inkişaf prosesində bəşəriyyət tsiklik olaraq keçid mərhələlərini yaşayıb. Müasir bəşəriyyət isə yeni anlamlı, yəni öz dərketmə səviyyəsinə uyğun demokratik quruluşa keçid prosesini yaşayır. Bu dünyəvi demokratikləşmə prosesi qlobal bazar iqtisadiyyatına keçidlə müşayiət olunur. Post-sovet məkanı ölkələrində, o cümlədən Azərbaycanda isə demokratik dövlət quruculuğuna lokal keçid ümumdünya qloballaşmaya keçid prosesi ilə çulğaşır. Burada baş verən çoxşahəli transformasiyalar cəmiyyət və ayrılıqda hər bir şəxsiyyət tərəfindən tarixi anın dərk edilməsi və yaşanılması cəhdlərini daha da gərginləşdirir və bir sıra problemlərin ortaya çıxmasına səbəb olur. Belə ki, iqtisadi, siyasi problemlərlə yanaşı şəxsiyyətin sosial-psixoloji durumu, axtarışları, maraqları, real və gələcək taleyi ciddi bir problemə çevrilir.

Azərbaycanda keçid prosesləri həm də Ermənistan tərəfindən başlanmış və 10 ildən artıq zaman müddətində davam edən müharibə şəraiti ilə müşayiət olunur. Gərgin və ziddiyyətli keçid mərhələsinin problemləri xalqımız və ayrı-ayrılıqda hər bir şəxsiyyət üçün ciddi iqtisadi və mənəvi sınağa çevrilmişdir.

Tarixi anın xüsusiyyəti kimi qeyd edə bilərik ki, keçid mərhələsi – köhnə sistemin dağıldığı, yeninin isə hələ yaranmaqda olduğu dövrdür. Xaotik və çoxcəhətlilik ilə xarakterizə olunan bu dövr mövcud cəmiyyətin bütün strukturunu «laxladır». Bu dövrdə iqtisadi, siyasi, mənəvi-mədəni sferaları əhatə edən dəyişikliklər eyni vaxtda həm mənfi, həm də mütərəqqi proseslərlə səciyyələnir.

Keçid dövründəki mövcud proseslərin təsviri, izahı və dərk edilməsi bu proseslərdə iştirak edən şəxsiyyətlə bilavasitə bağlıdır. Belə ki, keçid dövründə şəxsiyyət cəmiyyətin bütün strukturunu əhatə edən dəyişikliklərə məruz qalır. Cəmiyyətin müxtəlif sosial institutları ilə qarşılıqlı münasibət və qarşılıqlı təsirdə olan şəxsiyyətin həyat fəaliyyətində bir sıra problemlər yaranır.

Bilavasitə islahatlar prosesi ilə müşayiət olunan keçid mərhələsində şəxsiyyətin mövcud şəraitə adaptasiyası olduqca ziddiyyətli və çoxşahəli bir prosesdir. Keçid mərhələsində aparılan islahatlar şəxsiyyətin həyat şəraitini gərginləşdirsə də, ümumilikdə və son nəticədə yeni, daha azad xarakterli düşüncə tərzinin və sosial münasibətlərin formalaşmasına zəmin yaradır.

Müasir dövrdə sabit siyasi durumda olan cəmiyyətlərdən fərqli olaraq, inkişaf etməkdə olan cəmiyyətlərdə aparılan köklü islahatlar şəxsiyyət tərəfindən daha ağrılı və çətin yaşanır. Bunu cəmiyyətimizdə gedən islahatlar prosesi gedişində daha aydın müşahidə edə bilirik. Belə ki, keçirilən islahatlar cəmiyyətin bütün sosial institutlarını (iqtisadi, siyasi, mənəvi-mədəni) əhatə edən uzunmüddətli proses olaraq, obyektiv şəkildə şəxsiyyətin həyat tərzində, gündəlik fəaliyyətində çox vaxt dağıdıcı davranış formalarına gətirib çıxarır. Digər tərəfdən, çox aspektli (siyasi, iqtisadi, mədəni, sosial) islahatlar təbəqələşmə prosesini sürətləndirərək, yeni sosial stratların (layların) və bilavasitə orta sinfin yaranmasına gətirib çıxarır. Bu isə öz növbəsində bazar iqtisadiyyatının inkişafına geniş imkanlar yarada biləcək amildir.

Göründüyü kimi, keçid mərhələsində gedən islahatların şəxsiyyətə təsiri çox mənalı və çox şahəlidir. İslahatlar prosesi şəxsiyyətin iqtisadi, sosial, mənəvi, siyasi vəziyyətinə təsir edərək, onun təfəkkür tərzini dəyişməyə vadar edir və yeni inkişaf istiqamətlərinə uyğunlaşmağa yönəldir. İslahatların səmərəli gedişi və həyata keçirilməsi bir çox mənada şəxsiyyətin yetkinliyi, sağlamlığı və daxili potensialından asılıdır.

«Şəxsiyyət - cəmiyyət» arasındakı qarşılıqlı təsir, burada yaranan ziddiyyətlər və anlaşılmazlıqlar bu gün əsas problemlərdən biri olaraq qalır və təqdim olunan elmi araşdırma bir sıra problemlərin tədqiqinə həsr olunur.

Məlumdur ki, sosial və elmi fikir tarixində şəxsiyyət problemi hələ uzaq keçmişdən bir sıra mütəfəkkirlərin tədqiqat obyekti olmuşdur. Şəxsiyyət problemi həm dini, həm fəlsəfi, həm təbiətşünaslıq və s. kontekstlərdə öyrənilmişdir.

Onu da qeyd edə bilərik ki, müxtəlif tədqiqatlarda şəxsiyyət problemi bilavasitə müxtəlif fəaliyyət sahələrilə bağlı tədqiq edilib. Müxtəlif fəlsəfi və sosioloji məktəblər şəxsiyyət probleminin öyrənilməsinə müxtəlif tərəflərdən yanaşaraq uyğun şəxsiyyət nəzəriyyələrini təqdim etmişlər. Bu sırada - Freydizm, Eksiztensializm, Praqmatizm, Personalizm, Fenomenalizm, Koqnitiv inkişaf nəzəriyyəsi (məs: Piaje); Şəxsiyətin rol nəzəriyyəsi (C.Midin sosial psixologiyasında, sosiologiyada isə R.Linton); Marksist şəxsiyyət nəzəriyyəsi; Şəxsiyyətin dispozisiyası (maraq və imkanları) nəzəriyyəsi (T.Znanenski); Dispozisiya nəzəriyyəsi; Sosiometrik istiqamət; Ümumi psixoloji metod (R.L.Kriçevski və Y.M.Dubrovski) və s. adlarını çəkmək olar.

Tədqiqat işində bilavasitə M.Veber, K.Marks və P.Sorokinin bu mövzuya uyğun araşdırmalarına xüsusi diqqət yetirilir, çünki tarixin keçid dövrü mərhələsini yaşayan bu mütəfəkkirlərin hər biri cəmiyyət, şəxsiyyət, sosial münasibətlərlə bağlı daha dərin və sosioloji fikir tarixində yeni mərhələnin yaranmasına səbəb olan tədqiqatlar aparmışlar.

Müasir dövrümüzdə də şəxsiyyət problemi bir çox alimlərin tədqiqat obyekti olub. Lakin məhz Azərbaycanda keçid dövrü cəmiyyətində mövcud proseslər çərçivəsində şəxsiyyət problemi şəxsiyyətin daxil olduğu fəaliyyət sahələrilə bağlı olaraq öyrənilib. Yerli, rus, xarici tədqiqatçıların işləri bilavasitə şəxsiyyəft probleminin ayrı-ayrı tərəflərinə (sosial, iqtisadi, siyasi) həsr olunub.

Azərbaycanda keçid dövründə mövcud proseslərin tədqiqi ilə aşağıdakı müəlliflər məşğul olmuşlar:

Mövzunun nəzəri-metodoloji əsaslarının öyrənilməsinə bir sıra əsərlər həsr olunub. Bunlardan C.T.Əhmədli, R.C.Əizimova, Y.İ.Rüstəmov və başqalarının əsrlərini qeyd etmək olar (12, 46, 53, 61).

İqtisadi proseslərin öyrənilməsilə bağlı – A.P.Babayev, R.C.Əzimova, Q.B.Rüstəmbəyov, R.Quliyev və bir çox başqalarının tədqiqat işlərini qeyd etmək olar (32, 46,60).

Siyasi proseslərin öyrənilməsilə bağlı – Q.C.Əliyev, S.T.Qəndilov, A.Rzayev, R.İ.Məmmədzadə və başqaları məşğul olmuşlar (8, 9, 18, 58, 23).

Mənəvi-mədəni proseslərlə bağlı – R.C.Əzimova, R.Əliyev, G.H.Səfərova və başqaları tədqiqat aparmışlar (46, 10, 11).

Qeyd edilən müəlliflərin tədqiqatları mövcud dəyişikliklər prosesinin bilavasitə bu və ya digər sahələrini əhatə edir.

Eyni zamanda mövzu ilə bağlı tarixçilər, iqtisadçılar, psixoloqlar, pedaqoqlar, idarəçilik təşkilatları və s. müəyyən tədqiqatlar aparmışlar.

Mövzunun işlənməsilə bağlı müasir rus tədqiqatçılarından aşağıdakıların əsərlərini qeyd etmək olar: V.A.Yadov (metodoloji əsaslar), E.M.Babasov, O.T.Boqomolov, Y.Q.Volkov və başqaları (68, 31, 33, 37).

Qərb tədqiqatçılarından – E.Karter, K.Popper, E.Savas, A.Pşevorski və başqalarını qeyd etmək olar (71, 56, 24, 57).

Müəlliflərdən R.C.Əzimova bilavasitə keçid prosesinin mahiyyətinin izahını verir və bu prosesdə yaranmış təbəqələşmənin mənəvi-əxlaqi tərəflərini analiz edir.

A.V.Babayev əsasən iqtisadi islahatlar və onların neqativ nəticələrini təhlil edir. Müəllif tədqiqat işində qabaqcıl Avropa ölkələrində aparılan özəlləşdirmənin nəticələiri ilə Azərbaycanda bu proseslə bağlı yaranan münasibətləri müqayisə edir. Belə təsəvvür yaranır ki, müşahidə olunan mənfi və müsbət nəticələr özəlləşdirmə ilə əlaqədar olaraq yaranan təbii prosesdir.

Q.B.Rüstəmbəyov əsasən milli iqtisadi maraqların təmin olunması baxımından çıxış edərək milli iqtisadiyyatın formalaşdırılması yolları və dünya bazarına inteqrasiya problemlərinə toxunur.

Q.C.Əliyev Azərbaycanda müasir demokratik proseslərin – plüralizm, dövlət idarəçiliyindəki yeniliklər və s. məsələləri təhlil edir və Qərb müəlliflərinin tədqiqatlarını analizdən keçirir.

S.T.Qəndilov Azərbaycanın xarici siyasətinin formalaşması istiqamətlərini və bu yolda prezident Heydər Əliyevin strategiyasını açıqlayır.

R.Əliyev bilavasitə dini proseslərlə bağlı məsələlərə toxunur və bir tərəfdən, qərbləşmə, digər tərəfdən isə islami dəyərlərin cəmiyyət tərəfindən ifrat qəbulu prosesini qorxulu tendensiya kimi qiymətləndirir.

Rus müəlliflərindən E.M.Babasov ümumiyyətlə keçid dövründə baş verən prosesləri analiz edir və postsovet məkanı ölkələrinə xas olan ümumi neqativ halların izahını verir.

O.T.Boqomolovun tədqiqatını iqtisadi proseslərin öyrənilməsilə bağlı ən dəyərli mənbə kimi qəbul etmək olar. Belə ki, müəllif burada demək olar ki, bütün postsovet məkanı ölkələrindəki dəyişikliklərin gedişini Mərkəzi Avropanın post-sosialist ölkələrindəki keçid prosesi ilə müqayisəli şəkildə analiz edir. İqtisadi islahatlar, onların nəticələri, islahatlar prosesində meydana gələn bəzi mənfi xüsusiyyətlər və bütün bu qeyd edilənlərin siyasi idarəçilik məharəti ilə bağlılığı əsərdə hərtərəfli əks olunur.

Y.Q.Volkov ümumi keçid prosesini izah etməklə yanaşı, bu prosesdə ayrı-ayrı institutların fəaliyyətini analiz edir. Qloballaşma prosesi və mədəni dəyərlərin itirilməsi xüsusiyyətləri və səbəblərini açıqlayır.

Qərb tədqiqatçılarından K.Popper keçid dövrü prosesini «açıq cəmiyyətə keçid» kimi xarakterizə edir. Müəllif açıq cəmiyyətin mahiyyətini, müsbət xüsusiyyətlərini və s.

izah edir. Sovet imperiyasını qapalı cəmiyyət kimi qiymətləndirir və mənfi tərəflərini açıqlayır.

E.Karter bilavasitə qloballaşma prosesinin izahını, onun özünəməxsus xüsusiyyətlərini, bu qloballaşmanın əsasında iqtisadiyyatın durduğunu şərh edir.

E.Savas əsasən özəlləşdirmə prosesi, bu zaman şəxsiyyət və cəmiyyət arasında yaranan ziddiyyətləri və onların aradan qaldırılması yollarını, həmçinin sosial-islahatlar prosesini analiz edir.

A.Pşevorskinin tədqiqatı isə siyasi- iqtisadi proseslərin təhlilinə yönəlmişdir.

Tədqiqatın daha əsaslandırılmış olması üçün Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik məlumatları, TASİS – Avropa Ekspertiza Xidmətinin statistik məlumatlarından da istifadə edilmişdir.

Tədqiqat işinin əsas məqsədi keçid dövründə yaranan şəxsiyyət problemlərinə sistemli yanaşaraq tam və hissənin qarşılıqlı təsiri prinsipi əsasında mövzunu tədqiq etməkdir. Məqsədə nail olmaq üçün aşağıdakı məsələlərin həll edilməsinə çalışmışıq:

- Cəmiyyətimizin yaşadığı keçid dövrü prosesini və yeni sosial-iqtisadi və siyasi sistemə keçid dövrünün xüsusiyyətləri kontekstində şəxsiyyət problemini xarakterizə etmək;

- Hipotezin hazırlanması;

-Empirik tədqiqatın və ümumiləşdirmənin aparılması;

- Əldə olunmuş nəticələrin nəzəri analizi və tədqiqatın praktiki tətbiqi.

Tədqiqat zamanı belə bir müddəa rəhbər tutulmuşdur ki, şəxsiyyət daxil olduğu sosial mühitlə qarşılıqlı fəaliyyət və qarşılıqlı təsir prosesində olaraq, özünün fərdi psixo-fizioloji, dərketmə və özünüdərketmə refleksiv imkanları çərçivəsində formalaşır. Bu qeyd edilənləri əsas tutaraq tədqiqatın hipotezi irəli sürülmüşdür:

- Keçid dövrü müəyyən sistem daxilində ziddiyyətlərin yaranması, inkişafı və tədrici həlli prosesidir. Keçid dövrlərində – obyekt və subyekt arasında yaranan ziddiyyətlər kəskinləşir.

- Bu ziddiyyətləri aradan qaldırmaq yollarında cəmiyyətin bütün strukturunu – iqtisadi, siyasi və sosial-mədəni institutlarını – əhatə edən islahatlar keçirilir. Keçid dövründə ayrı-ayrı sahələrdə aparılan islahatlar müxtəlif sürətlə davam edərək, islahatlar prosesində yaranan ziddiyyətlərin həlli istiqamətində çox vaxt gözlənilməz maneələr

yaradır. İslahatlar prosesi mövcud gərginliyin aradan qaldırılmasına, şəxsiyyətlə cəmiyyət arasında müəyyən tarazlıq yaradılmasına cəhddir. Digər tərəfdən, keçid dövrü cəmiyyətində islahatların erkən mərhələsi sosial gərginliyin dərinləşməsi ilə müşayiət olunur.

- Cəmiyyətdə strukturlararası və institutlararası mexanizmlərin dağılması ictimai əlaqələrin formalaşmasına mənfi təsir edir və bilavasitə keçid dövrü şəxsiyyətinin təfəkkür tərzinə təzyiq edirək, onu qeyri-müəyyənlik vəziyyətinə gətirib çıxarır.

- Şəxsiyyətin maraq dairəsinin, məqsədlərinin müxtəlifliyi və bacarıq zənginliyi özünü differensial şəkildə büruzə verir və cəmiyyətdə baş verən proseslərə ziddiyyətli təsir göstərir.

- Keçid mərhələsində obyektiv və subyektiv səbəblər nəticəsində təbəqələşmə prosesi sürətlənir və bu siniflərarası münasibətlərə təsir göstərir.

İşin nəzəri əsasları sosiologiyada post-modernizmin metodoloji ənənələri üzərində (struktur-funksional analiz və fenomenoloji metod) qurulub.

Tədqiqatın empirik əsaslarını Bakı şəhərində yerləşən AMEA –nın bir sıra tədqiqat institutlarının əməkdaşları, BDU-da təhsil alan tələbələr, Bakı şəhərinin Nəsimi və Binəqədi rayonlarının bir sıra məktəblərinin müəllim kollektivi, özəl təşkilatda çalışanlar və işləməyənlər arasında aparılan sosioloji sorğu təşkil edir.

Tədqiqat işinin əsas yeniliyi problemin kompleks şəkildə (şəxsiyyət-cəmiyyət münasibətlərinin mövcud durum məkanında) qoyuluşu ilə səciyyələnir. Qeyd etmək olar ki, tədqiq edilən mövzu məsələnin qoyulduğu şəkildə digər müəlliflərin tədqiqat obyekti olmayıb. Tədqiqat işinin əsas yeniliyi aşağıdakılardan ibarətdir:

- Dissertasiya işinin nəzəri əsasları postmodernizm metodoloji ənənələrinə söykənir. Qərb və Şərq metodologiyası əsas kimi istifadə olunub;

- Sintetik metodologiyadan (Struktur-funksional analiz və şəxsiyyət nəzəriyyəsi) çıxış edərək, keçid prosesi zəminində yaranan şəxsiyyət problemlərinin mahiyyətinin açılmasına cəhd edilir. Tədqiqatda keçid dövründə şəxsiyyət problemləri tam şəkildə götürülərək sistemli analiz metodu ilə öyrənilir.

- «Keçid dövrü» və «şəxsiyyət» anlayışlarının araşdırılmasında müxtəlif sosioloji istiqamətlərin müqayisəli analizi verilir;

- Ekstremal sosial reallıq kimi qəbul edilən keçid dövrü və bu dövr şəxsiyyətinin qarşılıqlı təsir və qarşılıqlı münasibətlərinin (mənfi, müsbət) xüsusiyyətləri öyrənilir;

Tədqiqat işinin elmi-praktiki əhəmiyyəti onun yeniliyi ilə sıx bağlıdır. Əsas gümanlar keçid dövrü cəmiyyətindəki mövcud proseslərin dərk edilməsi və şəxsiyyət problemlərinin həlli istiqamətində təcrübi əhəmiyyət kəsb edə bilər. Tədqiqatın nəzəri-metodoloji hissəsi «Sosiologiya», «şəxsiyyətin sosiologiyası», «siyasətin sosiologiyası», «iqtisadi sosiologiya», «mədəniyyətşünaslıq» kurslarında, idarəçilik orqanları, sosial sahə işçiləri tərəfindən istifadə edilə bilər. Tədqiqat işinin əsas gümanları sonradan keçid dövrü cəmiyyətinin strukturunun, şəxsiyyət fəaliyyətinin daha dərin differensiasiya edilmiş müxtəlif sahələrinin tədqiqi və mövcud proseslərin gedişininin proqnozlaşdırılması və düzgün istiqamətləndirilməsi sahəsində idarəçilik orqanları, sosial sahə işçiləri və s. tərəfindən istifadə edilə bilər.

# I.FƏSİL – KEÇİD DÖVRÜNDƏ ŞƏXSİYYƏT PROBLEMI MÖVZUSUNUN METODOLOJİ ƏSASLARI

## 1.1. Keçid dövrü probleminə sosial-fəlsəfi və sosioloji baxışlar

Vahid orqanizmə bənzəyən cəmiyyət canlı orqanizm kimi, daim bir vəziyyətdən digər vəziyyətə keçərək inkişaf edir. Lakin bu inkişafın elmi şəkildə sistemləşdirilməsi XIX əsrə aiddir. Dünya tarixinin ən təlatümlü dövrləri olan XIX – XX əsrlərdə cəmiyyət dəfələrlə köklü dəyişikliklərə məruz qalmışdır. Görkəmli alimlər bu dəyişikliklər dövrünü öyrənməyə, elmi cəhətdən əsaslandırmağa çalışmış və öz əsərlərində cəmiyyətin tərəqqisinin daimi tarixi keçidlərlə müşayiət olunduğunu vurğulamışlar. Bir sıra sosioloji nəzəriyyələrdə keçid dövrləri cəmiyyətin hərtərəfli dərin böhranlı dövrləri kimi xarakterizə edilmişdir. Cəmiyyətin böhranı isə milyonlarla insan taleyinin böhranı deməkdir.

Müasir bəşəriyyət digər tarixi keçid dövrlərindən fərqli olaraq yeni anlamlı, yəni öz şüuri inkişaf səviyyəsinə uyğun demokratik quruluşa keçid mərhələsini yaşayır. İngilis müəllifləri Eypril Karter və Cefri Stoks müasir demokratiyanı qloballaşmaya keçid kimi səciyyələndirir və qeyd edirlər ki, bu qloballaşmanın əsas səbəbi qlobal bazar iqtisadiyyatının yaranmasıdır. Onlar qloballaşma tendensiyasının iki istiqamətdə öyrənildiyini qeyd edirlər: 1.Universal düşüncənin problemləri öyrənilir; 2.Qlobal vətəndaşlıq universal anlayış kimi öyrənilir (71, p.16).

Beləliklə, V.Qavelin qeyd etdiyi kimi: «demokratiya, sözün tam mənasında, həmişə idealdan başqa bir şey olmayacaqdır. Kimsə ona tam yaxınlaşa bilər, kimin üçün isə o həmişə üfüqdə mışıldayacaqdır, ona doğru aparan yollar yaxşı yaxud pis olacaqdır, lakin ona tamamilə nail olmaq heç vaxt mümkün olmayacaqdır» (17, s. 22). Bu fikri insanların daha firavan və ədalətli həyat şəraitinə olan tələbatları ilə də izah etmək olar. Məhz bu cür firavan gələcəyin qurulmasının özülü keçid mərhələsində qoyula bilər. K.Popperin dediyi kimi, «nəticə arzularımızın əksinə də alına bilər, demokratiyanın həqiqətə çevrilməsi üçün xüsusi demokratik institutların yaradılması və demokratik islahatların keçirilməsi vacibdir» (56, II c., s.138-159).

Bu gün cəmiyyətin qanunauyğun inkişafının öyrənilməsində Qərb sosioloqları M.Veberə daha tez-tez müraciət edirlər.

«M.Veberin müqayisəli-tarixi və universal tarixi sosiologiyasına xüsusi maraq müasir dövrdə sosioloji biliklərin daxili transformasiyası ilə bağlıdır. Bu nəzəriyyə təkcə ictimai-tarixi inkişafın müxtəlif pillələrində olan sosial və ya sosial-mədəni strukturları deyil, müasir dövrdə konkret empirik «eyni vaxt məkanında» olan strukturları da öyrənir.

Səmərəli sahələrin inkişaf strukturu -- dini, siyasi, sahibkarlıq, texniki, peşəkar fəaliyyət və tərbiyə, elm sahələrinin və onların yeni zamana keçid və ya yeni dövrdə ictimai dinamikada əhəmiyyəti (siyasi və bürokratik dövlətçiliyin inkişafı; səmərəliliyin müxtəlif növlərinin qiymətləndirilməsi; bürokratikləşmə arasındakı gərginlik və s.) məsələlərinin hərtərəfli araşdırılması müasir Qərb sosioloqlarının M.Veberə qayıdışına səbəb olmuşdur» (35, s.98).

M.Veber Almaniyada imperiya ağalığı dövründən Respublika idarəçilik formasına keçid mərhələsini yaşamışdı və yaşadığı tarixi mərhələni əhatəli tədqiq və təhlil etmişdi. O, demokratiyaya keçid ərəfəsində xarizmatik (xarizmatik - yunan sözü olub, mənası «ilahi keyfiyyətlərə malik şəxsiyyətin və ya xilaskarın hakimiyyətinə inam üzərində qurulan idarəçilik» deməkdir) dövlət formasının əmələ gəldiyini və bu zaman cəmiyyətdə müəyyən sabitliyin yarandığını qeyd edirdi. M.Veberə görə, belə dövlət quruculuğu onu idarə edən şəxsiyyətin ömrü qədərdir və məhz bundan sonra əsl demokratik ənənələr qurula bilər.

M.Veber əmin idi ki, «əgər müasir demokratiyanın doğrudan da dövlət qulluqçularının bürokratik sinfini tarazlayan qüvvəyə ehtiyacı varsa, professional siyasət xadimlərindən təşkil olunmuş aparat belə bir qüvvə ola bilər» (43, s.255).

İmperiya ağalığından demokratiyaya keçid dövrünü araşdırarkən M.Veber qeyd edirdi ki, «təkcə kapitalizm quruluşunun deyil, müəyyən sivilizasiyanın inkişafında da «protestant sahibkarlığı etikası» əsas mənbədir, çünki məhz belə bir etika Qərb sivilizasiyasının inkişaf xüsusiyyətlərini Şərq sivilizasiyasının inkişaf xüsusiyyətlərindən fərqləndirir» (35, s.96).

Kapitalizmin inkişafında dini əsas şərt kimi götürən M.Veber iqtisadiyyatı da eyni sırada qəbul edir. Lakin o, sahibkarın fəaliyyətində dini etikanı xüsusi vurğulayırdı.

M.Veberin nəzəriyyəsinin tərəfdarlarından olan Q.Zdravomıslev cəmiyyətin inkişafında şəxsiyyətin rolunun araşdırılması ilə bağlı marksizmi tənqid edərək deyir: «Ancaq marksizm tərəfindən saxtalaşdırılmış materializm hər bir ayrıca tarixi hadisəni,

başlıca subyektiv amilin rolunu, cəmiyyətin dini həyatını və üstqurum qaydasının müxtəlif təzahürlərini cəmiyyətin inkişaf qüvvələrinin inkişafından çıxarmağa cəhd edir. M.Veber isə bütün tarixi formasiyaları unudaraq insanın həyat fəaliyyətinin dini ənənələrin təsiri altında formalaşdığını və inkişaf etdiyini göstərir.

M.Veber ictimai-iqtisadi formasiya anlayışını «ideal növlər» anlayışı ilə dəyişməyi təklif edirdi. M.Veberin fikrincə, iki növ anlayış var: 1.Nəsli, etnoslararası; 2.İdeal tipik» (64, №4,1976, s.158-174).

M.Veberin müasiri və dostu, sosiologiyanın klassik nümayəndələrindən biri olan G.Zimmel də öz yaradıcılığında keçid dövrü mərhələsi və şəxsiyyətin qarşılıqlı fəaliyyəti və qarşılıqlı təsiri prosesinin öyrənilməsinə xüsusi diqqət yetirmişdir. G.Zimmel keçid dövrünün mahiyyətini çox gözəl və obrazlı şəkildə belə açıqlayırdı: «həyat heyvani vəziyyətə üstün gələrək müəyyən ruhi vəziyyətə, ruh isə mədəniyyət səviyyəsinə qalxan kimi onda (həyatda - M.S.) daxili münaqişənin yüksəlməsi və həll edilməsi bütün mədəniyyətin yeniləşməsinə səbəb olur».

Bildiyimiz kimi, keçid dövrü – tarixin xaoslu, sistemsiz və ya qeyri-ahəngdar inkişafı dövrüdür. Rəngkarlığın dili ilə desək, keçid dövrləri – sanki həyat rənglərinin qarışaraq anlaşılmazlıq təəssüratı yaratması dövrləridir. Məhz bu sistemsizlik və qeyri-ahəngdarlıq G.Zimmel yaradıcılığında öz əksini tapıb. G.Zimmeli tarixi inkişafa bilavasitə təsir göstərən şəxsiyyət kimi deyil, əksinə tarixi anın bütün ziddiyyətlərini öz həyat və yaradıcılığında demək olar ki, bütünlüklə əks etdirən bir şəxsiyyət kimi qəbul etmək olar.

G.Zimmel «Sosial diferensiasiya» əsərində həm makro, həm də mikro səviyyədə diferensiasiyanın qaçılmazlığını izah edir. Müəllif həm də öz dövrü üçün utopik görünə bilən sosializm cəmiyyətinin mahiyyətini izah edir və bu cəmiyyət daxilində də diferensiasiyanın mütləq mövcudluğunu göstərir.

Sosiologiya tarixində yeni bir mərhələnin əsasını qoyan K.Marks isə «intensiv tarixi keçid dövrlərini» mövcud cəmiyyətin «nüvəsinə zidd olan əsasların inkişafı ilə bağlı əmələ gələn» yeni cəmiyyətin «növbəti təşkili» dövrü kimi izah edirdi (49, s.56).

Bəşəriyyətin inkişaf tarixini hərtərəfli öyrənən K.Marks tarixi inkişafın əsasən beş mərhələsini ayırırdı: 1.İbtidai-icma quruluşu; 2.Quldarlıq quruluşu; 3.Feodalizm quruluşu; 4.Kapitalizm quruluşu; 5.Kommunizm quruluşu.

Marksın bölgüsü cəmiyyətin əsasən iqtisadi inkişafından doğan bir bölgü olduğu üçün müxtəlif tədqiqatçılar tərəfindən tənqidə məruz qalıb. Çünki həmin mütəfəkkirlər tarixin mərhələli inkişafını təsnif edərkən sivilizasiyanın, çox vaxt isə siyasi quruluşun tərəqqisini əsas götürüblər.

Bu sırada keçid dövrünün araşdırılması ilə məşğul olan Qərb sosioloqlarından biri kimi U.Rostounu göstərmək olar. O, hər bir ölkənin inkişafda keçdiyi beş mərhələni tətbiq etməyi təklif edir: «1.Ənənəvi cəmiyyət; 2.Köklü dəyişikliklərin özülü olan keçid cəmiyyəti; 3.Həlledici tərəqqi mərhələsini yaşayan cəmiyyət; 4.İqtisadiyyatın bütün sahələrində yeni metodların və ideyaların yayıldığı yetkin cəmiyyət; 5.Xalq istehlakının yüksək dərəcəyə çatdığı cəmiyyət».

U.Rostou «kapitalizm» ifadəsini «xalq istehlakının yüksək səviyyəyə çatdığı cəmiyyət» ifadəsilə əvəz edir. Kommunizmi isə «yetkin cəmiyyətə keçid» kimi səciyyələndirir. U.Rostou Sovet cəmiyyətində iqtisadiyyatın inkişafını kapitalizmin inkişaf mərhələlərilə müqayisə edərək SSRİ-də 1929 – 1953-cü illər arasındakı iqtisadi inkişafı ABŞ və Avropada 1914-cü ilə qədərki onilliklərlə eyniləşdirir və «sosialist» cəmiyyətinin süqutundan xəbər verirdi. M.Barq isə Rostounu tənqid edərək onun irəli sürdüyü «iqtisadi inkişaf» nəzəriyyəsini ictimai inkişafa subyektiv yanaşıldığından «hibridləşmiş model» nümunəsi adlandırırdı.

«İqtisadi inkişaf nəzəriyyəsi»nin banilərindən olan Dyupriye idarəetmə qanunlarının yaradılmasının vacibliyini qeyd edir və hakim qurupu ön sıraya çəkərək, insanların iqtisadi inkişafına təkan verməyi və stimullaşdırmağı, ənənəvi texnika və amilləri dərk edərək yeni intellektual nəzəriyyə və kombinasiyalarda tsiklik yüksəlişlərə təkan verməyi elitanın vəzifəsi hesab edir.

Avstriya sosioloqu və iqtisadçısı İ.Şumpeterin «iqtisadi inkişaf» modelinə əsasən bəşəriyyətin tarixi iki müxtəlif xarakterli tsikillərə bölünür: 1.Təsərrüfatın qapalı dövrə üzrə hərəkəti; 2.İqtisadi inkişaf, yəni kapitalın kəmiyyət yüksəlişi, gəlir istehsalı dövrü. İ.Şumpeter keçid cəmiyyətinin «inkişaf» tsiklinin həlledici faktoru kimi «novatorun» şəxsiyyət psixologiyasını götürür. Keçid dövrünün mahiyyəti «köhnə qüvvələrin yeni ahənginə», əvvəlki resursların istifadəsinin yeni metodlarına və əvvəlki istifadə edilməmiş resursların cəlb edilməsinə aparır. Nəticədə iqtisadi (kapitalist) inkişafın «antreprenerlərin» («antreprener» sözünün mənası «sirk saxlayan» deməkdir. Cəmiyyəti

sirk meydanı kimi qəbul edən müəllif burada «artistlərin» müvəffəqiyyətli çıxışını, «antreprenerin» uğurlu novatorluq fəaliyyətilə bağlayır – M.S.) əməli olduğunu göstərir. Bu ideal tip Zembartın «kapitalist ruhu ilə bərabər M.Veberin «protestant etikası»ndan da çox şey almışdır».

Müasir Qərb tarixşünaslığının müəyyən cərəyanlarında «böhran nəzəriyyəsi» geniş yayılmışdır. Lakin bu nəzəriyyə ictimai inkişafda tarixi prosesin sosial aspektlərini, yəni sosial antoqonizmlərin toqquşmasını nəzərə almır. Buna görə də bir ictimai formasiyadan digərinə keçid dövründə bu nəzəriyyənin əsassızlığı xüsusilə üzə çıxır. Fransız tarixçisi R.Munye «böhran nəzəriyyəsini» araşdırarkən qeyd edirdi ki, «bu, Avropa cəmiyyətinin bütün elementlərini və halqalarını zədələmiş böhranın məcmusudur» (41, s.180).

Qərb sosioloqlarının görkəmli nümayəndələrindən olan A.Toyinbi də marksizmin ictimai formasiyalar fikrinə qarşı çıxır və «formasiya» ifadəsini «sivilizasiya» ifadəsilə əvəz etməyi təklif edirdi. Tarixi ağaca bənzədən Toyinbi bu ağacda bir-birinə yaxın olan 26 sivilizasiya ayırırdı. O, sivilizasiyaların ümumi cəhətlərini aşağıdakı kimi verirdi: doğum, inkişaf, sınma, parçalanma, məhv olma (41, s.180). Təkrarlanma xüsusiyyətinə malik olan bu proses spiralvari inkişaf konsepsiyası əsasında qurulub. Fikrimizcə, müəllifin təklif etdiyi bu ardıcıllığın əvvəlinə daha bir mərhələni – yaranma prosesini əlavə etsək, inkişafın daha dəqiq ardıcıllığını müəyyən edə bilərik. Çünki müəllifin təklif etdiyi doğum prosesi qeyd olunan mərhələni nəzərdə tutsa da, bir qədər dəqiq açıqlama tələb edir.

Sovet məkanında marksizm ideologiyasının qələbəsinin və məğlubiyyətinin şahidlərindən olmuş K.Popper isə mövcud Qərb sivilizasiyasını dövrün ən yaxşı cəmiyyət forması kimi qəbul edir və belə cəmiyyəti «açıq cəmiyyət» adlandırır. O, deyir: «Bu gün bizim yaşadığımız cəmiyyət indiyədək mövcud olmuş cəmiyyətlərin ən yaxşısı, ən ədalətlisi və ən azadı, daha çox özünütənqidi və islahatlara qabil olan cəmiyyətdir. Belə cəmiyyət dərin və radikal inqilabların nəticəsi kimi meydana gəlmişdir.

Cəmiyyətdə heç olmasa qarşılıqlı inam olmalıdır. Dövlətin hüquq institutlarına və qanunların həyata keçirilməsinə cavabdeh olan çinovniklərinə inam bu məqsədi gerçəkləşdirəcək» (56, c.2, s.485).

K.Popperin cəmiyyətin inkişafı haqqındakı bu fikirlərinin davamı kimi «Yeni başlanğıclar: müsbət dəyişikliklərə nail olmaq» devizi altında keçirilmiş 2000-ci il Davos

forumunun gündəliyinə nəzər salaq. Burada Popperin təsvir etdiyi açıq cəmiyyətin inkişafının əsas amilləri: qloballaşmanın perspektivləri, sabit iqtisadi artım, informasiya texnologiyaları və biotexnologiya sahəsində inqilabların nəticələri olaraq qəbul edilib. Forumda indiyədək təsvir və təhlil edilmiş ideal cəmiyyətlərin ən yüksək forması kimi qəbul edilən ABŞ dövləti inkişafın yuxarıda qeyd edilmiş bütün amillərini özündə cəmləşdirmiş, dünyada nadir fövqəl dövlət kimi səciyyələndirilir. ABŞ-ın prezidenti Bill Klinton öz çıxışında qeyd etmişdi ki, «hərtərəfli inkişafa nail olmaq üçün  insan amili, təhsil, sağlamlıq, texnologiya, infrostruktur və sərmayələr lazımdır. Bu, cəmiyyətdə yüksək məhsuldar qüvvənin qorunması və mövcudluğu» üçün vacibdir. «İndi dünyanın yarısından çoxunda insanlar özlərinin seçdikləri rəhbərlərin hakimiyyəti altında yaşayırlar. Belə şəraitdə insanlar inanmağa başlayırlar ki, onlar öz talelərini özləri həll edə bilərlər» (2, №25(2438), 2000).

Beləliklə, qəbul etməliyik ki, vaxtı ilə K.Marksın təsvir etdiyi kapitalizm cəmiyyəti mahiyyətcə dəyişdiyi üçün müasir Qərb sivilizasiyasına uyğun gəlmir. K.Popperin qeyd etdiyi kimi, «Marksizm – əsl tarixi nəzəriyyə olaraq iqtisadi, siyasi
və xüsusilə də inqilabi inkişafın gələcək yolunu göstərməyə cəhd edir. Lakin Leninin etiraf etdiyi kimi, K.Marksın işində sosializmin inkişafı haqqında hər hansı bir söz tapmaq mümkün deyil. Çoxları belə qəbul edir ki, mahiyyətcə marksizm nəzəriyyə deyil, metoddur» (56, 2 c., s.99). Belə ki, öz karyerasının başlanğıcında K.Marks yazırdı: «Filosoflar müxtəlif üsullarla dünyanı təhlil edirlər, lakin əsas məsələ onu necə dəyişməkdədir» (49, c.3, s.4) və ruslar bu metodologiyanı məhz qeyd edilən fikirlərə əsaslanaraq tətbiq etməyə çalışmışdılar.

Marksizmin bir ideologiya kimi Rusiyada bərqərar olmasını tədqiq edən Rusiya filosofu V.K.Kontor yazır: «K.Marks özü rusların ona diqqətindən razı deyildi. aarksizm Qərbdə leqal nəz□rözyə kimi mey□ana gəlmiş bu günə qədər də leqal qalır».

Struve qeyd edirdi ki, Marks sosializm üçün burjuaziyanın bütün mədəni nailiyyətlərini tələb edirdi. Bolşevik sosializminin «kapitalizmin tərəqqisindən doğacaq sosializm ideyalı marksizm nəzəriyyəsilə heç bir əlaqəsi yoxdur» (39, №4, 1993, s.88-91).

Kontor yaşadığımız tarixi təhlil edərək qeyd edir ki, «Plexanov Lenini «marksizmin inkvizitoru adlandırmışdı. Lenin bakuninləşmiş və tkaçovlaşmış marksizmi yeni formada canlandırmışdı. Əgər K.Marks Hegelin dialektikasını başından ayağına qaldırmışdısa,

Lenin K.Marksın tarixi materializmini tərsinə çevirdi. O, ön sıraya siyasəti, sonraya isə iqtisadiyyatı qoydu. Lakin Sovet dövlətinin banisi özünün məhdud görüşləri çərçivəsində Marksın bir sıra azadlıqsevər ideyalarını saxlamışdı və bu gün biz əldə etdiyimiz bir çox müsbət nailiyyətlərə görə ona borcluyuq. Rusiya sivilizasiyası xüsusidir, lakin «hantinqtonçu» deyil. Belə olmasa idi, nə Rusiyanın tarixi, nə də dünya tarixi əmələ gəlməzdi. Ümumi kədərli nəticə belədir: Sovet sisteminin süqutu K.Marksın «Qərbdən əvvəl Rusiyada sosializmin gələcəyi mümkün deyil», - fikrini təsdiqlədi. K.Marks Rusiyanı deyil, Rusiya K.Marksı «məhv etdi». Bu ciddi və uzunmüddətli ola bilməz» (39, №4, 1993, s.88-91).

Sosializmin gələcəyinə ümid bəsləyən və inkişafın növbəti yolunun sosializm olduğuna əmin olan cəmiyyətşünaslar bu quruluşun kommunist sosializmdindən fərqli

cəhətlərini də təsvir edirlər. İngilis müəllifi M.Bunkeyə görə, «elmi əsasda sosiotexnologiya tərəfindən udulmamış yeni cəmiyyət rifahın yaxşılaşdırılması, sosial ədalət, demokratiya, sülh və sabit iqtisadiyyat əsasında qurulmuş inteqral demokratiyaya əsaslanmalıdır. Biz bu quruluşu xolotexnodemokratiya adlandıra bilərik. Müasir inkişaf etmiş kapitalizmin ekoloji sabitsizliyi və var-dövlətə, siyasi hakimiyyətə və mədəni resurslara nail olmaq yolundakı bərabərsizlik kimi mənfi cəhətlərini göstərən müəllif, marksist-leninçi cəbhəsinin də sosiallaşdırma əvəzinə milliləşdirmə, xalq hakimiyyəti əvəzinə partiya diktaturası olan mənfi cəhətlərini açır və onu bürokratik kapitalizm adlandırır. Xolotexnodemokratiya və ya inteqral texnodemokratiya («texnodemokratiya» – yunan dilində «texne» - «ustalıq», «demos» – «xalq», «kratos» - «hakimiyyət» deməkdir) quruluşu ideyasını irəli sürən müəllif burada kooperasiya və rəqabətin, əsasən kooperativ mülkiyyətlə bazarın birləşdiyini qeyd edir. Federasiya və dövlətin, sonda isə dünya hakimiyyətinin bu quruluşda azadlıq anlayışı xəyalidir. Əsl azadlıq bərabər münasibətlər əsasında reallaşa bilər. Xolotexnodemokratik cəmiyyətə tədrici keçid institutların islahatı və yeni adətlərin mənimsənilməsi əsasında olmalıdır. Çünki inqilabi yol çox əzablara və ayrı seçkiliyə səbəb olur. Keçmiş kommunist ölkələrində kapitalistlər sinfi olmadığı üçün bu keçid daha asan olmalıdır. Bu ölkələrdə əsas maneə demokratik ənənələrin olmamasıdır» (39, №6, 1994, s. 42-46).

Müasir rus tədqiqatçıları da Rusiyanın növbəti inkişaf yolunu müəyyənləşdirməyə cəhd edərkən modernləşdirmə nəzəriyyəsinə xüsusi diqqət yetirirlər. Rusiya və

ümumiyyətlə postsovet məkanı ölkələrini üçüncü eşalonda duran ölkələr sırasına daxil edən V.A.Krasilşikov bəzi nümunələr gətirməklə ənənəvi və müasir elementlərin daxil edildiyi, nə Qərbi – liberal, nə də Şərqi – korporativ olmayan, eyni zamanda onlardan nə isə götürmüş, avroasiyalaşmış, sintetik və müxtəliftərəfli ideologiya təklif edir (39, №7, 1993, s.40-56).

Post-sovet məkanı ölkələrinin yaşadığı keçid mərhələsini ənənəvi dövlət quruluşundan vətəndaş dövlətinə keçid kimi müəyyən edən M.N.Kuzmin isə qeyd edir ki, «təsərrüfat sahəsində bu keçid qarışıq iqtisadiyyata keçid olub, müxtəlif şəxsi mülkiyyət tiplərinə əsaslanır. Lakin bu şəxsi mülkiyyət tipləri bazar iqtisadiyyatının effektli tənzimləyici rəqabət mexanizmlərinin və iqtisadi yüksəlişin ümumi prinsiplərinə tabedir. Sosial sahədə bu, vətəndaş dövlətinin qurulması olub, mülkiyyət münasibətlərinin dərin transformasiyası ilə bağlıdır. Bu transformasiya cəmiyyəti bütövlükdə dövlətə tabe olmaqdan radikal şəkildə azad edir və əvvəlki iki komponentli sosial strukturu cəmiyyətin real stratifikasiyasına uyğun olaraq dəyişməyə imkan yaradır. Siyasi sahədə isə, demokratik hüquqi dövlətin qurulması olub, ayrılıqda hər bir şəxsiyyətin hüquqlarının, azadlıqlarının və imkanlarının reallaşdırılmasına təminat verir» (39, № 2, 1997, s.57).

A.S.Axiezer mövcud böhrandan xilasolma cəhdlərində keçmişin təkrarlanması təhlükəsini görür. «Belə vəziyyətdən çıxış birdir: liberalizmin yüksək yaradıcılıq potensialı böhrandan çıxmaq strateqiyasının işlənməsi üçün istifadə edilməlidir. Liberal ideyalar Rusiyanın tarixi təcrübəsinin ümumiləşdirilməsi və eyni zamanda liberalizmin özünütənqidi əsasında inkişaf etməlidir. Həm nəzəri, həm də təcrübi səviyyədə yüksək səviyyəli sosial sintez həm vəziyyətin kor-koranə dəyişikliklərini, həm də qabaqcadan hazırlanmış sxem əsasında reallığı idarə etmək cəhdlərini ötüb keçmək qabiliyyəti, eləcə də bu səviyyəyə uyğun təşkilati şərait bizim problemlərimizin həllinin açarıdır» (39, №1, 1993, s.3-9).

V.Turacov isə sovet rejimini saxta sosializm adlandırır. Onun fikrincə, «vəziyyətdən çıxış yolu avro-amerika sivilizasiyası deyil». O, Çin və Yaponiyanın yerli ənənələrə uyğunlaşdırdığı sosializmin yüksək nəticələrini nümunə gətirir. Müəllifin fikrincə, kapitalizmi yaşamadan sosializmə adlamaq mümkün deyil (29, №1, 1998, s.6).

K.Pirsonsun fikrincə, «sosializm kliniki təsirsiz olsa da, o, kapitalizmə qarşı zəhər və kapitalizmin alternativinin axtarışı idi» (29, №6, 1998, s.2).

R.Darendorf qeyd edirdi ki, «Sosializm təkcə inkişaf edən ölkələr üçün deyil, həm də bu fenomen yalnız inkişafın erkən mərhələsində mümkündür. Sonradan o, öz yerini iqtisadi tərəqqinin, bəlkə də siyasi sistemin daha açıq və effektli formasına verməlidir» (29, №7, 1998, s.45).

Qərb sosioloqlarının keçid dövrünün mahiyyəti haqqındakı fikirlərinin siyahısını daha da artırmaq olar. Lakin bu gün biz öz inkişaf yolumuzu müəyyənləşdirməyə cəhd edərkən Qərb modelini birbaşa mənimsəmək düzgün olmazdı. Azərbaycan Şərq ölkəsi olduğu üçün ənənələrimizdəki bəzi ümumi cəhətləri nəzərə alaraq, Şərqin də nailiyyətlərindən bəhrələnməyə çalışmalıyıq. Bu baxımdan, Şərq sosioloqlarının da keçid dövründə cəmiyyətin inkişafı ilə bağlı yaranmış nəzəriyyələrinə diqqət yetirmək zərurəti yaranır.

Şərq cəmiyyətşünaslarından Şaku-əl-Fənqari (Misir), Mahmud-əbu-s-Sud (ABŞ), Bənisədr (İran) və bir çox başqaları islam dininə əsaslanan xüsusi iqtisadi sistem irəli sürərək həm Qərb, həm də marksizm sosializminə qarşı duracaq bu modeldə fundamental şəriət qanunlarına əsaslanırlar (29,№5,1998, s.46-51).

A.Borisovun qeyd etdiyi kimi, «İslamçılar şəxsi mülkiyyətin saxlanılaraq xalqın mənafeyinə uyğun istifadə edilməsi tərəfdarları kimi çıxış edirlər. Onlar teokratik dövlət qurmaq niyyətindədirlər. Müasir Qərb sivilizasiyasının təsiri Şərq ölkələrində də dini əxlaqi ənənələrə zidd olan hərəkətlərin genişlənməsinə səbəb olmuşdur. İslamçılar həm də buna görə vahid islam ölkəsinin yaradılması uğrunda mübarizə aparırlar. Gələcəkdə özlərinə çıxış yolu tapa bilmədiklərindən onlar islamın keçmiş «qızıl əsrini» bərpa etməyə çalışırlar» (29, №5, 1998, s.42-43).

İran İslam Respublikasında yeni dövlət quruculuğu cəhdlərini araşdıran Rusiya tədqiqatçısı Klyaştorina qeyd edir ki, «İslam dinini modernizə edərək tətbiqi fikirləri 90-cı illərdə İran İslam Respublikası üçün də əsas şərtlərdən birinə çevrilmişdir. Lakin iqtisadi və sosial-siyasi inkişafa mane olan bəzi islam ənənələrinin dəyişdirilməsi üçün müəyyən yollar axtarılır. 1978-ci ildən islam ənənələrini yayan Əli Şəriəti İslamda sosializm ruhlu sosial islahatlar aparmaq və özünəqayıdış konsepsiyasından çıxış edirdi. Onun hazırladığı konsepsiyaya görə müasir dövrün mənəvi-əxlaqi və siyasi problemlərini yalnız islam həll edə bilər. Öz əsərlərində o, Qərbin elmi metodologiyasına və eləcə də marksizm və eksiztensializm cərəyanlarına istinad edirdi» (29, №5, 1998, s.46-47).

Eyni zamanda Şərq tədqiqatçıları rus-marksizminin çatışmayan cəhətlərini görür və təhlil də edirdilər. Məsələn, İmam Xomeyninin Qorboçova məktubunda müəllif marksizmə münasibətini aşağıdakı kimi ifadə edirdi: «Marksizm insanın gerçək ehtiyaclarının heç birinə cavab verə bilməz. Bu da onun maddi ideologiya olduğuna görədir: və mədəniyyət ilə insanları Şərq və Qərbdə insan cəmiyyətinin əsas böhranı olan Mənəviyyata inamsızlıq böhranından qurtarmaq olmaz. Əgər siz indi kommunizmin və sosializmin iqtisadi kor düyünlərini Qərb kapitalizminin mərkəzinə sığınmaqla həll etmək istəyirsinizsə, öz cəmiyyətinizin dərdlərindən heç birinə dərman edə bilməyəcəksiniz. Hələ bəlkə başqaları gəlib sizin səhvlərinizi düzəltməli olacaqlar» (13, s.2-3).

Ənənəvilik konsepsiyasının banisi Əl-Maudidinin tərəfdarları pakistanlılara yad olan Qərb istiqamətindən və ənənələrindən uzaqlaşaraq islam dini əsasında tarixi ənənələrə qayıdış üzərində sistem qurulması fikirlərilə çıxış edilər. Seyid Əhmədxanın tərəfdarları olan modernistlər isə Qərb sivilizasiyasının ənənələrini birləşdirən sistem yaratmaq ideyaları ilə çıxış edirlər (29, №8, 1997, s.46).

Səudiyyə Ərəbistanında isə kral Feysəlin keçirdiyi sosial-iqtisadi islahatları təşkil edən prinsiplər daha çox nəzərə çarpır. Burada Şərq və Qərb ənənələrinin sintezinə meyl parlaq şəkildə özünü büruzə verir. Onun islahatları əsasən üç prinsiplə bağlıdır:

1.Həm istehsal, həm də əhalinin həyat səviyyəsinin keyfiyyətcə yüksək, dünya səviyyəsində inkişafına nail olmağa can atmaq;

2.Ən geniş mənada adət-ənənələr – cəmiyyətin mənəvi əsası olan islam, islamın və köçəri bədəvilərin məişətləri əsasında müəyyənləşdirilmiş adət-ənənələrə və həyat tərzinə, Qərb mədəniyyətinin ən yaxşı hissələrini qəbul etməyə ehtiram göstərmək;

3.Cəmiyyətin vəziyyətinə uyğun olan və geniş xalq kütlələrinin yenilikləri qəbul etmək səviyyəsini maksimum nəzərə alaraq dəyişikliklərdə tədricilik (29, №8, 1997, s.53).

Müasir dövrdə ən çox avropalaşmış islam dövlətləri arasında Türkiyə Respublikası ön sırada durur. Hələ 1923-cü ildə Türkiyəni respublika elan edən Atatürk deyirdi: «Türkiyə Respublikası şeyxlərin, dərvişlərin, müridlərin, dini təşkilatların ölkəsi olmamalıdır. Ən düzgün, həqiqi yol sivilizasiya yoludur». Öz fəaliyyətində Atatürk türk millətçiliyinin banisi olmuş Ziya Göyalpın sintez nəzəriyyəsinə əsaslanırdı. Bu nəzəriyyənin əsasında «türk cəmiyyəti milli mədəniyyəti saxlamaqla Avropa sivilizasiyasını qəbul etməlidir» ideyası dururdu.

Türkiyənin sosioloqlarından olan N.Bərkəs qeyd edirdi ki, xristian kilsəsi müstəqil siyasi qüvvə kimi çıxış etdiyi halda, müsəlman dövlətlərində din bütün sahələrə, əsasən də iqtisadiyyata daxil oduğundan Qərblə Şərqin inkişafında nəzərə çarpan fərqlər əmələ gəlir.

Bu gün bir çox türk siyasətçiləri və ictimai xadimləri güman edirlər ki, demokratiya və tərəqqi dini ənənələrin qorunduğu vətəndaş dövlətində reallaşa bilər (65, s.76-94).

Bu gün Türkiyədə həm də «islam iqtisadiyyatı» məktəbinin tərəfdarlarının çoxaldığını qeyd etmək olar. Onlar islamı modernizə etmək ideyası ilə çıxış edirlər və Türkiyənin inkişafında millətçilik ideyalarının və islam elminin inkişafından irəli gəlmiş «üçüncü yolu» təklif edirlər. Məhəmməd Doğan qeyd edirdi ki, «indi heç bir yerdə islam qaydalarına tam cavab verəcək bir dövlət yoxdur. Belə bir dövləti yaratmaq üçün Osmanlı imperiyasına əsaslanmaq lazımdır. Məhz Osmanlı imperiyası iqtisadi münasibətlərlə insan arasında balans yarada bilmişdi» (65, s.76-94).

Oqtay Güner isə marksizmi və kapitalizmi tarixi təcrübədən ayıraraq «islam-türk sintez» nəzəriyyəsini təklif edir və qeyd edir ki, milli özünəməxsusluğa və dirçəlişə cəhd olan bu nəzəriyyənin həyata keçirilməsi nəticəsində türklər XXI əsrə öz möhürlərini vura bilərlər. O, qeyd edirdi ki, «kapitalizm sistemi cəmiyyətin mülkiyyətə aid olduğunu, kommunist-marksist sistemi isə mülkiyyətin cəmiyyətə aid olduğunu müdafiə edir. Mülkiyyətin Allaha məxsusluğunu və insanın yerdə onun vəkili olması islam iqtisadiyyatının məğzini əks etdirir. Qurana görə yerdə və göydə olan bütün zənginliklər bəşəriyyətindir» (65, s.76-94).

A.Türkeş Türkiyəni xilas etmək üçün türk xalqını yeni yol – milli qurtuluşa dəvət edir. O, milli iqtisadiyyatda üç sektor ayırır: dövlət, şəxsi, milli. Türkeş təklif edir ki, «slavyan marksizmini və anqlo-sakson kapitalizmini təkrar etməyərək üçüncü yolu – millətçilik idealını seçək». O deyir: «Marksizm və istismarçı kapitalizm əvəzinə biz yüz faiz yerli, yüz faiz milli doktrinaya əsaslanmalıyıq. Bu, türk sosial ədalətliliyinin və türk millətinin, bütöv cəmiyyətin sürətli inkişafını təmin edəcək». A.Türkeş əlavə edir ki, «türkçülüyü və islamçılığı ayırmaq mümkün deyil və ölkədəki hər işi dinə aid etmək də düz deyil» (65, s.76-94).

N.Ərbakan Türkiyənin inkişafını üfiqi etatizm (etatizm - fransız sözü olub – etat – dövlət deməkdir və dövlətin cəmiyyətin sosial və iqtisadi həyatında fəal iştirakı mənasındadır. Etatizm prosesləri möhkəm mərkəzləşməyə, bürokratiyanın böyüməsi və

gücləndirilməsinə, siyasi həyatın monopolizasiyasına gətirir) siyasətini həyata keçirməkdə görürdü.

Beləliklə, biz keçid dövrünü yaşamış və tədqiq etmiş Qərb və Şərq sosioloqlarının demokratik dövlət quruculuğu ilə bağlı irəli sürdükləri nəzəriyyələrlə tanış olduq. Əgər bu nəzəriyyələri uyğun mahiyyətlərinə görə sistemləşdirməyə çalışsaq, aşağıdakı mənzərə alınar:

I. Sintez nəzəriyyəsi tərəfdarları –

a) Avropa tədqiqatçıları – V.A. Krasilşikov, A.S.Axiezer;

b) Şərq tədqiqatçıları – V.Turacov, Əl-Şəriəti, Əl-Maudidi, Seyid Əhməd xan, Kral Feysəl, Ziya Göyalp, Oqtay Güner.

Avropa və Şərq tədqiqatçılarının təklif etdikləri sintez nəzəriyyəsi öz mahiyyətinə görə fərqlənir. Belə ki, Avropa sosioloqları sintez nəzəriyyəsi dedikdə «nə Qərbi – liberal, nə də Şərqi – korporativ olmayan, eyni zamanda onlardan nə isə götürmüş, avroasiyalaşmış, sintetik və müxtəliftərəfli ideologiya» təklif edirlər. Şərq sosioloqları isə kapitalizm və ya sosializm ideyalarına deyil, milli adət-ənənələrə, islam dininə və müasir sivilizasiyanın mütərəqqi dəyərlərinə əsaslanan sintez nəzəriyyəsini təklif edirlər. Həm Şərq, həm də Qərb sosiolqlarının təklif etdikləri sintez nəzəriyyələrində ümumi cəhət ondan ibarətdir ki, onlar müasir sivilizasiyanın

mütərəqqi dəyərlərinin məqsədəuyğun, milli mədəniyyətlər çərçivəsində mənimsənilməsi tərəfindən çıxış edirlər. Bu meyl qloballaşma erasının əsas xüsusiyyətlərindən biri kimi qəbul edilə bilər.

II. İqtisadi inkişaf nəzəriyyəsi tərəfdarları -

a) Avropa tədqiqatçıları – İ.Rostou, Dyupriye, İ.Şumpeter, R.Munye;

b) Şərq tədqiqatçıları– Şaku əl-Fənqari, Mahmud əbu-s-Sud, Bənisədr, M.Doğan.

Bu nəzəriyyə tərəfdarları əsasən mövcud böhranın səbəblərini araşdırmağa çalışırlar.

III. Vətəndaş cəmiyyəti nəzəriyyəsi tərəfdarları –

a) Avropa tədqiqatçıları –M.N.Kuzmin;

b) Şərq tədqiqatçıları – N.Bərkəs, A.Türkeş, N.Ərbakan.

Postsovet məkanı ölkələrinin yaşadığı keçid mərhələsini «neofeodalizmdən neokapitalizmə keçid» kimi qiymətləndirən bu nəzəriyyəçilər çıxış yolunu sivilist və ya vətəndaş cəmiyyətinin qurulmasında görürlər.

IV. Münaqişə nəzəriyyəsi tərəfdarları –

a) Avropa tədqiqatçıları – K.Marks, G.Zimmel qeyd olunan nəzəriyyəyə müxtəlif tərəflərdən yanaşsalar da, zənnimizcə ümumi fikir belədir ki, cəmiyyət məhz yaranan ziddiyyət, münaqişə və problemlərin həlli istiqamətində fəaliyyət göstərərək inkişaf edir. Bu nəzəriyyə öz mahiyyətinə görə bir qədər böhran konsepsiyasına da yaxındır. Belə ki, mürəkkəbləşmiş ziddiyyətlərin həlli zamanı böhran yaranır və bu böhran cəmiyyətin bütün strukturunu əhatə edir.

Ümumiyyətlə, dünyəvi keçid prosesini tədqiq edən bir çox görkəmli mütəfəkkirlər bu keçid mərhələsini müxtəlif adlarla ifadə edir və uyğun nəzəriyyələrini irəli sürürlər. Qeyd edə bilərik ki, bu nəzəriyyələr ümumi məzmununa görə bir qədər oxşardır. Məsələn, K.Popperin – açıq cəmiyyət, E.Karter və C.Stoksun – qlobal demokratiya, Bunkenin – inteqral texnodemokratiya nəzəriyyələri ümumdünyəvi inteqrasiya və ya sintez prosesini izah və şərh edir və bu prosesin gedişində yaranan ziddiyyətlərin səbəblərini araşdırır. Keçid prosesinin tədqiqi ilə bağlı yaranmış nəzəriyyələrin öyrənilməsi belə nəticəyə gəlməyə imkan verir ki, yaşadığımız keçid mərhələsi hər bir cəmiyyətin ümumi inkişaf tarixinin tərkib hissəsini təşkil etmişdir və yəqin ki, cəmiyyət mövcud olduqca və inkişaf etdikcə, keçid mərhələləri də olacaqdır.

XXI əsrin astanasında respublikamızda yaşadığımız keçid şəraitinə xas olan proseslərin öyrənilməsi üçün dünya təcrübəsindən səmərəli istifadə etmək, Qərb və Şərq sosioloqlarının bu problemə yanaşma prinsiplərini açıqlamaq olduqca vacibdir. Gələcək tədqiqatlarımızda bu baxış və nəzəriyyələr heç şübhəsiz ki, olduqca gərəkli təcrübi mənbə kimi çıxış edə bilər.

## 1.2.Tədqiqatın metodoloji aspektləri və baza anlayışları

Formalaşması XIX əsrin ikinci yarısına təsadüf edən sosiologiyada cəmiyyətin keçid dövrü mərhələlərinin öyrənilməsi bu günə qədər də ən aktual problem kimi tədqiqat obyekti olaraq qalmaqdadır. Nəzəri-sosioloji və empirik-sosioloji tədqiqatların həm obyekti, həm də subyekti kimi çıxış edən şəxsiyyəti isə hər hansı bir tarixi dövrdən və ya

tarixi mərhələdən ayrılıqda öyrənmək qeyri-mümkündür. Heç də təsadüfi deyil ki, müəyyən tarixi dövrlərdə cəmiyyət və bu cəmiyyətdə şəxsiyyətin yeri və s. problemlər bir çox sosioloqların tədqiqatlarında daim diqqət mərkəzində olub. Onu da qeyd edək ki, hər bir sosioloq əslində özünün daha yaxşı bələd olduğu yaşadığı cəmiyyəti tədqiq edərək ümumi nəticələrə gəlmişdir.

Bildiyimiz kimi, hər bir cəmiyyətin strukturunda əsas aparıcı qüvvə insan və onun fəaliyyətinə əsaslı təsir göstərən iqtisadi, siyasi və mənəvi-mədəni sahələri əhatə edən sosial institutlardır. Məhz həmin sahələrin öyrənilməsi müəyyən tarixi dövrdə formalaşan şəxsiyyətin və cəmiyyətin çoxşaxəli mahiyyətini aydınlaşdırmağa kömək edir.

Tədqiqatın əsas məqsədindən çıxış edərək ilk növbədə elmi ədəbiyyatda «keçid dövrü» və şəxsiyyət anlayışlarının izahına nəzər salaq. Sosial keçid adətən transformasiya kimi qəbul edilir. «Transformasiya (keçid) – kökündən sınmış sosial institutların, sosial strukturun yenidən formalaşması ilə müşayiət olunur»(34).

Bir neçə aspektdə qəbul edilən şəxsiyyət isə aşağıdakı xüsusiyyətlərinə görə fərqləndirilir: 1)Şəxsiyyət – fərd olaraq münasibətlərin və dərk edilmiş fəaliyyətin subyekti kimi sosial reallığı yaradır, istehsal edir və dəyişir; 2) şəxsiyyət – sosial mənalı və unikal fərdi təcrübənin və sosial münasibətlərin istehsalı olan fərdi xarakterizə edir; 3) şəxsiyyət – yüksək keyfiyyətlərə malik olub, kütlələrə və tarixi gedişə təsir göstərən fərddir; 4) şəxsiyyət – tutduğu sosial mövqeyə və yerinə yetirdiyi sosial və ya professional rola görə ictimai diqqətdə olan fərddir (34). Şəxsiyyət haqqındakı bu tərif ilə əlaqədar onu da qeyd edə bilərik ki, sosiologiya tarixində bu anlayış hər bir sosioloq tərəfindən özünəməxsus şəkildə açıqlanmışdır. Biz öz axtarışlarımızda K.Marks, M.Veber və P.Sorokinin tədqiqatlarına əsaslanırıq.

Məlumdur ki, şəxsiyyət cəmiyyət daxilində formalaşır, cəmiyyətdən ayrılıqda mövcud olma qeyri-mümkündür. Cəmiyyət bilavasitə sosial münasibətlər əsasında qurulub. Şəxsiyyət və onu əhatə edən sosial mühitin – məkan və zamanın – qarşılıqlı fəaliyyət və qarşılıqlı təsir prosesləri hər bir zamanda özünəməxsusluğu ilə fərqlənib. Ayrı-ayrı sosial institutların qarşılıqlı fəaliyyət və qarşılıqlı təsir dairəsinə daxil olan şəxsiyyət yaşadığı tarixi dövrə uyğun forma almış sosial münasibətləri hazır şəkildə qəbul etməli olur, lakin tədricən bu sosial münasibətləri öz fərdi imkanları çərçivəsində mənimsəyir və daxil olduğu sosial münasibətlərin özünəxas sintezinə çevrilir. Sosial mühit

və şəxsiyyətin qarşılıqlı münasibətlərini izah edən K.Marks qeyd edir ki, «tarix ayrı-ayrı nəsillərin ardıcıl növbələşməsidir. Bu nəsillərin hər biri əvvəlkilərin onlara ötürdükləri materiallar, kapitallar, istehsal qüvvələrindən istifadə edir; … mövcud nəsil bir tərəfdən irsən keçmiş fəaliyyəti tamamilə dəyişilmiş şəraitdə davam etdirir, digər tərəfdən köhnə şəraiti tam dəyişilmiş fəaliyyətilə formaca dəyişir». K.Marksa görə, «intensiv tarixi keçid dövrləri» mövcud cəmiyyətin «… nüvəsinə zidd olan əsasların inkişafı ilə bağlı əmələ gələn» yeni cəmiyyətin «növbəti təşkili» dövrüdür (49, s.56). Köhnənin sınması və yeninin əmələ gəlməsi prosesi bilavasitə şəxsiyyətin sosial həyatına təsir edir. Sosial həyat – siyasi, iqtisadi

və mənəvi-mədəni sahələrin qarşılıqlı fəaliyyəti əsasında müəyyən mahiyyət qazanır. Sosial həyatın mahiyyətini izah edərkən K.Marks iqtisadi amilin təsirini ön plana çəkərək yazırdı: «Siyasi-iqtisad şəxsi mülkiyyətə əsaslanır. Şəxsi mülkiyyətin mövcudluğu ilə əmələ gələn fırıldaqçılıq, əməyin, kapitalın və torpaq mülkiyyətinin ayrılması, ticarət və rəqabət, insanın dəyəri və onun dəyərsizləşməsi, monopoliya və rəqabət və s., bütün bu özgələşmələrlə pul sistemi arasında dərk edilməsini tələb edən münasibətlər yaranır, bir torpaq formasının digərilə əvəz olunması ilə dəyərlər, xarakterlər və s. dəyişir» (49, s.56).

K.Marksdan fərqli olaraq M.Veber tarixi prosesin inkişafında cəmiyyətin ruhi vəziyyətinin iqtisadi vəziyyət qədər əhəmiyyətli olduğunu qeyd edirdi. M.Veber özünün universal-tarixi nəzəriyyəsində sosial həyatın iqtisadi və etik aspektlərinin əlaqəli olduğunu və qalan bütün aspektlərdə əks oldunduğunu açıqlayırdı. O göstərirdi ki, «ictimai elmi öz zəmanələrinə və siniflərinə aid olan insanlar yaradır».

M.Veber belə düşünürdü ki, «kapitalizmin genezisi yalnız istehsal qüvvələrinin inkişafı ilə feodal istehsal münasibətləri arasında yaranan ziddiyyətlərlə bağlı olmayıb, daha çox kapitalizmi feodalizmlə bağlayan bəzi faktorların qarşılıqlı təsiri nəticəsində fərdlərin psixikasında baş verən dəyişikliklərlə bağlıdır» (43, s.13-16). Belə nəticəyə gəlmək olar ki, M.Veber tarixi inkişafın əsasında ictimai şüurun inkişafını götürürdü. Bu cür inkişaf isə əlbəttə ki, təkamüllü inkişafın nəticəsi ola bilər, çünki insanın özü də inqilabi deyil, təkamüllü inkişafın nəticəsi olaraq formalaşmışdır. Bu fikrin inkişafı kimi M.Veber qeyd edirdi ki, «kapitalist istehsal münasibətlərində iqtisadiyyat sosial-tarixi prosesin özgələşmiş formasıdır. İnsanlar arasındakı münasibətlər əşyalar arasındakı münasibətlərə çevrilir. Bu əsas üzərində ticarət, pul, işarə (siyasi, ideoloji) fetişizmi əmələ

gəlir» (43, s.43). O, K.Marksın fikri ilə razılaşaraq yazırdı ki, «əsas istehsalçının öz istehsal qüvvəsindən ayrılması nəticəsində proletariatın pauperləşməsi prosesi əmələ gəlir». M.Veber bu prosesi universal sosial-tarixi tendensiya kimi səciyyələndirir və idarəçilik strukturuna uyğun olaraq cəmiyyətdə də təbəqələşmənin qaçılmazlığını qeyd edirdi. Bununla yanaşı o, K.Marksın kommunizm haqqında fikrinə şübhə ilə yanaşır və nə vaxtsa ən azı idarəçilikdə belə təbəqələşmənin yox olacağına inanmırdı. M.Veber K.Marksla razılaşırdı ki, «sinfi mübarizə kapitalizmin tərkib hissələrindəndir», lakin sinfi mübarizənin sosial-tarixi inkişafın başlıca mənbəyi olmasını qəbul etmirdi. M.Veber sinfi mübarizənin əsasında daha çox subyektiv amilləri götürərək qeyd edirdi ki, «bu cəhətləri yalnız maddi maraqlarla əsaslandırmaq olmaz. Onlar azadlığın sehirli qüvvəsinə nəhəng daxili inamı əks etdirir». O, burjuaziyanı ideal azad insan tipi kimi qəbul edirdi. M.Veber əlavə edirdi ki, «maddi maraqların əldə edilməsində siyasət və hüquqdan istifadə edilməsi sosial-iqtisadi münasibətlərdəki dəyişikliklərə səbəb olur. Bu isə həm sosial birliyin, həm də onun ideallarının deqradasiyasına səbəb olur… Bütün insan fəaliyyətinin kökü insanın maddi məişətilə bağlıdır. Dini, siyasi, hüquqi və mənəvi ideyalar maddi maraqların əldə olunmasına ruhlandırır. Lakin nə maddi maraqlar, nə də ideyalar ayrılıqda mövcud ola bilməz. Biri digərinin tamamlanmasını tələb edir» (43, s.37). Burada biz görürük ki, M.Veber keçid dövrünü yaşayan bir sosioloq kimi şəxsiyyətin keçid dövründə adaptasiya yollarını araşdırmağa çalışırdı. Bu səpkidə fərdi azadlığı araşdırarkən o deyir: «Fərdi iradə, azadlıq və ağıl fərdin sosial xaosu necə dəf etmək qabiliyyəti, şəxsi taleyi və onun siyasi vəzifələr kosmosundakı seçimi ölçülərində məna kəsb edir. Fərd o zaman azad və ağıllıdır ki, o, sosial və siyasi nizamın onun varlığının xarici müəyyənliyindən (yəni fərdin cismani varlığından – M.S.) asılı olmadığını dərk edir» (43, s.157,198).

Eyni zamanda M.Veber əlavə edirdi ki, «zaman-zaman tarixdə şəxsiyyətin rolu yüksəlir. Belə ki, ayrı-ayrı şəxsiyyətlər ən müxtəlif tarixi şəraitə təsir etmək iqtidarındadırlar». O, tarixi dövrün şəxsiyyətin inkişafına təsirini isə belə izah edirdi: «şəxsiyyətin rolu daim mühafizəkarlığa və ənənəviləşməyə məruz qalır. Lakin buna baxmayaraq şəxsiyyət köhnəpərəstliyə və ənənəviləşməyə qarşı durur» (43, s.198).

Öz yaradıcılığında siyasətə əsaslı yer ayıran M.Veber xüsusilə də keçid dövründə və sonrakı mərhələlərdə yaranan siyasi quruluş, siyasi lider, partiyalar, dövlət idarəçiliyi

haqqında bu gün də aktuallığını saxlamış və yaşadığımız siyasi-tarixi mərhələni dərk etməyə kömək edən çox qiymətli araşdırmalar aparmışdır.

K.Marks yaradıcılığına xüsusi ehtiramla yanaşan və bəzi məsələlərdə ondan bəhrələnən M.Veber siyasəti «əks maddi maraqları və inamları olan siniflər, qruplar və fərdlər arasında mübarizə» kimi səciyyələndirirdi. O, qeyd edirdi ki, «bu mübarizədə daha qüvvətli olan və həmin mübarizədən keyfiyyətli istifadə etməyi bacaran sinif və qrup qalib gəlir» (43, s.198-210).

Tarixi keçid dövrlərilə bağlı P.Sorokinin fikirləri daha böyük maraq kəsb edir. O yazırdı: «XVI əsrdən başlayaraq bəşəriyyət keçid dövrünü yaşayır. Biz bəşər tarixinin elə bir çevriliş dövründə yaşayırıq və fəaliyyət göstəririk ki, mədəniyyətin və cəmiyyətin bir forması yox olur, digər forması isə hələ yenicə əmələ gəlir. Böhran o mənada qaçılmazdır ki, onun əcdadlarında olduğu kimi müharibələr, inqilablar, anarxiya və qan tökülmənin qeyri-adi partlayışı ilə, sosial, mənəvi, iqtisadi və intellektual xaos; iyrənc qəddarlığın dirçəlməsi, bəşəriyyətin kiçik və böyük dəyərlərinin müvəqqəti dağılması, adi xaos və adi böhrana nisbətən milyonların kasıblığı və əzablarının daha çox olması ilə qeyd olunur. Belə keçid dövrləri həmişə həqiqətən qiyamət gününə bərabər olur» (63, s.432).

Tarix və şəxsiyyət münasibətlərini izah edərkən Sorokin qeyd edirdi ki, «bütün dünya prosesləri iki qismə bölünür, birincidə insan müəyyən mahiyyətlərin kompleksi olaraq iştirak etmir və buna görə də təbiətin və cəmiyyətin bu və ya digər hissələri arasındakı mövcud əlaqələr ondan asılı deyil». Bununla əlaqədar olaraq onun aşağıdakı qeydləri çox maraqlıdır: «Nə Hitler, nə Stalin, nə də Mussolini bu günkü böhranı yaratmayıblar, əksinə mövcud böhran öz aləti və marionetkası olaraq onları olduqları kimi yaradıb. Onları aradan götürmək olar, lakin bu, böhranı məhv etməyəcək və hətta azaltmayacaq da. Bu böhran nə qədər ki, mövcuddur, yeni hitlerlər, stalinlər, çörçillər və ruzveltlər yaradacaq».

P.Sorokin ikinci qism prosesləri belə izah edirdi: «İkincilər isə insanın mahiyyətini təşkil edir. Bu mahiyyətə müəyyən psixofizioloji təşkilatlar, mühitə təsir edən güclü qüvvə kimi intellekt, dərkedilmiş məqsədli iradə və s. daxildir. Bütün bu mahiyyətlərin nəticəsində mühitə bu və ya digər təsir, hər bir şəxsiyyəti əhatə edən şəraitin bu və ya digər şəkildə dəyişilməsi baş verir və hər bir şəxsiyyət tərəfindən törənən dəyişiklikləri birləşdirərək biz tarixi fakt və dəyişikliklər adlanan anlayışı alırıq. Buna görə də, tarixi

qanunauyğunluq sadə dillə desək, belə məna kəsb edir ki, heç bir tarixi fakt insanın mahiyyətinə əks ola və insana toxunmadan yan ötə bilməz» (63, s.520).

P.Sorokin «bütün insan cəmiyyətini, bütün mədəniyyəti və bütün sivilizasiyaları müəyyən forma və müəyyən görünüşlərdə donmuş (reallaşmış – M.S.) anlayışlar dünyası kimi» səciyyələndirirdi. O, qeyd edirdi ki, «dini dünyanıdərki götürək. Onlar transformasiya edən anlayışlar dünyası, bu anlayışlar dünyasından çıxarılmış nəticə və ümumiləşdirmələrin ümumdünyəvi sintezi deyilsə, bəs nədir! Bu, bütün insan tarixinin gedişi ilə təsdiqlənir! Biliklər nə səviyyədədirsə, din də həmin səviyyədədir. Biliklər dəyişdikcə din də dəyişir… İncəsənətin formaları da biliklərin (anlayışlar dünyasının – M.S.) dəyişməsi ilə müəyyənləşir» (63, s.528).

Bu deyilənlərdən bir daha belə nəticəyə gəlirik ki, cəmiyyətin mənəvi-mədəni həyat səviyyəsi iqtisadi inkişafdan asılı olsa da, ona tabe olmur. Eyni zamanda həm iqtisadi inkişaf, həm də cəmiyyətin mənəvi-mədəni səviyyəsi siyasi fəaliyyətin vacib şərti kimi çıxış edir.

İqtisadi asılılığın inqilabi yolla dəyişdirilməsi fikrinə tənqidi yanaşan P.Sorokin isə qeyd edirdi ki, «inqilab kütlələrin maddi və mənəvi həyat tərzinin yaxşılaşdırılmasının ən pis yoludur. İnqilablar insanları sosiallaşdırmır, əksinə onları biolojiləşdirir…, əsas azadlıqları ixtisar edir, fəhlə sinfinin iqtisadi və mənəvi vəziyyətini pisləşdirir. Zadəgan təbəqələrindən daha çox, inqilabi yolla öz dilənçi vəziyyətinə son qoyacağına inanan milyonlarla kasıb və əməkçi siniflər bədbəxt olurlar. Buna görə də mən inqilabi fikirlərdən kənaram…». P.Sorokin sonda belə nəticəyə gəlir ki, inqilabi eksperimentlərdən başqa da islahatlar vasitəsilə sosial təşkilatın yaxşılaşdırılması və yenidən qurulması yolları var. Bu yolların reallaşdırılmasında o, əsasən dörd prinsip irəli sürür:

«1)İslahatlar insan təbiətini örtməməli və onun əsas instinktlərinə əks olmamalıdır. İnqilab… bunun əksini verir.

2)Konkret sosial şəraitin ciddi elmi tədqiqi onun islahatlaşdırılmasının hər cur təcrübi reallaşmasına kömək etməlidir.

3)Hər bir yenidən təşkilatlandırma eksperimenti əvvəlcə kiçik sosial miqyasda yoxlanılmalıdır və yalnız o, faydalı nəticələr verdikdən sonra genişləndirilə bilər.

4)İslahatlar hüquqi və konstitusion vasitələrlə həyata keçirilməlidir.

İnqilab isə bu qeyd olunanların əksini tələb edir» (63, s.270).

Bütün insan fəaliyyətinin əsasında maddi ehtiyacları ön sıraya çəkən K.Marksdan fərqli olaraq, P.Sorokin əmin idi ki, inqilabların baş verməsinin əsas səbəbi mövcud siyasi idarəçiliyin həm maddi, həm də bilavasitə mənəvi əsaslarının çökməsi ilə bağlıdır.

İnqilab haqqında bütün qeyd edilənləri bu mütəfəkkirlərin siyasət haqqında fikirləri kimi də qəbul etmək olar. Beləliklə, yuxarıda qeyd edilənlər bir daha sübut edir ki, hər hansı elmi anlayışın yaranması və izahının əsasında dahilərin zehni əməyinin nəticələri toplanıb. Bu dahilər arasında K.Marks, M.Veber və P.Sorokinin xüsusi yeri və çəkisi var. Əslində bu anlayışların açılışı K.Marks, M.Veber və P.Sorokinin cəmiyyətin strukturunun əsas tərəflərini (iqtisadi, siyasi, mənəvi-mədəni) izah və əks etdirən uyğun nəzəriyyələri əsasında verilib.

K.Marksın inqilabi nəzəriyyəsi – siyasi prosesləri, izafi dəyər nəzəriyyəsi – sosial-iqtisadi prosesləri, özgələşmə nəzəriyyəsi – mənəvi-mədəni prosesləri əhatə edir. M.Veber eyni məsələlərə universal-tarixi və müqayisəli-tarixi, rasional fəaliyyət nəzəriyyələrində geniş yer ayırır. P.Sorokin isə müəyyən cəmiyyətin – iqtisadi, mənəvi-mədəni və siyasi sahələri əhatə edən proseslərin inteqrasiyası və ümumi sintezi nəticəsində, məhz olduğu kimi, vahid tam olaraq formalaşdığını qəbul edir. P.Sorokin bu fikirlərini inteqral-sintez nəzəriyyəsində əsaslandırır.

Hər üç mütəfəkkir cəmiyyətin inkişafında ideologiyanın təsirini əsas amil kimi qəbul edir.

Son on ildə yaşadığımız keçid dövrünə nəzər salsaq görərik ki, yaxın keçmişdə daxil olduğumuz imperiyanın çökməsinin ilkin səbəbi məhz ideologiyanın dəyərsizləşməsi oldu.

Hər üç mütəfəkkirin yaşadıqları tarixi mərhələni və onların sosioloji nəzəriyyələrini izləməklə bir daha belə nəticəyə gələ bilərik ki, hətta ictimai prosesləri dərk və təhlil edən dahi şəxsiyyətlər də tarixi inkişafın dəyişdirici təsirindən yayına bilmirlər. Bu gün biz kapitalizmin yeni inkişaf mərhələsini yaşayırıq. Bu mərhələni – informasiya cəmiyyəti, açıq cəmiyyət, qlobal demokratiyaya keçid və s. adlarla müəyyənləşdirməyə çalışırlar. Bütün qeyd edilənləri nəzərə alaraq deyə bilərik ki, bu kapitalizmin yeni inkişaf mərhələsidir və kapitalizm bir ictimai-iqtisadi quruluş kimi özünün bu yeni inkişaf mərhələsində də daxili ziddiyyətlərin həllindən çox uzaqdır. Buna görə də heç şübhəsiz ki, bu dahi mütəfəkkirlərin keçid dövrü və şəxsiyyətin qarşılıqlı münasibətləri haqqında irəli sürdükləri metodoloji əsasları bu gün yaşadığımız tarixi dövrün özünəməxsus

xüsusiyyətlərini anlamaqda bizə kömək edir. Eyni zamanda bu mütəfəkkirlərin təqdim etdikləri nəzəriyyələr müəyyən bir tarixi dövrdə və müəyyən məkan çərçivəsində yaradıldığına görə V.A.Yadovun qeyd etdiyi kimi, ən ümumi və daimi mövcud olacaq nəzəriyyələr kimi qəbul edilə bilməz, çünki cəmiyyət daim inkişaf edərək formaca təkmilləşir və dəyişir. Lakin bizim fikrimizcə, konkret tarixi mərhələdə formalaşan cəmiyyətin və bilavasitə bizim tədqiqat dairəsinə aid olan keçid dövrü cəmiyyətinin yaşadığı prosesləri öyrənmək üçün struktur-funksional analiz nəzəriyyəsinin əhəmiyyəti danılmazdır. Əslində bu nəzəriyyə hər hansı bir cəmiyyətin öyrənilməsi üçün düstur rolunu oynaya bilər. Elmi ədəbiyyatda bu nəzəriyyənin izahı aşağıdakı kimi verilir: «Struktur-funksional analiz sosial təzahürlərin və proseslərin sistemli tədqiqat prinsipi kimi bu təzahür və prosesləri strukturca bölünmüş bütöv olaraq öyrənir. Bu bölgüdə hər bir element müəyyən funksional təyinata malikdir. Struktur-funksional analiz marksist sosiologiyada tarixilik və sosial iqtisadi determinizm prinsiplərilə bağlı olan dialektik-materialist metodologiyadan çıxış edir». M.Veber və P.Sorokinnin nəzəriyyələrindən gördüyümüz kimi, onlar və «bir çox Qərb sosioloqları isə əsas struktur təşkilatları kimi sosial-iqtisadi strukturları deyil, dəyərlər və normalar mexanizmlərini qəbul edirlər (34, s. 307).

Müasir dövrümüzdə də alimlər ayrı-ayrı cəmiyyətlərin öyrənilməsi məqsədilə struktur-funksional analiz nəzəriyyəsinə xüsusi əhəmiyyət verirlər. Belə ki, Rusiya sosioloqu V.A.Yadovun son tədqiqatlarında struktur-funksional analiz nəzəriyyəsi belə açıqlanır: «Cəmiyyətin struktur-funksional analizi nəzəriyyəsi sosiologiyanın predmet sahəsində əsas olan sosial sistemləri, onların tamlığını və funksionallaşma qanunauyğunluqlarının öyrənilməsini əhatə edir» (68,s.200).

Qeyd edə bilərik ki, struktur-funksional analiz nəzəriyyəsi həm xüsusi, həm də ümumi sosioloji nəzəriyyə kimi qəbul edilə bilər və həm keçid dövrü cəmiyyətinin, həm də keçid dövrü şəxsiyyətinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Bu baxımdan struktur-funksional analiz nəzəriyyəsini bu günümüz və yaxın gələcək üçün universal bir nəzəriyyə kimi qəbul etmək olar.

Struktur-funksional analiz nəzəriyyəsinə ümumi sosioloji nəzəriyyə kimi yanaşan V.A.Yadov yuxarıda qeyd edilən fikrini davam etdirərək bildirir ki, «XXI əsrin astanasında dünya sosioloji birliyi başa düşür ki, həm ümumi nəzəriyyədə, həm də empirik

tədqiqatlarda o, müxtəlif metodoloji paradiqmaların, sosial reallığın dərk edilməsinə, müxtəlif yanaşmaların qarşılıqlı anlaşılmasına və birləşməsinə cəhd etməlidir» (68,s.5). Belə nəticəyə gəlirik ki, V.A.Yadov cəmiyyətin strukturunu təşkil edən institutların fəaliyyətinin tənzimlənməsi üçün yaradılmış və yaradılacaq nəzəriyyələri struktur-funksional analiz metodologiyasında birləşdirməyi təklif edir. Deyilənlərə əlavə olaraq V.A.Yadov cəmiyyətin tədqiqində struktur-funksional analiz və fenomenoloji nəzəriyyələri özündə birləşdirəcək sintez nəzəriyyəsinə üstünlük verir. Beləliklə, V.A.Yadovun təklif etdiyi sintez nəzəriyyəsi hissə və tamın qarşılıqlı təsiri prinsipinə əsaslanır. Lakin fikrimizcə, alimin qeyd etdiyi bu ən ümumi nəzəriyyə inteqral-sintez adlandırılsa idi daha məqsədəuyğun olardı. Bu fikrimizlə bağlı bir daha P.Sorokinə, onun inteqral-sintez nəzəriyyəsinə qayıtmağı vacib hesab edirik. İnteqral-sintez nəzəriyyəsində ilk növbədə mövcud sosial institutların qarşılıqlı fəaliyyət və qarşılıqlı təsirinin inteqrasiyası, yəni sosial institutların funksional fəaliyyətinin nəticələrinin sintezi əsasında inkişafda olan cəmiyyəin özünəməxsus mahiyyəti açıqlanır. Bununla yanaşı, şəxsiyyətin hərtərəfli açılmasına daha səmərəli zəmin yaranır. Belə ki, cəmiyyətə inteqrasiya edən şəxsiyyət öz fərdi imkanları çərçivəsində sosial münasibətlərin sintezti kimi formalaşır.

Bu baxımdan Rusiya sosioloqu V.E.Xitsenkonun fikirləri olduqca maraqlıdır. Müəllif qeyd edir ki, «Mikrodünyanın damlasında mürəkkəb makro sistemlərin, o cümlədən sosial sistemlərin idrak problemləri əks olunur. Bu əlaqədə ilk növbədə qeyd edilməli olan mürəkkəb sistemlərin bölünməzliyidir. Tam hissələrin məcmusu deyil. Sistemin oxşarlığını və bütövlüyünü müəyyən edən əsas mahiyyətlər onu təşkil edən hissələrin heç birinə xas olmayıb, hissələrin mahiyyətindən deyil, onların birliyindən yaranır. Bu, emercentlik effekti adlanır» (64, №3, 2001, s.10). Müəllif qeyd edilən emercentlik effektini bir tam kimi həm cəmiyyətə, həm də fərdə aid edir. Bir-birinə qarşılıqlı təsir göstərən bu makro və mikro sistemlərin təsiriqəbuletmə və cavabvermə qabiliyyət və səviyyələri bu sistemlərin müəyyən an daxilində mövcud daxili vəziyyətlərindən də çox asılıdır. Müəllif cəmiyyət-şəxsiyyət sistemini hissələrə bölərkən qeyd edilən emercentlik (bölünməzlik) prinsipinin nəzərə alınmasını vacib bilir. Belə nəticəyə gəlmək olar ki, qloballaşan dünyamızda çoxsaylı cəmiyyətlər arasında yaranan fərqlərin əsasında məhz bu emercentlik (bölünməzlik) prinsipi dayanır. Necə ki, 6 milyard insanın hər biri fərqli bir mürəkkəb sistemdir. Müəllif belə nəticəyə gəlir ki, sosial proses iştirakçılarının düşüncəsi

və fəaliyyəti bu prosesin gedişinə bu və ya digər dərəcədə (şəraitdən asılı olaraq – M.S.) təsir edir. Xitsenkoya görə, şəxsiyyətin prosesin gedişinə etdiyi fərdi təsir refleksiyalı ilgək prinsipi ilə yaranır. Müəllif qarşılıqlı təsir proseslərində tarazlığın əldə edilməzliyini nəzərdə tutaraq qeyd edir ki, «bərabərliyə çatmaq mümkün deyil» (64, №3, 2001, s.10).

Beləliklə, Xitsenkonun təklif etdiyi emercentlik effektini sintez anlayışını hissəciklərinə qədər izah edə biləcək keyfiyyətə malik bir nəzəriyyə kimi qəbul etmək olar.

Şəxsiyyət probleminin öyrənilməsilə bağlı olaraq müasir elmdə çoxsaylı şəxsiyyət nəzəriyyələri mövcuddur. Bu nəzəriyyələr içərisində məhşur psixoloq A.V.Petrovskinin qrup daxilində şəxsiyyətin inkişaf mərhələləri haqqındakı tədqiqatı daha böyük maraq döğurur. A.V.Petrovski şəxsiyyətin inkişafı ilə bağlı olan üç mərhələni qeyd edir və bu mərhələlərin hər dəfə yeni sistemə daxil olan şəxsiyyətin həyatında yenidən təkrarlandığını söyləyir. Bu mərhələlər: 1) uyğunlaşma; 2) fərdiləşmə; 3) inteqrasiyadır (54, s.39-47).

Beləliklə, cəmiyyətin struktur-funksional analizi və psixoloq A.V.Petrovskinin təklif etdiyi şəxsiyyət nəzəriyyəsi əsasında «Keçid dövründə şəxsiyyət problemi» mövzusunun metodoloji problemlərinə dair aşağıdakı ümumiləşdirmələrə gəlmək olar:

Keçid dövrü – mövcud mədəni ənənələrin (mənəvi, iqtisadi, siyasi) təsirlilik dərəcəsinin tədricən itirilməsi və yenidən dərketmə prosesində yeni mədəni ənənələrin formalaşmasının başlanğıc mərhələsidir.

Keçid dövrünü şərti olaraq 3 dövrə bölmək olar:

1)köhnə sosial münasibətlər daxilində ziddiyyət dərinləşir;

2)köhnə sosial münasibətlərin qalıqları və yeni yaranmaqda olan sosial münasibətlər yanaşı fəaliyyət göstərir;

3)yeni sosial münasibətlər möhkəmlənməyə başlayır.

Keçid dövrü şəxsiyyətinin formalaşmasına təsir edən amillər:

1)sosial-iqtisadi gərginlik;

2)siyasi gərginlik;

3)ənənəvilik xüsusiyyətlərinin itirilməsi nəticəsində yaranan mənəvi-mədəni gərginlik.

Təsiredici amillərin nəticələri:

1)özünə inamsızlıq;

2)gələcəyə ümidsizlik;

3)ətrafdakılara ehtiyatlı yanaşma;

4)azad seçim imkanları

Yaranan fəaliyyət formaları:

1) yeni iqtisadi münasibətlərə dərk edilmiş uyğunlaşma;

2) bioloji mövcud olmanı təmin etmək üçün əmək fəaliyyəti;

3) siyasi proseslərə fəal daxil olma;

4) siyasi proseslərin kənardan seyirçisi;

5)yeni mənəvi-mədəni proseslərin tənqidsiz qəbulu;

6)mənəvi-mədəni münasibətlərdə ənənəvilik tərəfdarı.

Yaranan şəxsiyyət tipləri:

1) Marginal – İlk dəfə Park tərəfindən işlədilmiş bu termin, müəllifin qeyd etdiyi kimi, «mədəni hibrid», yəni «iki müxtəlif qrupun həyat və adət-ənənələrini» bölüşən şəxsiyyətdir (34, 1 c., s.389). Keçid dövrünü yaşayan marginal tip həm keçmiş quruluşun itirilən ənənələrinin, həm də yeni yaranan ənənələrin daşıyıcısıdır və eyni zamanda hər iki mədəniyyətə «qərib» olan şəxsiyyətdir.

2) Təqlidçi – Keçid dövründə bu tip daha qabarıq nəzərə çarpır. Çünki bir çox insanlar çaşqınlıq halında hansı vəziyyətin daha düzgün olduğunu müəyyən etməkdə çətinlik çəkirlər. Tənqidi münasibətin olmaması onların öz qeyri-şüuri imkanlarına uyğun davranış formalarını təqlid etmələri ilə nəticələnir (34, 2 c., s.32).

3)Konformist – Bu tip insanlar daxil olduqları qrupun təzyiqi altında fəaliyyət göstərirlər. Bu təzyiq zorakı xarakterə malik olmayıb şəxsiyyətin öz seçimidir. Belə ki, konformist tip öz davranışını dərk edilmiş şəkildə qrupun qanunlarına uyğunlaşdırır. Demək olar ki, bu tip insanlar ən tez adaptasiyaya uğrayan insanlardırlar (55, s.175).

4)Konservator – bu tip daxil olduğu qrupun adət-ənənələrini və ya öz ideallarını heç nədən asılı olmayaraq dəyişməyən və daim müdafiə edən şəxsiyyətdir (34, 1 c., s.321).

5)Novator – yenilikçi, yenilik gətirən, yenilik yaradan, yenilik tətbiq edən şəxsiyyətdir.

6)Neytral tip – mövcud dəyişikliklərə münasibətdə bitərəf mövqe tutsa da, passiv şəxsiyyət deyil. O, inqilabçı deyil və özünün məqsədəuyğun mənafeyi baxımından fəaliyyət göstərir.

Müəyyənləşdirilməsinə cəhd edilmiş şəxsiyyət tipləri nə keçid dövrü cəmiyyətlərində, nə də sabit cəmiyyətlərdə tam xarakterik şəxsiyyət tipi kimi mövcud ola bilməz, yəni məsələn, konservator kimi fərqləndirilən şəxsiyyətdə məhz konservativ əlamətlər üsütnlük təşkil edir. Lakin qeyd edilən tip bu və ya digər səviyyədə digər şəxsiyyət tiplərinin də əlamətlərinə malik olur. Çünki yeniləşmə dövründə yaşayıb, özündən asılı olmayaraq yeni meyllərin təsiri altında olan şəxs tam konservator ola bilməz. Konservator eyni zamanda həm yeni yaranan sosial münasibətlərə mariginal mövqedə durur, həm tam başa düşə bilmədiyi, lakin qeyri-şüuri qəbul etdiyi müəyyən sosial münasibətləri təqlid edir və ya dərk edərək uyğunlaşır, həm də yeniliyə qarşı mübarizənin mənasızlığını dərk edib neytral mövqe tutur. Sosial münasibətlərin şəxsiyyətin refleksiv imkanları çəçivəsində qeyd edilən şəkildə qəbul edilməsini bütün şəxsiyyət tiplərinə aid etmək olar. Lakin bir daha vurğulamaq istərdik ki, məhz bu və ya digər xüsusiyyətlərinin üstünlük təşkil etməsi müxtəlif şəxsiyyət tiplərinin fərqləndirilməsinə şərait yaradır.

Yuxarıda deyilənlərdən çıxış edərək deyə bilərik ki, «Keçid dövründə şəxsiyyət problemi» mövzusunun metodologiyası aparılan müqayisələrdən əldə edilmiş nəticə kimi «Struktur-funksional analiz» və «Şəxsiyyət nəzəriyyəsini» özündə birləşdirən «İnteqral-sintez» nəzəriyyəsinə əsaslanır.

# II. FƏSİL – AZƏRBAYCAN RESPUBLİKASINDA MÖVCUD PROSESLƏR VƏ ŞƏXSİYYƏT PROBLEMİ

## 2.1. Siyasi proseslər şəxsiyyət problemi prizmasından

Siyasət – siyasi hakimiyyət vasitəsilə ümumi əhəmiyyət kəsb edən maraqların həyata keçirilməsi ilə bağlı olan qrupların, fərdlərin, dövlətlərin fəaliyyət sahəsidir (34, 2 c., s.39). Siyasətin məhz belə izahından çıxış edərək, keçid dövründə Azərbaycan Respublikasında baş verən siyasi prosesləri və bu qarışıq proseslərdə şəxsiyyətin həm obyekt, həm də subyekt olaraq tutduğu mövqeyi və bu mövqedə onun fəaliyyətinin xüsusiyyətlərini aydınlaşdırmağa çalışaq. Keçid dövründə siyasi proseslərin tədqiqi əvvəlcə keçib gəldiyimiz cəmiyyət və yaşadığımız keçid dövrü cəmiyyətinin özünəməxsus xüsusiyyətlərinə nəzər salmağı tələb edir. Keçib gəldiyimiz sovet-sosializmi qapalı cəmiyyət idi. Burada siyasətin əsas aparıcı qüvvəsi olan hakimiyyət vahid partiyanın əlində idi. Siyasi plüralizm bu cəmiyyətə yad idi. İngilis tədqiqatçısı Louse İ.Şelinin qeyd etdiyi kimi: «Sovet İttifaqının mövcud olduğu bütün müddət ərzində – 1980-cı ilə qədər bütün dövlət alətləri – polis, gizli polis qüvvələri və hərbçilər – vətəndaş cəmiyyətinin elementlərini uğurla boğurdular. Yenidənqurmaya qədər burada heç yerdə əmək hərəkatları, siyasi hərəkatlar, dini birliklər dövlətdən ayrı deyildilər. Yenidənqurmadan (1985\1991) sonra burada vətəndaş və siyasi hüquqlar (o cümlədən etnik azlıqlara aid olan) üçün təhlükə yarandı. Dövlət aparatı daxilində qüvvələrin bölünməsi yox idi». Bu totalitar sistemə xas xüsusiyyətlərdir və Lous İ. Şellinin qeyd etdiyi kimi: «Totalitar sosial sistemlərdə dövlətin qanunvericilik, icraedicilik və hüquqi bölmələri arasındakı bölünmə formal xarakter daşıyırdı… Totalitar dövlətlərin institutları hüquqi normalara, xüsusi yanaşmalara malik olub funksiyalaşdırıcı partiyanın nəzarətinə tabe olurlar». SSRİ–də institutlar və hüquqi normalar Kommunist partiyasının nəzarətinə tabe idilər. Hüquqi partiyanın və dövlət ideologiyasının dağılması ilə mərkəzləşmiş dövlət aparatı öz avtoritetini itirdi. Bir sıra hüquqi institutlar öz qanuniliklərini itirdilər» (77, s.255).

Bildiyimiz kimi, hər hansı siyasi məkanda hakimiyyət siyasətin əsas aparıcı institutlarından biri kimi çıxış edir. Buna görə də keçid dövründəki siyasi prosesləri izləyərkən ilk növbədə keçmiş və mövcud hakimiyyətin vəziyyətini təhlil etmək lazımdır. Bəs bir institut kimi ümumiyyətlə hakimiyyət hansı funksiyanı yerinə yetirir. «Hakimiyyət – müxtəlif sosial qrup və birliklərin, ayrı-ayrı şəxsiyyətlərin sosial

davranışlarının məzmununu və formalarını müəyyən etmək, istiqamətləndirmək və nəzarət etmək imkan və bacarıqlarının institutlar tərəfindən təsdiqlənməsidir» (31, s.57-71).

SSRİ-nin mövcudluğunun son illərində bu cür leqal hakimiyyət sarsılmışdı. Qapalı cəmiyyətdən demokratik cəmiyyətə keçidin özünəməxsus təzahürləri görünməkdə idi. İlk təzahürlər informasiya qıtlığı və azadlığa olan qarşısıalınmaz istək idi. Belə bir şəraitdə xalqın ümid etdiyi və qüvvəsinə inandığı bir şəxsiyyət və partiya aparıcı qüvvəyə çevrilir.

M.Veberin qeyd etdiyi kimi, «sosial-siyasi böhran zamanı xarizmatik hakimiyyət əmələ gəlir və ya xarizmatik rəhbər meydana çıxır. Xarizmatik rəhbər mövcud sosial nizamın əsaslarını dağıtmağa çalışır və öz siyasi radikallığı ilə seçilir. Üsyanın və ya inqilabın uğurlu gedişi isə onun qüvvəsinə olan inamı gücləndirir. Bu inam insanların kütləvi şəkildə mövcud adətlər və qanunlardan uzaqlaşmasına və yenini qəbul etməsinə səbəb olur. M.Veber belə hesab edirdi ki, xarizmatik hakimiyyət insan təcrübəsinin daxili inqilabına aparır. Bu, xarici inqilabdan onunla fərqlənir ki, xarici inqilab insanların ideal və ideyalara biganə qalaraq yeni dəyişikliklərə uyğunlaşmasıdır» (47, s.190). Deməli, daxili inqilab ideal və ideyalarda baş verən dəyişikliklərlə müşayiət olunur.

80-cı illərin sonlarında Sovet imperiyasında ilk nəzərə çarpan məhz daxili inqilab idi. Azərbaycanda belə bir daxili inqilabın ilk carçılarından olan Əbülfəz Elçibəy sonradan xarici inqilabın liderinə çevrildi. Eyni zamanda, yəni 1988-ci ildə Azərbaycan xalqına zorla sırıdılmış Qarabağ problemi əvvəllər siyasətə qarşı tam laqeyd olan yüzminlərlə adamı siyasi mübarizə meydanına atdı. Qarabağ problemi xalq kütlələrini fəallaşdırmaqla yanaşı, respublika rəhbərliyinin tam acizliyini də aşkar etdi. Belə bir şəraitdə xalq kütlələri arasında həm Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi, həm də respublikanın real suverenliyini təmin edə biləcək kütləvi ictimai təşkilat yaratmaq ideyası tədricən formalşırdı (25, s.113-122). İmperiya tabeçiliyindən xilas olmağa çalışan xalq kütlələri öz etirazlarını mitinqlər vasitəsilə bildirirdilər.

Təsvir edilən hadisələr dövrünü sosioloji və tarixi baxımdan qiymətləndirərək belə nəticəyə gəlmək olar ki, qeyd olunan hadisələr keçid dövrünün birinci mərhələsinə xas olan cəhətlərdir və 1989-1993-cü illər respublikamızda keçid dövrünün erkən mərhələsidir. Bu dövrdə yeni siyasi qüvvələrlə köhnə siyasi qüvvələrin toqquşması və həm cəmiyyət, həm də bu cəmiyyətin elementar hissəciyi kimi qəbul edilən keçid dövrü şəxsiyyəti üçün faciəli hadisələrin yaşandığı müşahidə olunur. Bu dövrün əsas

cəhətlərinin ümumiləşdirilməsi və təhlili baxımından Bolqarıstanın eks-prezidenti Jelyo Jelevin (1990-1997) fikirləri çox qiymətlidir: «Kommunizmdən çıxmaq həddən artıq çətindir. Bu halda keçid prosesi yalnız dövlətin totalitar siyasi strukturlarının dağıdılması yox, həmçinin iqtisadi islahatlar yolu ilə mülkiyyət uğrunda dövlət inhisarının ləğv edilməsi ilə bağlıdır. Keçid dövrü 3 mərhələdə gedir. Kommunizmdən demokratik cəmiyyətə keçid mərhələləri qeyri-müəyyəndir, zaman çərçivəsində kəsişir, çox vaxt eyni zamanda cərəyan edir. Birinci mərhələ  - yeganə partiyaının totalitar sisteminin süqutu ilə bağlıdır. Vətəndaş cəmiyyətinin elementləri meydana çıxmağa başlayır: çoxpartiyalı sistemin, müstəqil həmkarlar ittifaqlarının, azad mətbuatın yaranması, söz, nəşriyyat, nümayiş azadlığının bərqərar olması, universitetlərin muxtariyyatı, azad qanunverici, prezident və bələdiyyə seçkilərinin keçirilməsi hüququ dövrüdür… Birinci mərhələnin sözü azadlıqdır… Azadlıq küçələrdə və ictimai yerlərdə əldə olunur… « (14, s.7-41).

Jelyo Jelevin sözlərini keçid dövrünün erkən mərhələsinin siyasi qiymətləndirilməsi kimi qəbul etmək olar. Keçid dövrünün məhz birinci mərhələsi olan – 1989-1993-cü illərdə Azərbaycanda siyasi proseslər kəskinləşmişdi. Ermənistan tərəfindən cəlb olunduğumuz ədalətsiz müharibə ilə yanaşı respublikanın daxilində hakimiyyət uğrunda aparılan siyasi mübarizə vətəndaş müharibəsi həddinə çatdırılmışdı. Təhlil etməyə çalışdığımız tarixi mərhələdə siyasi lider və kütlənin, şəxsiyyət və xalqın münasibətlərini müqayisəli analiz etməyə cəhd edək. Şahidi olduğumuz kimi qısa zaman müddətində – 1990-1993-cü illər dövründə Azərbaycanda üç siyasi lider – A.Mütəllibov, Ə.Əliyev (Elçibəy) və H.Əliyev hakimiyyətdə olmuşlar. İlk növbəd A.Mütəllibov və Ə.Əliyevin fəaliyyətini təhlil etməyə cəhd edək. Bu siyasi fəaliyyət subyektlərinin hakimiyyəti dövründə baş verən hadisələrin təhlili ilə bağlı alman sosioloqu M.Veberin araşdırmalarına istinad etmək çox məqsədəuyğun olardı. Belə ki, keçid prosesini və bu zaman baş verən siyasi hadisələrdə həlledici rol oynayan siyasi fəaliyyət subyektinin fəaliyyətini araşdırarkən M.Veber qeyd edirdi ki: «Əgər subyekt hakimiyyət iradəsini reallaşdırırsa, o, bu fəaliyyətlə bağlı olan nəticələri aydın dərk etməlidir. Əks təqdirdə real həqiqətdə ideal həmişə əlçatmazdır. Fərdlərin sosial, siyasi və digər vəzifələri eyni münasibətlərdə üst-üstə düşür: bu, cəmiyyətin və dövlətin, əxlaq və ağılın dəyərləridir. Fərdi iradə, azadlıq və ağıl fərdin sosial şəraitdəki xaosu və şəxsi taleyini dəf edərək siyasi vəzifələr kosmosunu seçərkən dəyərli olur. Belə özünümüəyyənləşdirməyə – dərketmə formaları (siyasi

əqillilik, korparativ ruh və dövlətçilik ağlı) gətirib çıxarır və dövlətin cəmiyyətə təsiri ilə bağlı olur « (47, s.157). Böyük sosioloqun fikirlərini əsas tutaraq belə nəticəyə gəlmək olar ki, A.Mütəllibov siyasi hakimiyyət üçün, xüsusilə də Azərbaycanın ictimai-siyasi həyatında xaos hökm sürdüyü bir dövrdə idarəçilik üçün hazır kadr deyildi. Bunun səbəbi isə M.Mütəllibovun siyasi dərketmə formalarına tam yiyələnməməsi idi. Buna görə də A.Mütəllibov bir tərəfdən, sarsılmış imperiya ağalarının, digər tərəfdən isə yerli demokratik qüvvələrin və o cümlədən hakimiyyətdə şəxsi mənafe güdən öz ətrafının əlində oyuncağa çevrilmişdi. Reallığı düzgün qiymətləndirmək bağarığının olmaması bir fəaliyyət subyekti kimi onun acizliyini nümayiş etdirirdi.

Sovet imperiyasnın gələcəyinin mövcudluğuna inamın qalması və yerli demokratik qüvvələrin təzyiqi onu çaşqınlıq həddinə çatdırmışdı. A.Mütəllibovun hakimiyyəti leqal hakimiyyət idi, lakin bu, dövrünü yaşamış və dağılmaqda olan imperiyanın son qanuni fəaliyyəti ilə bağlı olan və yenilik qarşısında aciz olan hakimiyyət idi.

Xalq kütlələrinin vəziyyətinə nəzər salsaq, eyni çaşqınlığı izləyə bilərik. Həmin dövr ictimai və siyasi şüurdakı qeyri-müəyyənlik də eyni dərəcədə idi və M.Veberin yuxarıdakı izahını nəzərə alsaq, belə qənaətə gələ bilərik ki, A.Mütəllibovun hakimiyyəti dövründə məhz siyasi şüurun düzgün yönəldilməsi üçün siyasi təşkilatçılıq qabiliyyəti çatışmırdı.

A.Mütəllibovdan fərqli olaraq, Ə.Əliyev (Elçibəy) azadlığın əsl carçısı olan xarizmatik lider idi. Buna baxmayaraq, onun hakimiyyəti dövrü daha qarışıq və faciəli hadisələrlə müşaiyət olunur. Eyni siyasi təşkilatsızlıq və idarəçilikdə qabiliyyətsizlik fəaliyyətləri Ə.Əliyevin (Elçibəy) prezidentliyi dövründə də müşahidə olunur. Meydanlarda azadlıq uğrunda mübarizə başa çatır, hakimiyyətə gələn demokratik qüvvələrin dövlət idarəçiliyindəki səriştəsizliyi üzə çıxır. Ə.Əliyev azadlıq və demokratiya carçısı kimi hakimiyyətə gələn və öz dövrü və yaşadığı şərait üçün bir qədər utopist fikirlərlə yaşayan siyasi fəaliyyət subyekti idi. Belə ki, Ə.Əliyev də yaşadığı dövrü və öz hakimiyyətinin səlahiyyətlərini düzgün dərk edib fəaliyyət göstərməkdə aciz idi. Bu, idarəçilik təcrübəsinin olmamasından irəli gəlirdi və onun hakimiyyəti dövründə baş verən faciələrin də səbəbi məhz idarəçilik təcrübəsinin çatışmazlığı olmuşdu. M.Veberin qeyd etdiyi kimi, xarizmatik liderin hakimiyyətə gətirilməsi dövründə "əvvəlcə özünənəzarət ilahiləşdirilməyə gətirib çıxarır, sonra isə bütün arzu və məqsədlərin itirilməsi qarşıya qoyulmuş məqsədə çatmağa mane olur. Nəticədə xarizmanın fəaliyyətinin rasionallaşması

baş verir. O, hakimiyyətini saxlamaq üçün ona inanan və hakimiyyətə gətirən davamçılarına güzəştə getməli olur” (47, s.190).

Yaşadığımız dövrdə Ə.Əliyevin (Elçibəy) öz hakimiyyətini saxlaması üçün onu hakimiyyətə gətirənlərə etdiyi güzəştlərin hansı faciələrlə nəticələndiyinin şahidiyik. Ə.Əliyevin (Elçibəy) hakimiyyətə gəlişini Azərbaycan dövlətçiliyinin tənəzzülü kimi qimətləndirən A.Rzayev qeyd edir ki, “öz yanılmalarını başa düşmək qabiliyyətinin olmaması liderin şəxsi faciəsinə çevrilir, bu da öz növbəsində bütöv cəmiyyətin faciəsi ola bilər” (58, s.203).

Ə.Əliyevin (Elçibəy) idarəçilik dövrü özündə ənənəvi dövlət formasının təzahürlərini daha çox daşıyır. Belə ki, Ə.Əliyev (Elçibəy) Azərbaycan dövlətçiliyinin əsas istiqamətlərinin türkçülük, islamçılıq və demokratiya olduğunu vurğulayırdı. Bu isə ADR ənənələrinin bərpasına cəhd kimi qiymətləndirilə bilər. Çünki Azərbaycanın respublikaçılıq tarixində ilk dəfə bu şüarla M.Ə.Rəsulzadə tarix səhnəsinə gəlmişdi.

Beləliklə, apardığımız qısa təhlildən əldə etdiyimiz nəticə belədir: Ə.Əliyevin (Elçibəy) siyasi fəaliyyət təcrübəsinin olmaması Azərbaycanda keçid dövrünün birinci mərhələsinin uzanmasına və yenidən daha faciəli yaşanmasına səbəb oldu. Nəhayət, öz siyasi fəaliyyət imkanlarının məhdudluğunu dərk edən Ə.Əliyev (Elçibəy) hakimiyyətdən könüllü uzaqlaşdı. A.Rzayev bu hadisəni belə izah edir: «1993-cü il 4 iyun Gəncə qiyamı, ermənilərin mövcud vəziyyətdən istifadə edərək yeni əraziləri işğal etmələri məhz bu dövrə təsadüf edir. 1993-cü il iyun-iyul ayları respublikada dövlət böhranının ən yüksək nöqtəsi oldu. Buraxdıqları dövlət cinayətlərinin ağırlığı altında Ali Şuranın sədri və respublikanın baş naziri istefa verdilər. 1993-cü il 17-18 iyun gecəsi Ə.Əliyev (Elçibəy) öz səlahiyyətlərindən imtina edərək, paytaxtı tərk etdi» (58, s.203).

Göründyüy kimi, müstəqil və bütöv Azərbaycan haqqında xəyalpərvər fikirlərlə yaşayan xarizmatik lider məhz idarəçilik qabiliyyətinin olmadığını başa düşüb hakimiyyətdən uzaqlaşdı. Əslində bu addım siyasi xadim kimi Ə.Əliyevin (Elçibəy) xarizmasının saxlanmasına yardım etdi. (Çünki, zənnimizcə, dövlət idarəçiliyində törədilmə ehtimalı olan yeni səhvlərin qarşısı alındı).

Beləliklə, qeyd edə bilərik ki, Azərbaycanda keçid dövrünün birinci mərhələsi oxşar sosial və siyasi hadisələrlə müşayiət olunub.

1993-cü ildə H.Əliyevin hakimiyyətə gəlməsi ilə keçid dövrünün ikinci mərhələsi başlandı. Qeyd edə bilərik ki, müəyyənləşdirməyə çalışdığımız hər bir mərhələnin özündə də pilləli inkişafı izləmək mümkündür. Belə ki, həm birinci mərəhələdə, həm də ikinci mərhələdə bir neçə pilləli keçidləri müşahidə etmək olar. Buna nümunə olaraq birinci mərhələdə üç hakimiyyət subyektinin bir-birini əvəz etmə dövrləri altmərhələlər kimi qəbul edilə bilər. Çünki bu zaman siyasi proseslərin gedişində nəzərəçarpan dəyişəikliklər baş verir. Bununla yanaşı, ayrı-ayrı mərhələlərdə baş vermiş siyasi proseslərdə oxşar cəhətlər nəzərə çarpır. Belə ki, keçid dövrünün ikinci mərhələsi kimi qəbul etdiyimiz 1993-1995-ci illər arasında keçid dövrünün birinci mərhələsinə bənzər proseslərin bir qədər yeni formada yenidən yaşandığını müşahidə etmək mümkündür. Bunu aşağıdakılar sübüt edir:

1) H.Əliyev xarizmatik lider kimi hakimiyyətə gətirildi;

2) H.Əliyev də ilk dövrlərdə öz ətrafına və ya onu hakimiyyətə gətirən qrupa müəyyən güzəştlərə getdi;

3) Xarizmatik hakimiyyətə xas olan əlamətlərdən biri kimi, hakimiyyətin geniş təbliğinə başlandı və s.

Bu siyasi təzahürlər Azərbaycanda keçid prosesinin ikinci mərhələsinin erkən dövrünə xas təzahürlər kimi də qəbul edilə bilər.

Bolqarstanın keçmiş prezidenti Jelyo Jelevin qeyd etdiyi kimi: “İkinci mərhələnin sözü demokratiyadır. Azadlıq küçələrdə və ictimai yerlərdə, demokratiya isə institutların köməyi ilə əldə olunur. Demokratiya qanunlarda və institutlarda təcəssüm olunan azadlıqdan başqa bir şey deyil” (47, s.190).

Bu deyilənləri nəzərə alaraq deyə bilərik ki, əgər Ə.Əliyevin (Elçibəy) dövründə demokratik qanunların verilməsi istiqamətində bəzi addımlar atılmışdısa, H.Əliyevin hakimiyyətdə olduğu 1993\1995-ci illərdə demokratik qanunların qəbul edilməsi yönümündə əsaslı işlər görüldü. Radikal islahatların keçirilməsi, sosial institutların formalaşdırılması fəaliyyəti onun hakimiyyətinin rasional-leqal hakimiyyətə çevrilməsinə səbəb oldu. Bu gün Azərbaycanda keçid dövrünün üçüncü mərhələsini yaşadığımız bir zamanda, H.Əliyevin xarizmatik təsirinin hələ də müəyyən dərəcədə qüvvətli olduğunu görürük. Bu fikirlərimizə əsaslanaraq, deyə bilərik ki, H.Əliyev xarizmatik-rasional-leqal siyasi xadimdir. H.Əliyevin hakimiyyətə gəlişini həm də Azərbaycanın yeni xarici

siyasətinin başlanğıcı kimi qiymətləndirmək olar. Nəzərə alsaq ki, keçid dövrünü yaşayan dövlətin daxili siyasəti bilavasitə onun apardığı xarici siyasətdən doğur, belə nəticəyə gələ bilərik ki, bu gün respublikamızda keçid dövrü düzgün inkişaf yolundadır.

Qeyd etdiyimiz kimi, H.Əliyevin hakimiyyətə gəlişi ilə islahatlar keçirilməsi haqqında qanunlar qəbul edilməyə başlandı. Üçüncü mərhələ isə islahatlar haqqında qəbul edilən qanunların tədrici həyata keçirilməsi dövrüdür və bu gün də biz həmin dövrü yaşayırıq. Çünki islahatlar tam həyata keçirilməyib və islahatlar prosesində yaranan gərginlik tədricən aradan qaldırırlır. Qeyd edilən müşahidələrimizlə bağlı Bolqarıstan prezidenti Jelyo Jelevin keçid dövrünün üçüncü mərhələsinin izahı haqqındakı fikirlərinə nəzər salaq: "Üçüncü mərhələ ilə əlaqə daha aydındır. Müasir bazar iqtisadiyyatını yaxşı qanunlarsız və möhkəm institutlarsız düşünmək olmaz. Hər şeydən öncə, qanunları real surətdə tətbiq etmək iradəsi, enerjisi və qətiyyəti olan parlament və icraedici hakimiyyət lazımdır. Bunlar olmadan radikal islahatlar arzu olaraq qalacaq. Bolqarstanın təcrübəsi göstərir ki, yaxşı qanunlar təklikdə heç nə edə bilməz, əgər onları qətiyyətlə tətbiq edən güclü icraedici hakimiyyət olmasa» (14, s.7-41).

Bu gün biz tam əminliklə deyə bilərik ki, təcrübəli siyasi liderin düşünülmüş siyasi fəaliyyətinin və möhkəm siyasi iradəsinin nəticəsi olaraq Azərbaycanda keçid dövrünün məhz üçüncü mərhələsində icraedici hakimiyyət formalaşmaq üzrədir. Bu fikirlərimizi sübüt etmək üçün Azərbaycanda keçid dövrünün ikinci və üçüncü mərhələsinə uyğun olan inkişaf xəttinə nəzər salaraq, bu dövrün necə davam etdiyini izləyək. Belə ki, Julyo Jelevin üçüncü mərhələnin əsas şərtlərindən hesab etdiyi üç instansiyalı müstəqil məhkəmə hakimiyyəti qurulub və Konstitusiya məhkəməsi yaradılıb, mərkəzləşmiş iqtisadiyyatdan bazar iqtisadiyyatına keçilməsi ilə bağlı aparılan özəlləşdirmə demək olar ki, sona çatıb.

Beləliklə, bu gün Azərbaycanda tədrici siyasi modernləşmə prosesi müşahidə olunur. Bu siyasi modernləşməni ayrı-ayrı politoloqlar və bu dövrün araşdırılması ilə məşğul olan şəxslər müxtəlif şəkildə izah edirlər. Belə ki, Q.C.Əliyevin qeyd ediyi kimi, «müxtəlif obyektiv və subyektiv amillərin təsiri altında əvvəllər geri qalmış, indi isə qabaqcıl ölkələrin köməyi ilə öz milli inkişaf yolunu müəyyən edən ölkələrdə siyasi modernləşmə prosesi baş verir. Bu ölkələrdə siyasi modernləşmə aşağıdakı yollarla inkişaf edir: a) Qərb nümunəsi əsasında demokratikləşməyə keçid; b) Sosial-iqtisadi inkişaf sahəsində üçüncü

dünya ölkələri ilə əməkdaşlıq; c) Qərbi Avropa və ABŞ ilə bütün sahələrdə yaxın əməkdaşlıq» (7, s.15).

Azərbaycanda müasir idarəçilik formalarını Avropa politoloqlarının keçid dövrü ilə bağlı elmi araşdırmaları nöqteyi-nəzərindən qiymətləndirən Q.Əliyev qeyd edir ki, «Demokratik cəmiyyətə keçid birdən-birə qeyri mümkündür. Onun üçün mütləq aralıq bir mərhələ keçid dövrü problemlərini həll etmək üçün müəyyən bir dövr tələb olunur. Bu dövrün dövləti avtoritarizmdən başqa bir şey deyildir». Bu fikrin davamı olaraq, Q.C.Əliyev «avtoritar rejimlərin stabillik göstəricilərinin aşağıdakılar olduğunu qeyd edir:

1.Siyasi liderin səriştəliliyi, müxalifətlə dil tapması və onunla siyasi koalisiya yaratması, beləliklə də real qarşıdurmadan yan qaçmaqla öz kursunu dönmədən, ardıcıl şəkildə həyata keçirməsi;

2.İslahatlar bir nəfəsə deyil, ardıcıl mərhələlərlə həyata keçirilməli, islahatların çox da iriliyinə yol verilməməli, kiçik görünənlər ön sıraya keçirilməlidir;

3.Siyasi qüvvələrin münasibəti nəzərə alınmaqla islahatların keçirilmə vaxtı nəzərə alınmalıdır.

Liberallar, eləcə də konservatorlar qeyd edirlər ki, yeni yaranan rejimlərdə hər cür müxalifət, satqınlar, xainlər, müxtəlif mövqelərdən və mənafelərdən çıxış edənlər yanaşı yaşadıqlarından onları idarə etmək çətin olur və bu da demokratiya prinsiplərinin istər-istəməz pozulmasına gətirib çıxarır. Lakin ölkənin və millətin ümumi mənafeyi naminə bunlar tamamilə təbii proseslərdir. L.Payın fikirlərinə söykənən Q.Əliyev qeyd edir ki, iqtidar nəinki sosial-iqtisadi problemləri həll etməli, habelə ümuminin xeyrinə vətəndaş həmrəyliyinə nail olmalıdır» (7, s.16).

Qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, bu gün demokratik rejimin formalaşması prosesində Azərbaycan Respublikasında xarizmatik, demokratik və avtoritar dövlət idarəçiliyi formaları qarışıq mövcuddur. Bu keçid dövrünün xarakterik xüsusiyyətləridir. Bildiyimiz kimi demokratik cəmiyyətin əsas göstəriciləri çoxpartiyalılıq, söz və mətbuat azadlığı, səsvermə hüququnun təmin olunması kimi qəbul edilir. Deyə bilərik ki, partiyaların mövcudluğu və fəaliyyəti qeyd olunan rejimlərin qarışıq mövcudluğuna şərait yaradır. Bununla bağlı olaraq demokratiyanın əsas institutları olan partiya və seçkilərin cəmiyyətin formalaşmasında təsirli roluna nəzər salaq və keçid dövrü

şəraitində Azərbaycan Respublikasında və cəmiyyətində partiyaların vəziyyətini təhlil etməyə çalışaq.

Vətəndaş strukturları olan partiyaların cəmiyyətdəki rolunu Q.V.Komenskaya aşağıdakı kimi xarakterizə edir: “Eyni zamanda həm vətəndaş cəmiyyətinə, həm də dövlətə məxsus olan partiyalar onlar arasında əlaqələndirici alət rolunu oynayır, məhz bu da partiyaların əsas funksiyasıdır. Müasir siyasi təşkilatlardan heç biri partiyalar kimi bütün sosial qruplar və təbəqələrlə münasibətlər saxlamaq imkanına malik deyil. Partiyaların vasitəsilə və köməyilə müxtəlif sosial qruplar öz siyasi tələblərini irəli sürürlər və cəmiyyətdəki ziddiyyətləri üzə çıxarırlar. Bununla yanaşı partiyalar münaqişənin institutlaşması sisteminin elementi funksiyasını yerinə yetirir. Bu da demokratik rejimlərdə sabitliyin saxlanması üçün mühüm həyati mənaya malikdir” (64, №4, 1994, s.36).

Keçid dövrünə xas olan siyasi proseslər və xüsusilə də partiyaların təsnifatı, fəaliyyəti və tarixşünaslığı ilə bağlı F.Həsənoğlunun tədqiqatları olduqca maraqlıdır: «Siyasi partiyaların tədqiqatçısı Cozefla Palambara hər bir partiyaya xas olan dörd elementi qeyd edir: 1) siyasi ideoloji dəyərlər sistemi; 2) təşkilati struktur; 3) hakimiyyət uğrunda mübarizə; 4) xalqın dəstəyinə nail olunması. Əsasən, partiya sistemi dedikdə, cəmiyyətin siyasi səhnəsində fəaliyyət göstərən siyasi partiyaların sayına və çəkisinə uyğun olaraq yaranan konfiqurasiya nəzərdə tutulur. Partiyalar sistemi konsepsiyası siyasi rejimlərin fəaliyyətini anlamaqda həlledici rol oynayır. Bu sistemlərin tipologiyasını vermək üçün isə iki meyardan istifadə olunur: 1) partiyaların sayı; 2) partiyaların çəkisi. İtalyan politoloqu Covanni Sartori hər sistemdə qüvvələrin qütbləşmə dərəcəsinə əsaslanaraq çoxpartiyalılığın özünün də iki tipi olduğunu qeyd edir: 1) iki qütblü (bipolyar) çoxpartiyalılıq; 2) çox qütblü (multipolyar) çoxpartiyalılıq. Çoxpartiyalı sistem özünün çevikliyi və partiyaların rəngarəngliyi ilə səciyyələnir. Çoxpartiyalı sistemdə partiyaların sayından çox onların çəkisi mühüm rol oynayır. Partiyaların çəkisini müəyyənləşdirmək üçün onların seçkilər nəticəsində əldə etdikləri parlamentdəki yerlərin sayını əsas meyar kimi götürürlər. Prezidentli rejimdə isə həm də dövlət başçısının birbaşa seçkisi zamanı verilən səslərin sayı əsas götürülməlidir. Partiyaların çəkisinə əsaslanan partiya sistemlərinin də üç tipi var: 1) majoritar partiyaya əsaslanan sistemlər; 2) dominant partiyaya əsaslanan sistemlər; 3) majoritar pariyaların koalisiyasına əsaslanan sistemlər. Birinci halda, majoritar partiya dedikdə, parlamentdə yerlərin əksəriyyətini

qazanmış bir və ya iki partiya nəzərdə tutulur. İkinci halda, dominant pariya dedikdə, başqalarına nisbətən çox səs qazanmış və parlamentdəki yerlərin sayına görə başqa partiyaları nisbətən çox məsafədə geridə qoymuş partiya nəzərdə tutulur. Üçüncü halda, mojaritar və dominant partiya olmadıqda, parlamentdə yer tutmuş partiya minoritar (yəni az səs qazanmış) partiyalar çoxluq əldə etmək üçün koalisiya yaratmalı olurlar» (15, s.7-41).

Yuxarıda qeyd edilənləri Azərbaycan çərçivəsində təhlil etməyə çalışaraq deyə bilərik ki, «bu gün Azərbaycanda 40-dan çox partiya qeydiyyatdan keçdiyi halda, parlamentdə cəmisi bir neçə partiya təmsil olunur» (26, s.207). Müşahidə etdiyimiz kimi, «bu partiyalardan bir qismi sosial bazası olmayan qondarma partiyalardır, digər qisminin sosial bazası məhdud xarakter daşıyır və yalnız iqtidara əks durma mövqeyi tutur» (8, s.67).

Bu gün Azərbaycanın dövlət idarəçiliyi dominant partiya sistemi əsasında qurulur. Müxalifət partiyaları isə həm də bir-birilərinə müxalifətdə durduqları üçün koalisiya yarada və parlamentdə çoxluq əldə edə bilmirlər. Qeyd edilənlərə əlavə olaraq deyə bilərik ki, çoxpartiyalılıq cəmiyyətdə siyasi plüralizm ənənələrinin yarnmasına kömək etdiyi üçün müsbət hal kimi qəbul edilə bilər və partiyaların çoxluğu hakimiyyət uğrunda keçirilən seçkilərdə müəyyən radikallığın saxlanmasına kömək edir. Seçkilər prosesində bir sıra neqativ halların baş verməsi də ən adi haldır. M.Veberin qeyd etdiyi kimi: «Seçkilər – yalnız səsvermə olmayıb, həm də rəhbərə inamın həmrəy təsdiqlənməsidir… Demokratiya şəraitində hakimiyyət uğrunda mübarizədə qələbə çalmış siyasətçi bir çox sınaqlardan keçmiş insandır. Lakin demokratiya səhvlərdən də məhrum deyil. Demaqoqiyadan, kütəlnin emosiyasından və ani maraqlarından siyasi irəliləyiş üçün istifadə edilməsi nəticəsində hakimiyyət yaxşı deyil, daha pis siyasi rəhbərlərin əlinə keçə bilər. Eyni zamanda siyasi cəhətdən bərəkətsiz olan adamlar maddi vəsaitləri hesabına seçkiləri öz xeyrinə yönəldə bilərlər» (47, s.220).

Müşahidə etdiyimiz kimi, "bu gün Azərbaycanda mövcud partiyalar seçkilərdə seçicilərin çoxlu səslərini yığmaq üçün müxtəlif siyasi gedişlərdən istifadə edirlər: dram və komediyalar oynanılır, əyləncəli tamaşalar göstərilir, bir-birini ifşa edir və s. Bu zaman sıravi vətəndaşlarda siyasətə şəriklilik hissi yaranır" (8, s.39).

Seçkilər prosesində vətəndaşların fəaliyyət istiqamətlərini aydınlaşdırmağa çalışan Qərb sosioloqları müasir dövr seçici davranışları modelini hazırlamışlar: "1. Sosioloji model – seçicilərin məğlub olduğu sosial qrupların davranışını şərtləndirir. Bu modelə aşağıdakılar daxildir: 1) demoqrafik göstəricilər (cins, yaş, yaşayış yeri), iqtisadi göstəricilər (sosial sinif, peşə yönümü, gəlir səviyyəsi və s.), mədəni göstəricilər (təhsil yönümü və səviyyəsi, dini mənsubiyyət və s.); 2. Psixosloji model – seçici davranışlarının müstəqil, fərdi yox, qabaqcadan şərtlənmiş olduğunu iddia edir. Səs vermək yalnız hər hansı bir namizədi, yaxud partiyanı seçmək yox, həm də öz siyasi kimliyini ifadə etməkdir; 3. Rasional model – fərdin müstəqilliyini, seçim azadlığını vurğulayır. Bu zaman seçici namizədlər, partiyalar haqqında geniş informasiya almağa çalışır, seçkilərin keçirildiyi siyasi və iqtisadi şəraiti təhlil edir, namizədlər, partiyalararasında müqayisəli təhlil aparır və s.» (16, s.7-43). Müasir şəraitdə Azərbaycanda seçicilərin hər üç davranış modeli müşahidə edilsə də, psixoloji və sosioloji modellər üstünlük təşkil edir.

Bu gün Azərbaycan cəmiyyəti demokratikləşmə prosesini yaşayır və yuxarıda qeyd edilənlər demokratikləşmə prosesinin tərkib hissəsini təşkil edir. R.D.Əzimovanın qeyd etdiyi kimi "cəmiyyətin demokratikləşməsi prosesinin əsasında insan hüquqları durur, insan hüquqlarının əsasında isə onun (insanın – M.S.) cəmiyyət qarşısındakı məsuliyyəti durur" (46, s.9).

Şəxsiyyətin cəmiyyət qarşısındakı məsuliyyətini dərk etməsi qabiliyyəti onun siyasi mədəniyyət səviyyəsi ilə sıx bağlıdır. Bu gün Azərbaycanda insanların ümumi siyasi mədəniyyət səviyyəsi formalaşmağa doğru inkişaf istiqamətindədir.

Siyasi mədəniyyətin əlamətlərinə nəzər salaraq, fikirlərimizin həqiqətə uyğun olub-olmadığını aydınlaşdıraq. Cəmiyyətin siyasi mədəniyyət səviyyəsi – «a) hakimiyyətə münasibət; b) siyasi fəaliyyətin davranış üsulu; c) vətəndaşların siyasi qərarların qəbul edilməsi prosesinə təsir etmək imkanı; ç) cəmiyyətin siyasi əhval-ruhiyyəsi» (26 s.288) kimi göstəricilərlə müəyyənləşir.

Bu gün Azərbaycan xalqının hakimiyyətə münasibəti bir mənalı deyil. Hakimiyyətə münasibətdə siyasi fəaliyyətin davranış üsulu kimi lehinə, bitərəf və əleyhinə mövqeləri tutanlar seçilir. Onların sırasına nəzər salaq. Mövcud tarixi şəraiti və əvvəlki siyasi hakimiyyətlərdəki siyasi idarəçilik qabiliyyətsizliyini nəzərə alaraq mövcud müxalif siyasi

qüvvələrin hakimiyyət idarəçiliyi bacarığına şübhə ilə yanaşanlar iqtidarın lehinə olanlar cərgəsindədirlər. Lakin bu tip siyasətçilər arasında öz maddi və siyasi mövqelərini möhkəmləndirmək məqsədi güdənlər də az deyil. Mövcud hakimiyyətin əleyhinə olanlar cərgəsini – öz siyasi idarəçilik qabiliyyətlərini, mövcud tarixi şəraitdə xalqın vəziyyətini nəzərə almadan maddi və siyasi mövqeyini möhkəmləndirmək arzusunda olanlar təşkil edir. Bu qrup siyasətçilər arasında həqiqi mənada xalqın mənafeyi uğrunda mübarizəyə qoşularaq siyasətlə məşğul olan – xalqpərvər və vətənpərvərlərə rast gəlmək çətindir. Bitərəflərə isə – ya gözləmə mövqeyində duranlar, ya da siyasi oyunlara qarışmaq istəməyənlər aiddir. Sonuncuların sırasına siyasi yadlaşmış insanlar da daxildir. Siyasi yadlaşmış insanlar üçün dövlətin kim tərəfindən və necə idarə olunmasının fərqi yoxdur. Onlar heç bir siyasi fəaliyyətə qoşulmur və siyasətdə iştirak etmirlər.

M.Veberin qeyd etdiyi kimi, «siyasətlə məşğul olan adamlar və ya siyasi qruplar arasında iki mövqe aydın görünür. Elə adamlar var ki, onlar siyasət hesabına yaşayırlar, elə adamlar da var ki, ancaq siyasət üçün yaşayırlar. Birinci tip siyasətçilər partiya ədəbiyyatçıları və apparat işçiləri funksiyasını yerinə yetirərək yaşamaq üçün pul qazanırlar, onların daimi gəlir yeri olmur. Lakin elə professional siyasətçilər var ki, siyasətlə məşğul olmalarından asılı olmayaraq daimi gəlir mənbələri var. İkinci tip siyasətçilər qoyulan məqsədə çatmaq və müəyyən siyasi ideyaların reallaşması üçün güclü idealizmə və fədakarlığa malikdirlər. Lakin onların bir çoxları da öz siyasi vəziyyətlərindən gəlirlərinin artırılması üçün istifadə edirlər. Eyni zamanda maddi azad olan insanlara öz siyasi ideyalarını və iradələrini qəbul etdirmək daha asan olmur və bu siyasi xarakteri formalaşdırır. Bürokrat (maddi cəhətdən asılı olan siyasətçi) güclü şəxsiyyət olsa da, o, siyasi xarakterə malik olmur. Əsil siyasətçi öz düşüncələrində, təhlil və fəaliyyətində azad olmalı, hakimiyyət uğrunda mübarizə aparmalı və müstəqil maddi vəziyyətə malik olmalıdır» (47, s.115).

Beləliklə, göründüyü kimi, bu qeyd edilənlər siyasətçinin siyasi strategiyasının müəyyənləşməsinə səbəb olur. Bütün bunlar isə cəmiyyətin ideologiyasının formalaşmasına əsaslı təsir göstərir. Keçid dövrü cəmiyyətin böhranlı dövrü kimi əvvəlki ideologiyanın əhəmiyyətsizləşdiyi, yenisinin isə olmadığı bir zaman çərçivəsidir. İdeologiyanın formalaşmasını keçid dövrünün mərhələləri üzrə izləyək.

I mərhələ – 1989-1993-cü illər – dağıdıcı dövr kimi əsaslandırıla bilər. Müşahidə etdiyimiz kimi, məhz kommunist ideologiyasının çökməsi ilə siyasi proseslər yeni istiqamətə yönəldi. Bu dövrün əsas xarakterik xüsusiyyətləri yeni siyasi-hüquqi institutların və münasibətlərin yaradılmasına cəhd idi. Lakin keçmiş sovet siyasi-hüquqi institutları və münasibətləri də öz fəaliyyətini dayandırmamışdı.

II mərhələ – 1993-1995-ci illər – islahatların keçirilməsi haqqında qanunların qəbulu dövrüdür. Bu mərhələdə ideologiyada yaranan boşluq insanların dinə axınını gücləndirdi.

III mərhələ – 1995–2003-cü illər – islahatlar dövrüdür. Bu mərhələdə qloballaşan münasibətlərə qoşulan insanlar mövcud vəziyyətlərinə uyğunlaşaraq öz fərdi təfəkkür səviyyələrinə uyğun olan və əvvəlki ideologiya ilə müqayisədə onların mənəvi tələbatlarını daha çox təmin edə biləcək seçimlər edirlər.

Beləliklə, demokratikləşmə prosesini və ya keçid dövrünü yanaşı mövcud olan ziddiyyətli ideyalar, baxışlar, münasibətlər və ideologiyalar dövrü kimi də xarakterizə etmək olar.

Demokratikləşmə prosesinin vacib göstəricilərini müəyyən edən professor Przevorski qeyd edir ki, “Əgər demokratiya müdafiə olunursa, dövlət ərazi bütövlüyünə və psixoloji inama təzminat verməlidir; vətəndaşlığın effektli həyata keçirilməsi üçün vacib olan şərtləri qorumalıdır; ictimai əmanəti koordinatlaşdırmalı, ehtiyatları lokallaşdırmalı və gəlir qoyuluşunu dəyişdirməlidir” (80, s.9).

Keçid dövründə Azərbaycan Respublikasında baş verən siyasi proseslərin ümumi analizindən sonra gəldiyimiz nəticəyə əsasən deyə bilərik ki, Przevorskinin bu fikirlərinin həyata keçirilməsi üçün aşağıda qeyd edilən şərtlərin olması vacibdir:

1. Keçid dövrünün zaman müddətinin qısaldılması və sabitlik yaradılması üçün siyasi lider ilk növbədə idarəçilik təcrübəsinə, siyasi iradə, müdriklik və uzaqgörənlik xüsusiyyətlərinə malik olmalı və düzgün siyasi strategiya seçməlidir. Belə ki, siyasət subyekti olan siyasi lider siyasət obyekti olan siyasi institutların fəaliyyətinin düzgün istiqamətləndirilməsində əsas rol oynayır.

2. Siyasi institutlar – hakimiyyət və vətəndaş qurumları (siyasi partiyalar, hökumət və qeyri-hökumət təşkilatları və s.) düşünülmüş strategiya əsasında qarşılıqlı anlaşma və güzəştlərlə keçid dövründə baş verən gərgin siyasi prosesləri tənzimləyə bilər.

3.Kütləvi siyasi mədəniyyətin formalaşdırılması üçün insanların hakimiyyətə münasibətini, siyasi fəaliyyətin davranış üsullarını, vətəndaşların siyasi qərarların qəbul edilməsi prosesinə təsir etmək imkanlarını, cəmiyyətin siyasi əhval-ruhiyyəsini tənzimləyəcək və düzgün istiqamətləndirə biləcək ideologiyanın yaradılması vacib şərtdir.

## 2.2.Sosial – iqtisadi proseslər şəxsiyyət problemi prizmasından

### 2.2.1. Keçid dövründə aparılan iqtisadi islahatların xarakterik xüsusiyyətləri və Azərbaycan Respublikasında iqtisadi islahatların özünəməxsusluğu

Bəşər tarixi sübüt edir ki, hər hansı bir cəmiyyətin inkişafı ictimai şüurun tərəqqisi ilə bağlıdır. İctimai şüurun təkamülü isə bilavasitə özünü sosial mühitin dəyişdirilməsi məqsədilə aparılan islahatlarda əks etdirir. Şahidi olduğumuz kimi, «iqtisadi düşüncədə» yaranmış yeni meyllər ictimai şüurun dəyişməsinə gətirib çıxartdı. Bu dəyişikliklər isə köklü islahatlarla müşaiyyət olunmağa başlandı. Deməli, islahatları təkamül prosesinin başlanğıcı kimi xarakterizə etmək olar. Müxtəlif tarixi dövrlərdən fərqli olaraq müasir dövrdə müxtəlif sahələri əhatə edən sosial islahatlar daha çox məqsədyönlü, proqram şəkilli xarakter daşıyır. Bir çox tədqiqatçıların qeyd etdiyi kimi, stabil durumda olan cəmiyyətlərdən fərqli olaraq, böhranlı, keçid dövrünü yaşayan cəmiyyətlərdə aparılan islahatlar daha ağrılı və çətin olur. Bu baxımdan V.E.Baykov islahataları aşağıdakı kimi xarakterizə edir: «İslahatların ümumi göstəricisi – cəmiyyətin əvvəlki iqtisadi, siyasi-inzibati və mental dayaqlarının köklü sınmasıdır. İslahatların real təcrübəsi istehsalın sosial dirçəlişini və mənəvi inkişafını yüksəltmək üçün insan ehtiyatlarını sərbəstləşdirmək əvəzinə çox vaxt onu əzir» (64, №7, 2001, s.30-38).

Bildiyimiz kimi, bir iqtisadi sistemin dağılaraq digərinə keçid dövrünü yaşayan cəmiyyətlərdə həm əvvəlki ictimai quruluşa aid olan sosial institutlar, həm də yeni yaranmaqda olan sosial institutlar yanaşı fəaliyyət göstərir. Bu institutların yanaşı fəaliyyəti prosesində mövcud sosial ziddiyyətlər dərinləşir. Əvvəlki sistemə aid olan və

yeni yaranan sosial institutlar arasında müəyyən münasibətlərin yaranması və yeni institutların tam bərqərar olması üçün müəyyən zaman müddəti lazımdır. Yalnız siyasi qarşıdurmaların müşahidə edilmədiyi cəmiyyətdə vahid islahatçı tərəfindən aparılan islahatlar keçid dövrünü qısa müddətli edə bilər. Siyasi qarşıdurmalar çərçivəsində isə keçid dövrü təsəvvür edilməyəcək qədər uzun müddəti əhatə edə bilər. A.Pşevorskinin qeyd etdiyi kimi, «Demokratik münasibətlərin nəticəsi ona aparan yoldan çox asılıdır (57, s.92). Demokratiyanın taleyi isə iqtisadi inkişafdan asılıdır. Demokratiya çox vaxt dərin iqtisadi böhrandan doğduğu üçün iqtisadi amillər demokratiyaya qarşı işləyir (57, s.139). İqtisadiyyatda getdikcə yüksələn münaqişələr siyasi keçid prosesinə birbaşa təhlükə yaradır» (57, s.220).

Bildiyimiz kimi, siyasi münaqişənin genişlənməsinin əsas səbəblərindən biri də məhz islahatlar prosesidir, çünki islahatlar prosesində aparılan köklü dəyişikliklər ayrı-ayrı sosial qrupların mənafeyinə zidd olur və əhali arasında gərginlik yaradır. Ümumiyyətlə, islahatlar prosesini izah edərkən A.Pşevorski qeyd edir ki, «İslahatların mahiyyətini analiz edərkən nəticələrin iki kateqoriyasını ayırmaq olar. Bəzi nəticələr uzun müddətli olub formalaşmış sistemli sabit dövlət üçün xarakterikdir. Digər nəticələr əsasən təsirliliyə aid olub özünəməxsusluqlara malikdir; başqaları distributivdir. Bu fərqli cəhətləri tutuşduraraq dörd cür nəticə ayırmaq olar: 1)uzunmüddətli özünəməxsus nəticələr pozitiv xarakter daşıyır. İslahatlar ona görə aparılır ki, mövcud iqtisadi quruluş fəaliyyətsizdir və ya arzu edilir ki, onun çatışmazlıqları iqtisadi sistemin dəyişdirilməsi yolu ilə aradan götürülsün; 2)bəzi permanent nəticələr distributivdir. Köhnə sistemdə mənafeləri müdafiə olunan qruplar islahatdan sonrakı iqtisadiyyatda tamamilə və ya daha az lazımlı ola bilərlər; 3)islahatlar prosesi qısa müddətli böhran, işsizlik, müəyyənləşmədə təsirsizlik yarada bilər. Məhz bu, keçid dövrünün geriləmələrinə gətirir; nəhayət, 4)islahatlar prosesi keçid dövrünün distributiv nəticələrinə: nisbi gəlirlərin daimi dəyişikliklərinə gətirə bilər.

Keçid dövrünə xas olan geriləmələr böhrana, kapitalın və işçi qüvvəsinin istifadə edilməməsinə və ehtiyatların qısa müddətli qeyri-optimal müəyyənliyinə səbəb ola bilər. Keçid dövrünün geriləmələri təsirli olur. İslahatlar nə qədər çox əsaslandırılmış və qərarlaşdırılmış olarsa, keçid dövrünün mənfi nəticələri də bir o qədər qısa müddətli ola bilər. Bu strategiyaya uyğun olaraq insanlar xoşagəlməz əməliyyatlara məruz qalmağa razı olurlar, bir şərtlə ki, o uzun müddət davam etməsin» (57, s.139).

Şahidi olduğumuz kimi, son 15 ildə postsovet məkanı ölkələrində sosial-iqtisadi, siyasi və mənəvi münasibətlərin yeni dərin transformasiyası baş verir. Görkəmli rus sosioloqu Y.Q.Volkov bu transformasiyanı iqtisadi düşüncədəki sınma kimi xarakterizə edir (37, s.278).

Gördüyümüz kimi, «iqtisadi düşüncədə» yaranmış yeni meyllər ictimai quruluşun dəyişməsinə tələbatla nəticələndi. Bu dəyişikliklər isə köklü islahatlarla müşayiət olunmağa başlandı. Bu cəhətdən O.T.Boqomolovun fikirləri böyük maraq doğurur. O, qeyd edir ki, «Demokratiya və bazar iqtisadiyyatı islahatlara məruz qalan cəmiyyətlərin ümumi məqsədləri idi. İxtisasçılar keçid dövrünün konsepsiyası və proqramlarını dəqiqləşdirməyə cəhd edirdirlər. Beynəlxalq təşkilatlar da öz planlarını işləyib təklif edirdilər. Təkliflər əsasən bəzi aydın görünən məsələlərlə bağlı idi: ödəniş imkanlı tələbatın tənzimlənməsi və əmtəənin təklifi; pul kütləsinin və büdcənin çatışmazlıqlarının ixtisarı (bu çox vaxt makroiqtisadi stabillik adlanır); qiymətlərin və xarici bazarların leqallaşdırılması və nəhayət, dövlət mülkiyyətinin özəlləşdirilməsi.

Eyni zamanda bazar infrostrukturunun təşkili, hər şeydən əvvəl müasir bank sisteminin, valyuta və fond birjalarının yaradılması, həmçinin yeni menecerlərin öyrədilməsi təklif olunurdu.

Qeyd edildiyi kimi, «Dövlət institutlarının islahatı böyük kapital xərcləri tələb edir» (72, s.119).

Eyni zamanda islahatlar keçirmək üçün ideoloji doqmalardan uzaq olan və yalnız hakimiyyətdən çıxış edən siyasi impuls lazım idi. Lakin bununla iqtisadiyyatın və siyasətin qarşılıqlı əlaqəsi pozulmurdu. Ölkədəki siyasi iqlim, cəmiyyətin sabit və ya böhranlı vəziyyəti siyasətin və iqtisadiyyatın, bazar qanunlarının və hüquqi mexanizmlərin, biznes və mənəviyyatın qarşılıqlı fəaliyyətinin xarakterindən asılı olur» (33, s.5-6).

Sovet sosializmi quruluşunun dağılması siyasi böhranın nəticəsi olsa da, məhz iqtisadi bazisin dağılması həm siyasi, həm də mənəvi-mədəni böhranın dərinləşməsinin ilkin şərtinə çevrildi.

Sovet sosializmi quruluşunun dağılması məqsədilə hər cür fəaliyyət göstərən Qərb ölkələri, ilk növbədə ABŞ təxminən eyni vəziyyətdə olan postsovet məkanı ölkələrinə özünün eyni ssenarili yardımlarını təklif etməyə başladı. Məhz bu formalı müdaxilə

qloballaşma prosesinə yeni güclü təkan verdi. Azərbaycan iqtisadçısı Ə.Ö.Hüseynovun qeyd etdiyi kimi, «Azərbaycanda da iqtisadi islahatların aparılması üçün MDB ölkələrinin əksəriyyətində olduğu kimi, eyni bir nəzəriyyəni – «monetarizm» nəzəriyyəsini təklif edirlər və bu nəzəriyyənin tətbiqi metodologiyası kimi Y.Kornayın «şok terapiyasını» məsləhət bilirlər. Bu nəzəriyyə tətbiq olunan ölkələri BVF-dən (Beynəlxalq Volyuta Fondu) asılı vəziyyətə salır. Çünki onlar aldıqları kreditləri qaytarmaq iqtidarında olmurlar. Beləliklə də, bir çox beynəlxalq maliyyə təşkilatları və qurumları (birinci növbədə BVF və DB (Dövlət Bankı)) ABŞ-ın bütün dünyada qurduğu dollar «piramidasının» müvazinətini saxlamağa xidmət edirlər» (12, I buraxılış, B -2000, s.92-93).

Q.B.Rüstəmbəyov isə keçirilən islahatların müsbət tərəfini göstərərək qeyd edir ki, «Postsovet şəraitində dövlətin həyata keçirdiyi islahatlar yalnız iqtisadi və soisal yenidənqurma məqsədlərinə xidmət etməklə yanaşı cəmiyyəti milli təsərrüfatın təkamülü yoluna daxil etmə kimi vacib olan əhatəli funksiya əldə edir» (60, s.136).

İslahatlar prosesinin uğurla keçirilməsi beynəlxalq aləmdə müəyyən nüfuza malik olan dövlətin məqsədyönlü fəaliyyətilə birbaşa bağlıdır. Bununla əlaqədar olaraq Rusiya sosioloqu və iqtisadçısı O.T.Boqomolov qeyd edir ki, «Güclü və nüfuzlu dövlət olmadan bazar islahatları eybəcər, qeyri-sivilizasiya xarakteri alır» (33, s.46).

Bazar iqtisadiyyatı münasibətlərinə keçidin tarixi ardıcıllığını şərh edən O.T.Boqomolov əlavə edir ki, «Mərkəzi və Şərqi Avropa ölkələrindən fərqli olaraq Rusiyada bazar iqtisadiyyatına keçid 1-2 il gec başladı, MDB-nin digər ölkələrində isə bu daha gec oldu. Xüsusilə Özbəkistan, Belorusiya, Türkmənistan, Qazaxıstan və Azərbaycanda bu ilk dövrlərdə daha ehtiyatlı və tədrici keçid idi. Bu səbəblərdən də həmin ölkələrin bir çoxunda iqtisadi tənəzzül tədrici islahatlar deyil, daha çox postsovet məkanındakı iqtisadi əlaqələrin pozulması, ittifaq mərkəzindən köməyin kəsilməsi, Moskva tərəfindən idarəetmə sisteminin dağılması, kadr çatışmamazlıqları ilə bağlı idi.

İqtisadi tənəzzül 1993-1994-cü illərdən başlayaraq inkişafla əvəz olunmağa başlandı, bəzən isə bu tənəzzül MDB ölkələrində bir çox illər üçün uzandı. Bu zaman digər Mərkəzi Avropa ölkələrindən heç biri Rusiya, Ukrayna və digər MDB ölkələri kimi bu dərəcədə ağır şəkildə əhalinin real gəlirlərinin və istehsal çatışmazlıqlarını yaşamadı» (33, s.31).

Bəs ayrı-ayrı regionlarda bu böhrandan çıxış yolunu tapmaq üçün hansı vasitələrə əl atıldı? MDB ölkələrində islahatların proqramlı gedişi üst-üstə düşsə də, yerlərdəki fərqli ənənəvi-mədəni dəyərlər bu proseslərə müxtəlif cəhətlər gətirdi. İslahatların keçirilməsində nəzərə çarpan çatışmazlıqları da yerli özünəməxsusluqla, düşüncə tərzi ilə bağlamaq olar.

Azərbaycanda 10 ildən artıqdır ki, davam edən bu proseslərin yerli tədqiqatçılar tərəfindən necə qiymətləndirilməsinə, yəni islahatlar prosesinin gedişinə nəzər salaq. Bildiyimiz kimi, dövlətin, cəmiyyətin inkişafı və mənafeyi ilə bağlı olan proseslərin həyata keçirilməsi üçün ilk növbədə hüquqi baza olmalıdır. İ.H.İbrahimovun qeyd etdiyi kimi, «İqtisadiyyatda yaranmış böhranı aradan qaldırmaq üçün planlı təsərrüfatdan bazar iqtisadiyyatına keçmək qərara alındı və ilk növbədə aqrar sahədə islahatlara başlandı. İlk vaxtlar aqrar islahatların həyata keçirilməsi üçün kifayət qədər hüquqi baza olmadığına görə aparılan tədbirlər eksperiment xarakteri daşıyırdı» (22, s.245).

İqtisadçı S.Ə.Şirəlizadə isə məhz özəlləşdirməni Azərbaycanda aparılan iqtisadi islahatların özəyi hesab edir (22, s.101). Qeyd edə bilərik ki, məhz özəlləşdirmə prosesi 1992-ci ilə qədər hüquqi əsaslara malik olan sovet iqtisadi sisteminin tam inkar edilməsi demək idi. Azərbaycanda 1992-ci ildən hüquqi təminat alan özəlləşdirmə prosesi bazar iqtisadiyyatına keçid istiqamətində ilk cəhd idi. Azərbaycan Respublikasında özəlləşdirmə prosesi torpaq islahatları ilə başlanmışdır. Təxminən 10 il keçdikdən sonra bu islahatların gedişinin mütəxəssislər tərəfindən necə qiymətləndirildiyinə nəzər salaq.

«Torpaq islahatını şərti olaraq 3 mərhələyə bölmək olar: 1) 1993 / 1994-cü illər: Kənd təsərrüfatının düşdüyü acınacaqlı vəziyyətin səbəblərinin öyrənilməsi, hüquqi-normativ sənədlərin tərtibinə hazırlıq işlərinin aparılması; 2) 1995 / 1996-cı illər:_Əsas qanunların və normativ-hüquqi aktların qəbul edilməsi, aqrar islahatların başlanılması; 3)1997 / 2000-ci illər: İlahatların konkret olaraq həyata keçirilməsi.

Hazırda ölkənin aqrar sektoru üzrə nəzərdə tutulan əmlakın 93,2%-i özəlləşdirilmişdir. Orta hesabla hər bir ailəyə 1,6 ha torpaq sahəsi verilmişdir» (27, s.115-127).

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq Azərbaycanda torpaq üzərində mülkiyyətin aşağıdakı formaları qərarlaşmışdır:

1)Dövlət mülkiyyətində olan torpaqlar: dövlət meşə fondu torpaqları, dövlət ehtiyatlarında olan torpaqlar, su fondu torpaqları və s.

2) Bələdiyyə mülkiyyətində olan torpaqlar: yaşayış məntəqələrinin yerləşdiyi və onun ətrafında olan torpaqlar;

3) Xüsusi mülkiyyətdə olan torpaqlara isə kolxoz və sovxozların ləğv edilməsi nəticəsində kəndlilərin mülkiyyətinə verilmiş torpaq sahələri daxildir.

İlkin olaraq Zaqatala və Xızı rayonlarının təsərrüfatlarında islahata başlanıldı. Sonra həmin rayonların təcrübəsi öyrənilərək digər rayonlarda, xüsusən Tovuz, Neftçala, Cəlilabad, İmişli və s. rayonlarda islahatların təşkili və həyata keçirilməsində müvəffəqiyyətlə istifadə edildi (22, s.193).

Özəlləşdirmə proqramında dövlət müəssisələri və obyektləri özəlləşdirmə imkanlarından asılı olaraq 5 qrupa bölünmüşdür:

1)Özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlər;

2)Prezidentin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər;

3)Nazirlər kabinetinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər;

4)Yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılaraq özəlləşdirilən müəssisə və obyektlər;

5) Özəlləşdirilməsi məcburi sayılan müəssisə və obyektlər (27, s.115-127).

1999-cu ilin sonunadək 1995 / 1998-ci illər üçün özəlləşdirmə proqramında özəlləşdiilməsi nəzərdə tutulan 30000 kiçik dövlət müəssisə və obyektinin cəmi 22,193-ü (74%) özəlləşdirilmişdir. 1996-cı ilin mart ayında ilk pullu hərracın keçirilməsilə başlanan kiçik özəlləşdirmə, demək olar ki, başa çatmaq üzrədir. Özəlləşdirilmiş kiçik dövlət müəssisələri və obyektlərinin təqribən 99%-i güzəştli şərtlərlə əmək kollektivlərinə satılmışdır və dövrün sonunadək kiçik özəlləşdirmədən 211,3 milyard manat vəsait əldə olunmuşdur. Orta və iri dövlət müəssisələri özəlləşdirilməmişdən əvvəl səhmdar cəmiyyətlərinə çevrilirlər. 1998-ci ilin sentyabr ayında ilk investisiya müsabiqəsinin keçirilməsilə özəlləşdirmə yeni mərhələyə, investisiya müsabiqələri mərhələsinə qədəm qoydu. 2000-ci il 1 aprel tarixinədək investisiya müsabiqələri vasitəsilə özəlləşdirilmiş müəssisələr tərəfindən dövlət büdcəsinə 5,8543 milyard manat və 2 milyon ABŞ dolları həcmində vəsait keçirilmişdir. Ümumiyyətlə, 1996-cı ildən indiyədək özəlləşdirmədən xüsusi büdcə hesabına 426 milyard manata yaxın vəsait daxil olmuşdur ki, bunun da

yarısından çoxu kiçik dövlət müəssisə və obyektlərinin özəlləşdirilməsindən əldə edilmişdir.

Müasir dövrdə Azərbaycan Respublikasında islahatlar prosesinin gedişini izləyən və istiqamətləndirən bir sıra sosial-iqtisadi institutlar mövcuddur. Bunlardan: Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Vergi Nazirliyi, Statistika Komitəsi, Dövlət Əmlak Nazirliyi, Antiinhisar Siyasəti və sahibkarlığın müdafiəsi üzrə Dövlət Komitəsi, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Sahə elmi-tədqiqat institutları, Gömrük Komitəsi, banklar, broker kompaniyaları, çek-investisiya fondları, qiymətləndirmə kompaniyaları və firmaları və s. qeyd etmək olar (12, I buraxılış, 2000, s.93-95).

Göründüyü kimi, islahatlar gedişində bu prosesin tədqiqi, tətbiqi və tənzimlənməsi ilə bağlı kifayət sayda sosial institutlar fəaliyyətə başlayır. A.P.Babayevin qeyd etdiyi kimi, «özəlləşdirmə və ya dövlətsizləşmə prosesində dövlət aparatının əlində olan mərkəzləşmiş idarəçiliyin müəyyən səviyyəyə qədər zəifləməsi; dövlət müəssisələrinin monopoloya vəziyyətinin dəf edilməsi; iqtisadiyyata dövlət müdaxiləsinin sərhədlərinin müəyyən edilməsi; dövlət mülkiyyətinin özəlləşdirilməsi və şəxsi mülkiyyətin təsdiqlənməsi» kimi hadisələr bir-birini əvəz edir. Məhz «bu əsaslar üzərində siyasi, iqtisadi və soial sahələrdə qeyri-dövlət strukturlarının formalaşması və inkişafı baş verir. Bu obyektiv dəyişikliklər sırasında özəlləşmə mərkəzi mövqe tutur. Digər dəyişikliklərin keyfiyyət mahiyyəti də məhz özəlləşdirmənin nəticələrindən asılı olacaqdır.

Qeyd edə bilərik ki, postsovet məkanı ölkələrində özəlləşdirmə iqtisadiyyatda bazar mexanizmlərinin yoxluğu, şəxsi mülkiyyətin funksiyalaşdırılmasının normativ və iqtisadi əsasları olmadan və təsərrüfat subyektlərinin ciddi məhdudiyyətlərə malik olması şəraitində baş verir. Nəzərə almaq lazımdır ki, hələ kütləvi özəlləşdirməyə qədərki dövrdə - 1990 / 1993-cü illərdə – Azərbaycanda baş vermiş məlum siyasi və sosial hadisələr – iqtisadiyyatın böhran vəziyyəti, hiss edilən mülki və sosial bərabərsizlik, əhalinin qeyri-bərabər şəkildə varlılara və çox kasıblara bölünməsi kimi ciddi nəticələrə səbəb oldu. Əhalinin əksər hissəsi isə cəmiyyətdəki sosial-siyasi dəyişikliklərə aktiv və təsirli müdaxilə etmək və şəxsi vəziyyətini yaxşılaşdırmaq imkanlarından məhrum edildi. Azərbaycana xas olan əsas cəhətlərdən biri də o idi ki, özəlləşdirmə xalq üçün tale yüklü məsələlər olan siyasi suverenliyin möhkəmləndirilməsi, iqtisadi müstəqilliyə nail olmaq və

respublikanın ərazi bütövlüyünün bərpası problemlərinin həlli ilə bərabər həyata keçirilirdi» (32, s. 43-46).

Bir qrup iqtisadçının haqlı oaraq qeyd etdiyi kimi, «islahatlar aparmaq üçün ilk növbədə ölkənin ərazi bütövlüyünə, mövcud potensialına, onun əlverişli geosiyasi vəziyyətinə və digər xüsusiyyətlərinə uyğun strateji istiqamətlərin seçilməsi, regional inkişaf strategiyası hazırlanması tələb olunur. Azərbaycanda iqtisadi islahatlar tədricən həyata keçirilir, lakin bəzi hallarda onların ləngiməsi də müşahidə olunur. Bunun ən başlıca səbəblərindən biri onların regional aspektinə lazımi diqqət verilməməsidir. Ermənistanın təcavüzü nəticəsində ölkə ərazisinin 20%-nin işğalı, bir milyondan çox əhalinin qaçqın vəziyyətinə düşməsi, çoxlu sayda sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, sosial sferaya daxil olan obyektlərin ləğv olunması və ya fəaliyyətlərini dayandırması regional inkişaf konsepsiyasının işlənib həyata keçirilməsini tələb edir, yəni bazar münasibətlərinin həyata keçirilməsi prosesində regional inkişafın dövlət tənzimlənməsi bilavasitə obyektiv zərurətə çevrilir. Bazar münasibətləri şəraitində fəaliyyət göstərən ölkələrin təcrübəsi göstərir ki, regional inkişafın tənzimlənməsi dövlətin bütövlükdə iqtisadi inkişafa müdaxilə etdiyi səmərəli və vacib sahədir» (12, II buraxılış, B - 2001, səh. 203, 205).

Müşahidə etdiyimiz kimi, Azərbaycanda özəlləşdirmə prosesi 10 illik tarixə malikdir. Demək olar ki, bu proses hələ də başa çatmayıb. Bunun bir sıra səbəbləri var: ilk növbədə, ayrı-ayrı müəssisələrin və s. özəlləşdirilməsi üçün əhalinin böyük kapital imkanlarına malik olan varlı təbəqəsinin formalaşması vacibdir. İkincisi, insanlar bazar rəqabətinə daxil olmaqdan çəkinirlər. Bu vəziyyət isə R.M.Cəbiyevin qeyd etdiyi kimi, Respublikada bazar iqtisadiyyatına keçid şəraitində sərbəst bazarların işə düşməsinə imkan verən bazar infrastrukturunun həlledici fəaliyyətinə mane olur, çünki «bazar infrastrukturu – istehsalçıdan istehlakçıyadək əmtəə və xidmətlərin sərbəst hərəkətini təmin edən ayrı-ayrı müstəqil qarşılıqlı əlaqəli bazarların və idarəetmə strukturlarının məcmusudur. Onlara aiddir: əmtəə və xidmətlər bazarı, istehsal vasitələri bazarı, daşınmaz əmlak bazarı, işçi qüvvəsi bazarı, innovasiya bazarı, lizinq bazarı, sığorta bazarı, qiymətləndirmə bazarı, konsaltinq bazarı». Müəllif qeyd edir ki, «Azərbaycanda adları çəkilən bazarların hamısı eyni dərəcədə inkişaf etməmişlər və fəaliyyət göstərmirlər» (12, I buraxılış, 2000, s.95)

Bazar iqtisadiyyatına keçidlə bağlı olan bu proseslərin gedişində yaranan çatışmamazlıqlar zənnimizcə, bilavasitə qeyri-sabit siyasi hadisələr axınında insanlarda sabaha inam hissinin azalması ilə əlaqədar ola bilər.

Bütün bu proseslərin ümumi nəticələrini Rusiya sosioloqu O.T.Boqomolov aşağıdakı kimi izah edir: «bazar münasibətlərinə və şəxsi mülkiyyətə keçid birlikdə böhranın yüksəlməsinə, bəzi hallarda isə təhlükəli sərhədlərə çatmasına səbəb olur. Məhz milli valyutanın dəyərsizləşməsi və yüksək böhranın davamlılığı səviyyəsi ilə islahatların nə dərəcədə müvəffəqiyyətli olduğunu izləmək olar. Böhran müasir sivilizasiyalı bazar iqtisadiyyatının formalaşmasında ən böyük əngəldir. Böhran bütün təsərrüfat subyektlərinin – istehsalçılar, istehlakçılar, investorlar, tacirlərin davranışına əsaslı mənfi təsir göstərir. Bəziləri əmin deyillər ki, uzunmüddətli quruculuq və istehsalla bağlı olan kapital qoyumları müsbət nəticə əldə etməyə imkan verər, digərləri isə xammal, enerji bahalandıqdan sonra bu sahələrə çəkilmiş xərclərin ödənilməyəcəyindən ehtiyat edirlər. Böhran vergi ödənməsinin bir növü kimi bazar iqtisadiyyatına keçidin ağırlığını daha çox geniş əhali təbəqəsinin üzərinə salaraq sosial gərginliyə səbəb olur. Bundan əlavə əməyin maddi əsaslarını dağıdaraq bazarı yerli istehsalçılardan məhrum edir. Böhran - iqtisadiyyatın vəziyyətinin barometridir» (33, s.37).

O.T.Boqomolov əlavə edir ki, «islahatlar keçirən ölkələrdə özəlləşdirmənin həyata keçirilməsi tədricən ölkələrin siyasi və mənəvi iqliminə daha güclü təsir etməyə başlayır. Bu təsir cəmiyyətin islahatlara münasibətində, əhalinin baş verən dəyişikliklərin qanuniliyi və sosial ədalətliliyi səviyyəsinə verdikləri qiymətdə əks olunudru. Özəlləşdirilən mülkiyyətin əldə olunması uğrunda mübarizə kriminal xarakter alır. Özəlləşdirmə iqtisadi təsirin (effektin) yüksəldilməsi vasitəsindən daha çox siyasi təsir və hakimiyyət əldə etmək vasitəsinə çevrilirdi. Özəlləşdirmənin bu və ya digər xarakter alması isə hakim elitanın yürütdüyü siyasətdən, onun radikal-liberal və ya sosial-demokratik mövqe tutmasından asılı idi» (33, s.63).

Boqomolovun təsvir etdiyi islahatlar prosesinin gedişində üzə çıxan mənfi halları bütöv MDB ölkələrinə, o cümlədən Azərbaycanda siyasi proseslərin gedişi və güclü təsiri altında aparılan islahatlara aid etmək olar. S.Ə.Şirəlizadənin fikrincə, «əhalini özəlləşdirmədə iştirakın vacibliyinə inandırmaq üçün hakim elita, müxalifət öz maraqlarını məhdudlaşdırmağa və bütün ictimai-siyasi qüvvələr spektrinin bu prosesdə geniş iştirakına

yol verməyə getməlidir. Özəlləşdirməni aparan şəxslərin əsas vəzifələrindən biri iqtisadi siyasət təbliğatının gücləndirilməsidir. Qeyd etmək lazımdır ki, özəlləşdirmə sırf iqtisadi məsələ deyil. İqtisadiyyat və siyasət məvhumlarının ziddiyyətli vəhdəti haqqında ümumi müddəalardan başqa yuxarıdakı fikri təsdiqləyəcək bir aksiom da mövcuddur: bazar iqtisadiyyatı relslərinə keçid üçün əsas vasitə olan özəlləşdirmə cəmiyyətin ictimai-siyasi simasının dəyişməsində, yeni zümrə və siniflərin, təbəqələrin, ictimai institutların formalaşmasında həlledici rol oynayır. Bununla yanaşı özəlləşdirmə siyasi mübarizə predmeti olmamalı və əhalinin bütün təbəqələrinin maraqlarını birləşdirən bir prosesə çevrilməlidir. Ona görə də özəlləşdirmə prosesində milli konsensus vacibdir».

Keçid dövrünü – «müvafiq normativ bazanın olmadığı dövr» kimi səciyyələndirən S.Ə.Şirəlizadə əlavə edir ki, «özəlləşdirmədən sonra müəssisələr iki əsas problemlə üzləşirlər: 1)maliyyə böhranından çıxmaq, köhnə avadanlıq və texnologiyanın yeni və daha mütərəqqi tipləri ilə əvəzlənməsi üçün maliyyə resurslarının axtarılması; 2)rəqabət qabiliyyətini itirmiş müəssisələrin reabilitasiyadan sonra rəqabət mühitinə daxil olması» (22, VIII Buraxılış, B -2000, səh. 99-100).

İslahatlar prosesinin ən adi gözlə görünən tərəflərindən biri köhnə iqtisadi strukturun tədricən bazar iqtisadiyyatına uyğun yenidən qurulması prosesidir. Bu yenidənqurma və ya struktur dəyişikliyi prosesində ən qabarıq nəzərə çarpan ilk dövrlərdə hətta kütləvi xarakter alan işsizlik problemidir.

Keçid dövründə Azərbaycanda işsizlik problemi, onun səbəbləri və müasir vəziyyəti cəmiyyətimizdə sosial-psixoloji gərginliyi artırmış, milli-mənəvi ənənələrin dəyərsizləşməsinə səbəb olmuşdur.

Azərbaycanda işsizlik probleminin öyrənilməsilə əlaqədar bir qrup yerli iqtisadçıların araşdırmalarına nəzər salaq. «İşsizliyin iqtisadi nəticələrilə yanaşı onun sosial mənəvi nəticələrini, ictimai dəyərlərə və insanların həyat maraqlarına mənfi təsirini də nəzərdən qaçırmaq olmaz. Məcburi olaraq öz iş qüvvəsindən, qabiliyyətindən yararlana bilməyən insanların həyatında müəyyən depresiya halları yaranır, onların praktiki vərdişləri itir, ixtisas səviyyələri düşür. Nəticədə bir sıra digər sosial problemlərin (cinayətkarlıq, ailə dağılması və s.) meydana çıxması qaçılmaz olur. Bu da cəmiyyətin mənəvi və fiziki sağlamlığına ciddi zərbədir. Ölkəmizin iqtisadiyyatının bazar münasibətləri sisteminə keçməsi və əmək bazarının təşəkkül tapması əmək ehtiyatlarından istifadə probleminin

kəskinləşməsi və işsizliyin artması ilə müşayiət olunur. İşsizlik probleminin kəskinləşməsinin, əhalinin işlə təminolunma səviyyəsinin ciddi şəkildə aşağı düşməsinin bir sıra səbəbləri vardır. İlk növbədə, SSRİ-nin dağılması nəticəsində müttəfiq respublikalar arasındakı mövcud iqtisadi əlaqələrin qırılması, istehsal müəssisələrinin böyük bir hissəsinin öz fəaliyyətini dayandırması həmin sahədə çalışanların öz iş yerlərini itirməsinə səbəb oldu. Yeni iqtisadi münasibətlərə keçidlə əlaqədar olaraq, istehsalın strukturunda, istehsal texnologiyasında mühüm dəyişikliklər baş verdi. Belə dəyişikliklər bəzi ixtisaslara olan tələbi azaltdı və nəticədə struktur işsizliyin səviyyəsi əhəmiyyətli dərəcədə artdı. İkincisi, ölkəmizin üzləşdiyi müharibə, qaçqınlar ordusunun yaranması işsizlərin sayının ağılasığmaz dərəcədə artmasına, istehsalla məşğul olan əhalinin sayının kəskin şəkildə düşməsinə səbəb oldu. Bunlardan başqa dövlət müəssisələrinin özəlləşdirilməsi nəticəsində mövcud olan iş yerlərini itirənlərin sayı çoxaldı ki, bu da işsizliyin ümumi səviyyəsinin artmasına gətirib çıxartdı. Əhalinin böyük bir hissəsinin illər boyu yiyələndiyi əmək vərdişlərini itirməsi, təklif olunan iş yerlərinin onların ixtisaslarına uyğun olmaması və yaxud əmək haqqının səviyyəsinin aşağı olması son illər ərzində işsizlik probleminin öz ciddiliyini qorumasına əsas verib. Azərbaycanda məşğulluq xidmətlərində qeydə alınmış işsizlərin sayının son illərdəki dinamikasına nəzər yetirdikdə görürük ki, bu say illər üzrə artmaqda davam edib:

| | 1992 | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 |
|---|---|---|---|---|---|---|---|
| İşsizlərin sayı | 6,4 | 19,5 | 23,7 | 28,3 | 31,9 | 38,3 | 42,3 |
| Artım tempi (%) | | 3,4 | 12 | 12 | 11 | 12 | 11 |

Göründüyü kimi, ilk baxışdan işsizlərin sayı heç də böyük təsir bağışlamır. Ancaq nəzərə almaq lazımdır ki, bu, rəsmi statistik rəqəmlərdir və mövcud göstəricilər yalnız məşğulluq xidmətlərinə müraciət etmiş işsizlərin sayını əks etdirir. Əslində isə işsizlərin sayı göstərilənlərdən qat-qat artıqdır. Rəsmi məlumatlardakı sayının aşağı olması əhalinin qeydiyyata alınmaq üçün məşğulluq xidmətlərinə müraciət etməməsi ilə bağlıdır» (22, VII Buraxılış, B-2000, səh. 51-52).

Yuxarıda qeyd edilən mənfi hallarla yanaşı, işsizlik həm də təbəqələşmənin dərinləşməsinə səbəb olur. Gündəlik yaşayış tələbatını təmin etmək məqsədilə hər növ əmək fəaliyyətinə razılaşan bir qism əhali 12-14 saat işləyərək əməyinin müqabilində çox az əmək haqqı ilə razılaşmağa məcbur olur. Dünya standartlarına uyğun qəbul edilmiş

əmək münasibətlərinin pozulması, insanların əmək qüvvələrinin qorunmaması mövcud cəmiyyətimizin K.Marksın təsvir etdiyi erkən və ya vəhşi kapitalizm mərhələsini sürətli bir axınla keçdiyi təsəvvürünü yaradır. Kapitalizmin erkən mərhələsi özünəməxsus «yabanı» münasibətlər - korrupsiya, gizli biznes kriminal hadisələrin «çiçəklənməsi», dövlət hüquq orqanlarının nəzarətinin zəifləməsi, cəmiyyətdə mənəvi düşkünlüyün yaranması, yüksək dəyərlərin mənasızlaşması və s. proseslərlə müşayiət olunur. Lakin keçid dövrünü araşdıran tədqiqatçıların fikrincə, keçid dövründə qeyd olunan çatışmazlıqlıarı yaşayan cəmiyyət sonradan məhz az bir qism insanların qoruyub saxlaya bildikləri ali əxlaqi dəyərlər əsasında yenidən dirçəlib inkişaf edə bilir.

İngilis iqtisadçısı E.S.Savas bununla bağlı qeyd edir ki, «ictimaiyyətin aşağı təbəqəsi adlanan təbəqənin problemi, (nəsildən nəslə sosial təminatdan olan asılılıq) qismən olsa da dövlət tərəfindən yaradılmışdır. Qeyd lunan problemlər – məktəbi tərk etmək, azyaşlılar arasında hamiləlik, kəbinsiz uşaq doğuşu, alkoqolizm və narkomaniya kimi əsas problemlər ictimai cəhətdən lazım olmayan insan nəsli törədir. Bu insanlar işləməyi bacarmırlar və dilənçi halında yaşamağa məhkum edilmişlər. Onlar qanuni yolla sosial təminatdan alınan köməkdən və ya qanunsuz, cinayət yolu ilə əldə edilən gəlirdən asılıdırlar.

İslahatçılar belə bir dəlil də gətirirlər ki, cəmiyyətin özəl institutları – ailə, insan məskunlaşmış məntəqə, kilsə, cəmiyyət – bu dağıdıcı davranış nümunəsi üzrə ən yaxşı dəyişikliklər edə və onun inkişafının qabağını ala bilərlər.

Dövlət hakimiyyəti məhduddur, ancaq qanun çıxarda bilir. Buna əks olaraq «ruhani nümayəndəsi məsləhət verə bilər ki, kilsədən yardım alan əyyaş öz hərəkətlərinin saflaşması üçün tövsiyə alsın, ola bilsin ki, onun yardım etmək hüququ da var, lakin o, habelə vətəndaşın sosial mahiyyətini də öz üzərinə götürməlidir» (24, s.311).

Müəllif bu fikirlərini Nyu-Yorkda həm kilsə, həm də dövlət idarələri tərəfindən təşkil olunmuş sosial təminat fəaliyyətlərindən gətirilən misallar ilə sübut edir.

Keçid dövrü şəraitində mənəvi durğunluq keçirən insanların ruhani məsləhətlərinə ehtiyacları xüsusilə böyükdür. Lakin əfsuslar olsun ki, respublikamızda müsəlman ruhaniləri bu sahədə demək olar ki, fəaliyyətsizdirlər. Halbuki qeyd edilən həm mənəvi, həm də ruhani köməyi islam dininin də nüfuzunun güclənməsinə kömək edə bilərdi.

Görkəmli Rusiya sosioloqu Y.Q.Volkov isə yaşadığımız keçid dövründə sosial-iqtisadi münasibətlərin tənzimlənməsi üçün «idarəçiliyin bazar mədəniyyətini formalaşdırmaq» ideyası ilə çıxış edir və «menecerləri bu mədəniyyətin daşıyıcıları» kimi səciyyələndirir (37, s.284).

Rusiyada keçid dövrü cəmiyyətinin təsvirini verməyə çalışan Y.Q.Volkov onu insana bənzədir. Bu insanın başı (yəni varlı təbəqə) çox balaca, bədəni (orta təbəqə) çox arıq, ayaqları (aşağı təbəqə) isə çox böyükdür. Belə «balaca baş» və «arıq bədən» özünün «nəhəng ayaqlarını» tərpədə bilmək iqtidarında deyil. Əslində keçid dövrü cəmiyyətinin anormal vəziyyətini «görməyə» imkan verən bu təsvir bütün postsovet məkanı ölkələrinə aiddir desək, yanılmarıq.

### 2.2.2. Keçid mərhələsində təbəqələşmə prosesinə dair

Sovet imperiyası dövründə mövcud cəmiyyət qapalı olduğundan onu təşkil edən insanlar və ya bu quruluşda mövcud olmuş siniflər arasındakı münasibətlər sabit idi. Qapalılıq bu cəmiyyətin insanlarını ümumdünyəvi sinifləşmə prosesində marginal olmaqdan qoruyurdu. Vaxtı ilə adlandırıldığı kimi «sovet adamları» mövcud ictimai münasibətlərdən kənarda (xarici dövlətlərdə) iqtisadi münasibətlərə can atmırdılar. Lakin imperiya dağıldıqdan sonra yaranmış anlaşılmaz vəziyyət və Qərb sivilizasiyasının bütün sahələri əhatə edən güclü təsir axını bütövlükdə keçmiş sovet məkanının marginal cəmiyyətə çevrilməsinə səbəb oldu. Sovet imperiyası dağıldıqdan sonra özəl təsərrüfat münasibətlərinin inkişafı təbəqələşmə prosesini sürətləndirdi və yeni təsərrüfat münasibətlərinin təmsilçiləri olan təbəqələrin meydana gəlməsinə səbəb oldu. Bu prosesdə ən qabarıq nəzərə çarpan sahibkarlar təbəqəsi idi. Ümumiyyətlə, sahibkarlar fəaliyyət istiqamətlərinə görə 3 qrupa bölünürlər:

1.İri sahibkarlar; 2.Orta sahibkarlar; 3.Xırda sahibkarlar.

Bu gün Azərbaycanda xırda sahibkarlar üstünlük təşkil edirlər. Xırda sahibkarlar əsasən müxtəlif növ ticarətlə məşğul olurlar.

Qeyd etmək lazımdır ki, özəl təsərrüfat münasibətlərində sahibkarlar təbəqəsi ilə yanaşı, yoxsullar təbəqəsi də mövcud olur. Yoxsullar təbəqəsinin yaranmasının əsas səbəbi işsizlik problemidir. İşsizlik isə bazar iqtisadiyyatının əsas xüsusiyyətlərindən biridir.

Çünki bazar iqtisadiyyatında rəqabət inkişafın əsas xüsusiyyəti kimi çıxış edir. Rəqabətə tab gətirməyən özəl müəssisələr iflasa uğrayır və bağlanır. Müəssisələrin bağlanması isə buradakı işçilərin işsizlərə çevrilməsi deməkdir. Sovet imperiyası dağıldıqdan sonra sənaye müəssisələrinin müasir dünya bazarı standartlarına uyğun olmadağı və buradakı rəqabətə davam gətirmədiyi üçün bağlanması postsovet məkanında işsizlik prosesinin kütləvi xarakter almasına səbəb oldu. Ümumiyyətlə, əgər qabaqcıl ölkələrin təcrübəsinə nəzər salsaq, görərik ki, işsizlik probleminin tam və həmişəlik aradan qaldırılması mümkün deyil. Lakin yoxsulluğun mahiyyətinin dəyişdirilməsi mümkündür. Yəni məsələn, ola bilər ki, 100 il əvvəl heç bir əmlakı olmayan və heç bir yerdə işləməyən azad adam yoxsul hesab edilərdisə, 100 il sonra müəyyən miqdarda əmlakı olan və cüzi əmək haqqı alan şəxs yoxsul hesab edilə bilər.

Yaşadığımız keçid dövründə qabarmış yoxsulluq prosesinin nəzarət altına alınması və tənzimlənməsi məqsədilə prezident Heydər Əliyevin 2001-ci il 2 mart tarixli «Azərbaycan Respublikasında yoxsulluğun azaldılması üzrə komissiyanın yaradılması haqqında» verdiyi sərəncam məqsədyönlü və əhəmiyyətli xüsusiyyətə malikdir. Bu sərəncam eyni zamanda təbəqələrarası sərhəddin aradan qaldırılmasına atılan bir addımdır. Çünki yoxsulluq həddinin müəyyən edilməsi və bu həddin azaldılmasına cəhd o deməkdir ki, yoxsulluq həddini keçən şəxslər artıq yeni təbəqəyə (ola bilər ki, orta sinfə) aid ola bilərlər.

Beləliklə, artıq 10 ildən artıq bir müddəti əhatə edən keçid dövründə cəmiyyətimizin təbəqələşməsi prosesi davam edir. Sosioloji sorğular zamanı apardığımız müşahidələr göstərdi ki, müəyyən qrup adamlar hansı təbəqəyə aid olduqları haqqında dəqiq təsəvvürə malik deyillər. Eyni zamanda təbəqələşmə prosesi başa çatmadığından yeni yaranan sinifləri və təbəqələri dəqiq göstərmək və ya adlandırmaq da çətindir və bu prosesdə ilkin müşahidələri qeyd etmək vacibdir. Bu səpkidə Azərbaycanda mövcud olan yenilikləri öyrənmək üçün Qərbi Avropada vaxtı ilə keçid dövrünü yaşamış və o mərhələdə sinfi münasibətləri təkmilləşdirmiş ölkələrin təcrübəsini nəzərə alaraq, bu gün bizim cəmiyyətimizdə meydana gələn yeni təbəqələrin və siniflərin yaranma prosesini təhlil etmək elmi maraq kəsb edir.

Təbəqələşmə prosesi ilə bağlı olan problemlərə dair işləyən bir sıra müəllifləri qeyd etmək olar. Bunların içərisində həm respublikamızda işləyən müəllifləri, həm də rus və

Qərb tədqiqatçılarını qeyd etməyi zəruri bilirik. Azərbaycan tədqiqatçılarından C.Əhmədli, R.Həsənov, R.Əzimova və başqaları bu sahədə elmi tədqiqatlar aparmışlar.

Qloballaşma prosesinin sürətləndiyi bir dövrdə, hər hansı bir sosial-iqtisadi təzahür formasını aydınlaşdırmağa cəhd edərkən bu təzahürün digər mühitlərdə özünüəksi formasına diqqət yetirmək vacibdir. Onu da qeyd edə bilərik ki, müasir inkişaf etmiş ölkələrdə təbəqələşmə prosesinin vəziyyəti və öyrənilməsinə çoxlu sayda tədqiqat işləri həsr olunub. Belə ki, rus sosioloqu P.B.Yerasov ABŞ və Yaponiyada 6 sinfin mövcud olduğunu qeyd edir: 1)İş verənlər, muzdlu işçiləri olan mülk sahibləri; 2)Xırda mülkiyyətçilər (muzdlu işçiləri yoxdur); 3)Menecerlər; 4)Aşağı təbəqəyə rəhbərlik edənlər; 5)Zehni əməklə məşğul olanlar və 6)Fiziki işlə məşğul olan fəhlələr. Belə sinifləşmədə gəlirin miqdarı və təhsil səviyyəsi nəzərə alınmır (59,№3,4 1993, s.105-107).

Polşa sosioloqları Henri Domanski və Zbiqnev Savinski təbəqələşmə ilə bağlı aparılmış araşdırmalarla müqayisəli tədqiqat apararaq Erikson, Holdtron və Portokareronun (EHP) yaratdıqları müqayisəli təbəqələşmə strukturunu Polşa cəmiyyətinə uyğunlaşdırılmış formada tətbiq edilməsinə üstünlük vermişlər. Bu əsasda sinifləşmənin bir sıra beynəlxalq təsnifatları hazırlanmışdır: Peşələrin beynəlxalq təsnifatı (ISSO), Peşələrin mövqeyinin beynəlxalq standartlaşmış şkalası (SIOPS), Sosial-iqtisadi statusun beynəlxalq standartlaşmış şkalası (ISEI). Lakin nəzəri və metodoloji fərqlər hansı peşə kateqoriyalarını seçməyi və bu zaman hansı kateqoriyalardan istifadə etmək üçün yaramırdı. Paradiqmaların rəqabət vəziyyəti beynəlxalq tədqiqatlarda istifadə edilməsi üçün vahid standart işin alınmasına mane olurdu. Hamı tərəfindən qəbul edilən və nəzəri cəhətdən təsirli olan konsepsiyanın yaranması vacib idi. Nəhayət, M.Veberin sinfi-təbəqələşmə diferensiasiyasına əsaslandırılmış EHP göstəricilərinə üstünlük verildi. M.Veberin avtoriteti, mövcud vahid nəzəri konsepsiyanın müdafiə olunması və bazar cəmiyyəti üçün bu təsnifatın uğurlu olduğunu təsdiq edən təcrübi əsaslar EHP təsnifatının müqayisəli tədqiqatlarda sinfi-təbəqələşmə əməliyyatlarında tez-tez istifadə edilməsinə şərait yaratdı» (59, №1 1999, s.44-49).

Aşağıda verilən cədvəl M.Veberin konsepsiyası əsasında tərtib olunub.

| № | Kateqoriyaların adı | % |
|---|---|---|
| 1. | Dövlət strukturunda və biznesdə ali rəhbər kadrlar, mütəxəssislər, iri firma sahibkarları. | 8,9 |
| 2. | Dövlət strukturunda və biznesdə aşağı rəhbər kadrlar, orta səviyyəli mütəxəssislər | 15,1 |
| 3. | Dəftəfrxana işçiləri, satıcılar, xidmət sahəsinin ixtisaslaşmış personalı | 16,7 |
| 4. | Muzdlu işçiləri olan azad sahibkarlar | 0,6 |
| 5. | Muzdlu işçiləri olmayan azad sahibkarlar | 2,7 |
| 6. | Fiziki işçilərə rəhbərlik edən briqadirlər və texniki-nəzarətçilər | 1,7 |
| 7. | İxtisaslaşmış fəhlələr | 15,7 |
| 8. | Sadə əmək adamları | 25,2 |
| 9. | Kəndlilər | 11,2 |
| 10. | Cəmi | 100,0 |

Müəlliflərin qeyd etdiyi kimi, «bu cədvəldə təbəqələşmə həm sinfi, həm də peşələr arasında aparılır. Bunun əsas səbəbi isə dünya iqtisadi bazarının mövcud olmasıdır. Bazar münasibətləri mövqeyi – bir tərəfdən ehtiyatlar, digər tərəfdən isə həmin ehtiyatlar əvəzində alınan gəlirlər mənasını verir. Bu gəlirlər – xüsusi peşəkar ixtisaslaşma, təhsil səviyyəsi, iqtisadi və mədəni kapital deməkdir və fərd bu qeyd olunanlarla bazar münasibətlərinə daxil olur. Bu ehtiyatlar az və ya çox dərəcədə yaxşı vəzifənin elementləri hesab edilir, bundan başqa əmək haqqının miqdarını təyin edir, məşğulluğa təminat verir və ya işin itirilməsinə səbəb olur, karyera etmək imkanı verir və sosial-iqtisadi aspektin digər vəziyyətlərilə müşayiət olunur» (59, №1 1999, s.49). Yuxarıda göstərilənləri nəzərə alaraq Polşa müəlliflərinin hazırladıqları EHP cədvəlini Azərbaycanda qəbul etmək olar. Lakin nəzərə almaq lazımdır ki, cədvəldə qeyd olunmuş təbəqələrin formalaşması prosesi bizim cəmiyyətimizdə öz əsas cizgilərini tapsa da, bu proses tam başa çatmayıb.

Cədvəldə göstərilmiş kateqoriyaların açılışını verən Polşa müəlliflərinin tədqiqatlarına bu gün Azərbaycanda bəlkə də bir təbəqəyə çevrilmiş və əhalinin təxminən 1,75%-ni təşkil edən işsizləri də əlavə etmək olar. Çünki işsizlər təbəqəsinə əslində EHP

cədvəlində qeyd olunmuş bütün siniflərdən və ya təbəqələrdən olan yığma şəxslər daxildirlər və onlar özlərini yığma və ya toplum bir təbəqə kimi göstərirlər.

Sovet sosializminin dağılmasından sonra yeni sinifləşmə prosesi obyektiv bir prosesə çevrilərək sinifdaxili və siniflərarası yeniləşməyə doğru gedir. Bildiyimiz kimi, sovet sosializmi quruluşu siyasi elita, ziyalılar, fəhlə və kəndlilər siniflərindən təşkil olunmuşdu. Lakin siniflər arasındakı hüquqi fərqlər nəzərə çarpmırdı. Tarixə nəzər saldıqda görürük ki, ümumiyyətlə hər bir cəmiyyətin keçid mərhələsində təbəqələşmə prosesi aparıcı rol oynayıb. Çünki cəmiyyətin yeni iqtisadi münasibətlərə keçidi dövründə onun strukturu dəyişərək təbəqələşmə prosesini sürətləndirir. Bu gün siniflərarası münasibətlərin bir proses kimi araşdırılması bizim üçün olduqca vacibdir. Bu məqsədlə İ.D.İvanov, O.D.Uilrix və V.L.Şeyniye kimi mütəxəssislərin bu istiqamətdə apardıqları tədqiqatlar bizim üçün nəzəri mənbə ola bilər. Həmin müəlliflər sinifləşmə prosesində xüsusi yer tutan bir neçə amilə daha çox fikir verirlər. Onlar qeyd edirlər ki, «inkişaf etməkdə olan ölkələrdə adətən müasir standart və texnologiyalara cavab verməyən quruluşlar həm daxildən, həm də xaricdən müasir sahibkarlıq sektorları və dünya bazarının təsirinə məruz qalır və burada əmək bölgüsü yaranır. Uzunmüddətli tarixi inkişaf nəticəsində müasir təbəqələşməyə malik olan ölkələrdə bu proses həm çox sürətlə gedir, həm də böyük daxili müqavimətlərə məruz qalır. Bu da həmin ölkələrdə daxili bazarın zəifləməsinə səbəb olur. Müəlliflər yuxarıdakı fikirlərinin davamı olaraq qeyd edirlər ki, «keçid dövründə yerli əkinçilik əvvəlcə istehsalatla, sonra isə xırda məhsul istehsalçıları ilə birləşir. Bazar münasibətləri təsirinə düşən bu keçici əkinçilik əvvəllər ağıla gəlməyən rəqabətlə qarşılaşır. Kənddə müasir icarədarlar formasında alıcılar meydana gəlir. Yerli kəndli artıq torpağa «sənaye» kimi baxan fermerə çevrilir. Bu isə öz növbəsində əkinçiliyin ixtisaslaşmasına və kəndlilərin təbəqələşməsinə səbəb olur. Torpaq özü alqı-satqı obyektinə çevrilir. Bu prosesdə ictimai əmək bölgüsü və onun iqtisadiyyatın bütün sahələrində ixtisaslaşması aparıcı faktora çevrilərək əkinçi olmayan əhalinin çoxalmasına və urbanizasiya prosesinin sürətlənməsinə, daxili qruplaşmaya, məlumat vasitələrinin inkişafına, dövlətin fəaliyyətinə və xarici bazara təsir etməsinə səbəb olur. Bu isə öz növbəsində bazara eninə və dərininə inkişaf etməyə şərait yaradır» (42, s.113-115).

Beləliklə, gördüyümüz kimi, əsasən keçid dövrünün erkən fazalarında daha qabarıq nəzərə çarpan daxili bazarın formalaşması prosesi tədricən torpaqdan, yəni kənd

təsərrüfatının inkişafından asılı vəziyyətə düşür. Yəni daxili bazarın genişlənməsində yerli kənd təsərrüfatının rolu ilkin nəzərə çarpır. Bu prosesi biz bu gün Azərbaycanda da bütün tərəflərilə müşahidə edirik. Beləliklə, keçid dövrünün ilk mərhələsində əmək bölgüsü və ya sinifləşmə haqqında danışarkən biz əsasən kənd təsərrüfatının yeni quruluşda formalaşmasından asılı olaraq yaranan daxili bazar münasibətləri və vasitələrini müşahidə edirik və onun nəticələri göz önündədir. Yuxarıda göstərilənləri nəzərə alaraq, Azərbaycan Dövlət Statistika Komitəsinin göstəricilərinə əsasən son on ildə Azərbaycanda urbanizasiya prosesinin vəziyyətinə nəzər salsaq mövcud dəyişiklikləri müşahidə edə bilərik.

| İllər | 1990 | 1991 | 1993 | 1994 | 1995 | 1995 | 1996 | 1997 | 1998 | 1999 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kənd | 3284.2 | 3359.3 | 3438.2 | 3509.2 | 3576.4 | 3635.1 | 3688.5 | 3738.4 | 3790.2 | 3838.2 |
| Şəhər | 3847.2 | 3859.3 | 3885.9 | 3930.5 | 3973.2 | 4008.1 | 4037.7 | 4061.4 | 4086.5 | 4111.1 |

Şəhərlər respublikamızın 49%-ni təşkil etsə də, bu gün əhalinin təxminən 51%-i məhz şəhərlərdə məskunlaşmışdır. Şəhərlərdən paytaxta axın sürətlənib və bu prosesin qarşısı alınmasa, bu kənd təsərrüfatında öz mənfi əksini tapa bilər. Burada biz onu nəzərdə tuturuq ki, torpağın özəlləşmə prosesində torpaq onun əsl sahibindən təsadüfi adamların əlinə keçə bilər.

Deyilənləri nəzərə alaraq bu gün Azərbaycan kəndində əhalinin – 1)fermerlər və ya xırda təsərrüfatçılar, 2)ortabab kəndlilər və ya xırda alverçilər, 3)kasıb kəndlilər və ya mövsümi muzdlu işçilər kimi təbəqələrə bölündüyünü müşahidə etmək olar. Bizə elə gəlir ki, kənd təsərrüfatında inkişaf nəticəsində bu təbəqələrin bəziləri həyatın tələbatına cavab vermədiyinə görə sıradan çıxa bilər və ya yenisi ilə əvəz oluna bilər.

Yuxarıda qeyd etdiyimiz müəlliflər burada yaranan ziddiyyətli vəziyyəti belə izah edirlər: «inkişaf etməkdə olan iqtisadiyyatın ən nəzərə çarpan cəhətlərindən biri odur ki, burada sabitləşmiş siniflər yoxdur və istehsal prosesində ən müxtəlif təbəqələr qarışır. Bunun da əsas səbəbi eyni bir fərdin bir neçə sənətə yiyələnməsi və müxtəlif sahələrdə iqtisadi münasibətlərə qoşulmasıdır. Məsələn, torpaq sahibkarı – torpaq sahəsini icarəyə verən, mülkədar, iri tacir, aksioner və s. – dövlət işçisi ola bilər; xırda torpaq sahibkarı – öz torpağını icarəyə verən, şəxsi və ya dövlət müəssisəsində muzdlu işçi ola bilər və s.» (42, s.113-115). Belə bir nəticəyə gəlmək olar ki, bir ictimai quruluşdan digərinə keçid dövrünü yaşayan şəxsiyyət əvvəlki quruluşda aid olduğu sinfin təzahürlərilə yanaşı, yeni

quruluşun da sinfi təzahürlərini özündə birləşdirir və buna görə də iqtisadi münasibətlərdə bir neçə iqtisadi tipin daşıyıcısına çevrilir. Keçid dövrünü yaşayan cəmiyyətin dünya iqtisadi bazarına daxil olması və yeni iqtisadi sektorların inkişafı yeni iqtisadi münasibətlərin yaranmasına səbəb olur.

Bu gün neft sənayesini çıxmaq şərtilə hələ ki, Azərbaycanda sənaye sahələri özünün böhran dövrünü yaşayır. Neft sənayesinin inkişafı isə birbaşa xarici sərmayələrin gücünədir. Buna görə də sənayeləşmiş cəmiyyətin əsas təbəqələrindən olan fəhlə sinfinin Azərbaycan cəmiyyətində bu günkü mövqeyi və ya tutduğu yer haqqında fikir söyləmək bir qədər çətindir.

Təbəqələşmə probleminin psixoloji və mədəni aspektləri də olduqca aktualdır və müasir sosioloqlar problemin mədəni-psixoloji aspektlərinə də xeyli yer ayırırlar. Yerasov siniflər arasındakı münasibətləri öyrənərək belə nəticəyə gəlir ki, «a)keçmişdə peşəkar sərbəstliyin zühur etməsi imkanlarının səviyyəsi fərdin gələcəkdə sinfi strukturda tuta biləcəyi mövqeyə təsir edir; b)şəxsiyyətin peşəkar sərbəstliyinin səviyyəsi ilə psixoloji xarakteristikası arasında böyük əlaqənin olduğu müşahidə edilir; v)fərdi psixoloji xarakteristikanın fərdin peşəkar sərbəstliyinə və cəmiyyətdə mövqeyinə təsir etməsi heç bir statistika tərəfindən təsdiq edilməyib» (59, № 3,4 1993, s.105-107). Buradan belə bir nəticəyə gəlmək olar ki, əslində yaşadığımız dövrün özü təbəqələrin bir-birinə keçməsi və ya vaxtı ilə bir təbəqənin üzvü olmuş şəxsiyyətin digər – daha yuxarı və ya aşağı təbəqəyə keçməsinin sürətləndiyi dövrdür. İ.D.İvanov, O.D.Uilrix və V.L.Şeyniyenin qeyd etdikləri kimi, «müasir siniflərin formalaşması prosesində etnik, irqi, mədəni və digər qruplar yaxından iştirak edərək siniflərin iqtisadi əsasının zəifliyinə səbəb olur. Lyumpenlər, pauperlər, marginallar kimi amorf sosial mövcud olmalar siniflərin formalaşmasına güclü təsir göstərirlər» (42, s.207, 233). Bu gün Azərbaycanda bu prosesi biz daha qabarıq şəkildə müşahidə edə bilirik. Belə ki, cəlb olunduğumuz müharibə bir milyondan artıq əhalinin qaçqına, yeni sosial-iqtisadi münasibətlərdə bir çox insanların marginallara çevrilməsinə səbəb olub. Əvvəlki quruluşda cəmiyyətin əsas aparıcı qüvvəsi olan ziyalıların bir hissəsi isə yeni ictimai münasibətlərə uyğunlaşa bilmədiklərinə görə çaşqınlıq hissiyatı ilə yaşayırlar. Ümumilikdə, Azərbaycan cəmiyyəti yeni sosial-iqtisadi, mənəvi-mədəni və sosial-siyasi proseslərə qoşularaq müəyyən mənada marginal cəmiyyət dövrünü keçirir. Cəmiyyətin marginallığı isə əslində onu təşkil edən hər bir fərdin

marginal olması deməkdir. Bu proses təbəqələşmə ilə üzləşən şəxsiyyətdə qabarıq nəzərə çarpır. O, ya yeni sinfə daxil olduğunu qəbul etmək istəmir və ya bu sinifləşmə onun yeni xarakterik cəhətlərinin açılmasına və inkişafına səbəb olur. Zənnimizcə, Nikolayev düzgün olaraq qeyd edir ki, «cəmiyyətin diferensiasiyası fərdi şüurun kollektivdən ayrılmasına və individual şəxsiyyətin daha çox müstəqilləşməsinə səbəb olur, bu, fərdi qapalılığın dərinləşməsilə müşayiət olunur. Diferensiasiya olunmuş müasir dünyada fərdin həyatının dəyərli hissəsi başqa gözlərdən gizlədilir və belə demək olar ki, psixoloji cəhətdən dərk olunmaq üçün bağlanılır. Qarşılıqlı «yadlaşmanın» sərhədləri qrup daxilindən şəxsiyyətlər arasına keçir. «Yadlaşma» mülayim mənada «qəribəlik» kimi qəbul edilir» (59, № 2, 1998, s.170).

Beləliklə, Azərbaycan Respublikasında keçid dövründə mövcud iqtisadi proseslərin öyrənilməsi ilə bağlı aparılan tədiqatların nəticələrini qruplaşdıraraq deyə bilərik ki,

I. Ümumilikdə bütün postsovet məkanı ölkələri bazar iqtisadiyyatına keçid prosesini yaşayır. Bazar iqtisadiyyatının inkişafına təsir edən əsas amillər – istehsalın genişlənməsi, daxili bazarın inkişafı, dünya bazarına inteqrasiya, idxalın genişlənməsi, kiçik biznesin inkişafı və s. qəbul edilə bilər. Bazar iqtisadiyyatının xarakterik xüsusiyyətlərinin – özəlləşdirmə, ilkin kapital axını, investisiya qoyuluşu, maliyyə böhranları, işsizlik və s. olduğunu hesab etmək olar.

II. Keçid prosesi islahatlarla müşayiət olunur. İslahatlar iki müxtəlif şəraitdə keçirilə bilər:

1.Sabit dövlət quruculuğu şəraitində cəmiyyətin tələbat duyduğu tədrici islahatlar (ABŞ, Qərbi Avropa ölkələri və s.);

2.Ənənəvi dövlət formasının dağıdılaraq yeni dövlət quruculuğuna keçid şəraitində keçirilən islahatlar (post Sovet məkanı ölkələri, Mərkəzi və Şərqi Avropa ölkələri).

Sabit durumda olan cəmiyyətlərdən fərqli olaraq, böhranlı, keçid dövrünü yaşayan cəmiyyətlərdə aparılan islahatlar daha ağrılı və çətin olur. Yalnız vahid islahatçının heç bir siyasi qarşıdurmaların müşahidə edilmədiyi cəmiyyətdə apardığı uğurlu islahatlar keçid dövrünü qısa müddətli edə bilər. Siyasi qarşıdurmalar çərçivəsində isə keçid dövrü təsəvvür edilməyəcək qədər böyük bir müddəti əhatə edə bilər.

III. Sovet sosializmi quruluşunun dağılması siyasi böhranın nəticəsi olsa da məhz iqtisadi bazisin dağılması həm siyasi, həm də mənəvi-mədəni böhranın dərinləşməsinin

ilkin şərtinə çevrildi. Keçid dövrünü yaşayan ölkələrdə keçirilən islahatlar cəmiyyətin bütün sosial institutlarını – iqtisadi, siyasi, mənəvi-mədəni – əhatə edir. Bildiyimiz kimi, postsovet məkanı ölkələri mərkəzləşmiş milli təsərrüfat formasından şəxsi mülkiyyətin əsası olan özəl təsərrüfat formasına keçid dövrünü yaşayırlar. Məlumdur ki, dövlətin cəmiyyətin inkişafı və mənafeyi ilə bağlı olan fəaliyyətinin – islahatların – həyata keçirilməsi üçün ilk növbədə hüquqi baza olmalıdır. Azərbaycanda məhz 1992-ci ildən hüquqi təminat alan özəlləşdirmə prosesi bazar iqtisadiyyatına keçid istiqamətində ilk cəhd idi. Azərbaycan Respublikasında özəlləşdirmə prosesini aşağıdakı mərhələlərə bölmək olar:

1) 1992 / 1994-cü illər; 2) 1995 / 1996-cı illər; 3)1997 / 2002-ci illər.

1) Özəlləşdirmə aşağıdakı sahələr üzrə aparılır:

2) Kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi;

3)Orta dövlət müəssisələrinin özəlləşdirilməsi;İri dövlət müəssisələrinin özəlləşdirilməsi.

Bildiyimiz kimi, MDB ölkələrində islahatların proqramlı gedişi üst-üstə düşsə də, yerlərdəki fərqli ənənəvi-mədəni dəyərlər bu proseslərə müxtəlif cəhətlər gətirdi.

Hazırda islahatların uğurla aparılması bir sıra şərtlərdən asılıdır: ilk növbədə ölkənin ərazi bütövlüyünə, mövcud maddi və mənəvi potensialına, onun əlverişli geosiyasi vəziyyətinə və digər xüsusiyyətlərinə uyğun strateji istiqamətlərin seçilməsi, regional inkişaf strategiyası hazırlanması tələb olunur.

İslahatlar prosesi ilə bağlı yaranan şəxsiyyət probleminin bir sıra xüsusiyyətlərini müşahidələr əsasında irəli sürdüyümüz hipotezdə vurğulamağa cəhd göstərmişik və güman edirik ki, onlardan ən əsasları qeyd edilənlərdir: Sosial gərginliyi artırır; İstehsal münasibətlərində gərginliyi artırır; Şəxsiyyəti aktiv əmək fəaliyyətinə cəlb edir; Şəxsiyyətin çaşqınlığına səbəb olur; Şəxsiyyətin fəaliyyətində mənfi təzahürlərin genişlənməsinə səbəb olur və s.

Bu qeyd edilənləri nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, islahatlar prosesi ilə müşayiət olunan keçid dövründə dağıdıcı davranış formaları daha da qabarır.

IV. Keçid dövründə iqtisadi proseslərin gedişində yaranan ziddiyyətlər təbəqələşmənin dərinləşməsi ilə müşayiət olunur. Sovet imperiyası dağıldıqdan sonra Azərbaycanda kənd və şəhər əhalisinin təsərrüfat fəaliyyətində mövcud fərqlərin olması ilə əlaqədar regional olaraq aşağıdakı təbəqələrin yaranması müşahidə edilir:

Kənd təsərrüfatı sahəsində:

1. Fermerlər və ya xırda təsərrüfatçılar; 2. Ortabab kəndlilər və ya xırda alverçilər; 3. Kasıb kəndlilər və ya mövsümi muzdlu işçilər.

Şəhərdə bilavasitə ticarətlə bağlı olan:

1.İri sahibkarlar; 2.Orta sahibkarlar; 3.Xırda sahibkarlar.

Qeyd olunan sadalamaya daha bir təbəqəni – elitanı – daxil etmək olar. Elitanı da tərkibinə görə 3 hissəyə ayırmaq olar: 1.Elmi potensialın daşıyıcısı olan elita; 2. Siyasi elita; 3.Mədəni elita. Lakin bizə elə gəlir ki, həm mənəvi-intellektual, həm də maddi vəziyyətinə görə seçilə bilən bu təbəqənin nümayəndələri azlıq təşkil edir və digər təbəqələr kimi həqiqi elita da hələ formalaşma mərhələsini yaşayır.

Sonda belə qənaətə gəlirik ki, bilavasitə islahatlar və təbəqələşmə ilə müşayiət olunan iqtisadi proseslər uzunmüddətli və çoxşaxəli problemlərlə bağlıdir və yaxın gələcəkdə burada yaranan problemlərin təhlilinə böyük ehtiyac duyulacaq.

## 2.3. MƏNƏVİ-MƏDƏNİ PROSESLƏR ŞƏXSİYYƏT PROBLEMİ PRİZMASINDAN

Həyata qədəm qoyan insan yaşamağa başladığı andan özünün seçmədiyi və heç nədən asılı olmayaraq mövcud olan məkan, zaman, mikro və makro mühitə daxil olur və onun sosiallaşması prosesi başlanır. İnsan ömrünün sonuna qədər bu prosesi keçir, çünki onun daxil olduğu makro mühitdən ayrılmaq imkanı yoxdur. Mövcud makro mühitdən ayrılma sosiallaşma prosesinin dayanması və tədricən vaxtı ilə qazanılmış şəxsiyyət mahiyətinin itirilməsi demək olar. Şəxsiyyət cəmiyyətdən ayrı mövcud ola bilməz. İlk növbədə ona görə ki, bioloji varlıq olan insan məhz cəmiyyət daxilində sosial status – şəxsiyyət mövqeyi qazanır. Sosiallaşma – hər bir insan üçün öz ömrü çərçivəsində uzun və çoxtərəfli prosesdir. Bu prosesin əsas mənbəyini isə şəxsiyyətin daxil olduğu sosial mühitin irsən qəbul etdiyi və tarixi dövrə uyğun formalaşmış mənəvi-mədəni dəyərlər sistemi təşkil edir. Bu dəyərlər insanın daxil olduğu mədəniyyətin səviyyəsinə uyğun mahiyyət qazanır. Bildiyimiz kimi, mədəniyyət olduqca geniş anlayışdır. Bura həm bütövlükdə tarixən bəşəriyyətin əldə etdiyi nailiyyətləri, həm müəyyən bir tarixi çərçivədə müəyyən millətin qazandığı nailiyyətləri, həm də konkret şəxsiyyətin öz fərdi imkanları çərçivəsində mənimsədiyi və əks etdirə bildirdiyi nailiyyətləri aid etmək olar.

Mədəni proseslərin təhlili ilə bağlı Yuqoslaviya sosioloqu Danilo J. Markoviç qeyd edir ki, "eyni zamanda mədəniyyət həm də teleolojidir. Mədəni dəyərlər şəcərəsinə daxil olan din, elm, incəsənət, fəlsəfə özlüyündə mədəniyyəti təcəssüm etdirir və onun universal dəyərlərini ifadə etməyə cəhd edir. Mədəniyyətin bu və ya digər dəyərləri ümumilikdə bir-birindən fərqlənmir, əksinə onlar qarşılıqlı təsir münasibətlərindədir". Müəllif öz fikirlərinin təsdiqi kimi V.İliçə müraciət edərək ondan belə bir sitat gətirir: "mədəniyyət insan dünyasından başqa bir şey deyil və o bu dünyanın birliyindən təzahür edir, onunla da insan özündəki və təbiətdəki vəhşilikdən ayrılır. Mədəniyyət – ənənələrin və ayrılıqda şəxsiyyətin və onun dünyasının insanlaşma mənbələrindən biridir.

Hər bir tarixi orqanizmdə mənəvi-mədəni proses xüsusi bir tam kimi özündə üç komponenti birləşdirir: əhalinin şüurunun inkişafı, təbiət üzərində inkişaf edən hakimiyyət, intellektual kosmosun aktuallaşması və konkretləşməsi. Mədəniyyətin və sivilizasiyanın birləşməsi cəmiyyətin totallaşması (ümumiləşməsi) ilə nəticələnir. Yaxşı

məlumdur ki, müasir mədəniyyətin ümumiləşməsi, ideologiyalaşması və siyasiləşməsi – müasir cəmiyyətin qlobal xarakterə malik olan parlaq ifadəsidir» (48, s.325 - 336).

Amerika sosioloqu N.Smelzer isə mədəniyyətin sosiallaşdırma imkanlarını aşağıdakı kimi izah edirdi: «mədəniyyət cəmiyyətin üzvləri olan şəxsiyyətləri formalaşdırır, eyni zamanda müəyyən dərəcədə onların hərəkətlərini istiqamətləndirir» (62, s.40). Yəqin ki, burada «müəyyən dərəcədə» dedikdə, şəxsiyyətin qəbul edə bildiyi səviyyə nəzərdə tutulur.

T.Parsonsa görə isə: «Mədəniyyət üç aspektdə çıxış edir: mədəniyyət ötürülür, öyrənilir və genetik təbiətə malik olmayıb ümumqəbul ediləndir. Mədəni dəyərlər fərdin sosial keyfiyyətlər, statuslar, rollarının təşkilinin öyrənilməsi prosesini əhatə edir. Bir-birilə və ətraf mühitlə qarşılıqlı münasibətlərin subyekti olan şəxsiyyət – sosial şəcərənin üçüncü pilləsini – sosial inteqrasiyanı təşkil edən cəmiyyəti yaradır. Lakin inteqrasiyanın həyata keçməsi üçün daha bir sosial sistemin – mədəniyyətin elementləri olan ümumi qəbul edilmiş simvolların olması vacibdir. Hər bir sistem digərinin mövcud olmasına şərait yaradır, belə ki, şəxsiyyətlərsiz və mədəniyyətsiz sosial sistem ola bilməz» (31,s.179-196). T.Parsonsun bu geniş izahından belə nəticəyə gəlmək olar ki, yenidən dərketmə prosesində cəmiyyətin mədəni dəyərlərinin ötürülməsi üçün keçid dövrü köhnə sistemlə yeni sistem arasında bağlayıcı rolunu oynayır. Burada cəmiyyətin varislik prinsipi əsasında inkişaf etməsi fikrini izləmək olar.

Keçid dövründə şəxsiyyət–cəmiyyət münasibətlərində yaranan böhranı araşdıran Rusiya-Amerika sosioloqu P.Sorokin yaşadığı cəmiyyətdə böhranın səbəbini Qərb mədəniyyətinin və cəmiyyətinin son dörd yüz ildə çökməsində görürdü. Müəllifin qeyd etdiyi kimi: «bu zaman mədəniyyətin və cəmiyyətin bir (hissi) forması məhv olur, digəri isə ancaq təzahür edir». P.Sorokin belə bir şəraitdə yaranan böhranı belə açıqlayır: «Cəmiyyətin hissi dəyərlər üzərində qərarlaşmış paradoksları bununla nəticələnir ki, o, əhalinin əksəriyyətinin nə ruhi, nə də maddi tələbatlarını təmin etmək iqtidarında olmur. Böhrandan, xüsusilə də sosio-mədəni tsiklik dağıdıcı dəyişikliklər dövründən çıxış yolu – inteqral dəyərlər sisteminin və ona əsaslanan dini, idealist və hissi mədəniyyəti birləşdirən inteqral mədəniyyətin yaradılmasıdır. İnteqral sistem fərdi maraqların harmoniyasına əsaslanmalıdır.

Kor-təbii bazar sivilizasiyası əsas dəyərləri – fərd azadlığı və ədaləti, insanın ləyaqətini və mülkiyyətini müdafiə etmək iqtidarında deyil» (63, s.429-430). Belə nəticəyə gəmək olar ki, sosial institutların yenidən təşkili və yenidən dərki prosesinin özü böhranlı bir mərhələdir.

Sosial olanı mədəni olanın bir hissəsi kimi qəbul edən L.B.Vişnyatskiyə görə: «Mədəniyyət – cəmiyyəti özünə daxil edir. Lakin bu fərdlərin birliyi olan cəmiyyət deyil. Bu təşkilati stuktura malik olan və genetik cəhətdən determinə olmayan fərdlər və onların qrupları arasındakı əlaqələrin birliyi olaraq fərdlərin münasibətlərini tənzimləyən cəmiyyətdir. Beləliklə, mədəni təkamül cəmiyyətin və sosial münasibətlərin təkamülü ilə eyni zamanda baş verir». Göründüyü kimi, L.B.Vişnyatski mədəni dəyişikliyi təkamül prosesi kimi qəbul edir. Müəllif qeyd edir ki, «təkamül yeninin yaranması və ya yaranmaması ilə də müşaİyyət oluna bilər, lakin yeni (əlaqə və elementlər) yaranmırsa, inkişafdan danışmaq olmaz» (36, s.19).

L.V.Vişnyatskinin fikirlərindən belə nəticəyə gələ bilərik ki, bəşəriyyətin ən yeni tarixində baş verən dəyişikliklər təkamül prosesi ilə bağlıdır. Bu təkamül prosesində yeni element və əlaqələr yaranır, lakin bu, dağıdıcı xarakter daşıyan yeniliklərdir. «Dağıdıcı» və «inkişaf» anlayışları isə bir-birinə ziddir. Onda belə bir sual ortaya çıxır: «Müasir şəxsiyyətin sosiallaşması prosesi hansı tarixi şəraitdə baş verir?» Yəqin ki, bu ümumi dəyərlərdən uzaqlaşan mədəniyyətin sivilizasiyaya çevrilərək kirəcləşdiyi bir tarixi şəraitdir.

Ümumi dəyərlərdən uzaqlaşmanı cəmiyyətin reqressiya mərhələsi kimi xarakterizə edən İ.İlyinski onun deqradasiyaya uğradığını qeyd edir. Müəllifə görə bu zaman «cəmiyyət irəli-yuxarı deyil, ya irəli-aşağı, bəzən hətta aşağı-geriyə də hərəkət edir».

Bəşəri miqyas alan belə bir tarixi şərait qlobal demokratiyaya keçid adlandırılıb. Bu dövrdə müşahidə etdiyimiz yeniliklər bəşəriyyəti mədəni şoka məruz qoyub. Mədəni şok isə yad və ya əcnəbi mədəniyyətlə qarşılaşmada normal və ya mövcud sosial tərəqqinin dağılması nəticəsində yaranır.

Mədəni şok prosesi üç mərhələdə davam edir:

1.İnkulturasiya (doğma mədəniyyətin ənənə, adət, dəyər və normalarının qəbul edilməsi və qorunub saxlanması);

2.Akkulturasiya (yad mədəniyyətin ənənələrinin və dəyərlərinin bir hissəli qəbulu);

3.Assimilyasiya (yad mədəniyyətin tam qəbul edilməsi və doğma mədəniyyətin yad mədəniyyət tərəfindən udulması) (45, s.121)

Əslində bu proses həm şəxsiyyət səviyyəsində, həm də cəmiyyət səviyyəsində baş verir. Bununla yanaşı qeyd edə bilərik ki, Azərbaycan cəmiyyətində mədəni şok prosesinin müxtəlif mərhələlərini yaşayan insanlar mövcuddur. Yəni hazırda həm doğma mədəniyyətin ənənə, adət, dəyər və normalarını qəbul edən və bu dəyərlərin qorunub saxlanmasına çalışanlar; həm yad mədəniyyətin ənənə və dəyərlərini bir hissəli qəbul edənlər; həm də yad mədəniyyəti tam qəbul edərək «qərbləşən» şəxsiyyətlər mövcuddur.

Bildiyimiz kimi, mədəni şokun əmələ gəlməsi tam əks ideologiyalar və dünyagörüşlərinin toqquşması prosesidir. Bu prosesin mənfi tərəfləri daha çoxdur. Müşahidə etdiyimiz kimi açıq cəmiyyətə keçid yeni münasibətlərə yol açan qapalı cəmiyyətdə ağılasığmaz çaşqınlıq yaradır. Mədəni şok psixoloji gərginliyə səbəb olur. Bir qədər geniş miqyasda müşahidə edə bilsək görərik ki, doğrudan da bəşəriyyət psixoloji gərginlik halındadır. Bunu biz Azərbaycanın nümunəsində də görə bilərik. Postsovet məkanı ölkələri üçün bu proses ona görə daha ağrılıdır ki, bu ölkələrin sakinləri ikili keçid dövrünü yaşayırlar. Bu, lokal və qlobal demokratiyaya keçiddir. Lokal keçid – imperiya ağalığından xilas olmuş postsovet məkanı ölkələrində yerli hüquqi dövlət quruculuğuna, mərkəzləşmiş təsərrüfatdan özəl təsərrüfat formasına keçid kimi xarakterizə edilə bilər. Qlobal keçid isə dünya mədəniyyətinə inteqrasiya olunma deməkdir.

Postsovet məkanı ərazisində yaşayan insanları «Homo Soveticus» adlandıran P.Ştompkanın apardığı tədqiqatlara əsasən demək olar ki, bu ölkələrdə baş verən dəyişikliklərə münasibət və dəyişikliklərin yaşanması səviyyəsi müxtəlifdir. Müəllif Lodzi A.Mizalkanın tədqiqatlarına əsaslanaraq qeyd edir ki, «yalnız 7,9% əhali dəyişikliklərdən razıdır və bu kursun davamını gözləyir. Mədəni tərpəniş fonunda və irsi referent çərçivələrin köməyilə izah və müəyyən edilən ekzistensional inamsızlığın müxtəlif amilləri mədəni zədənin təzahüründə müxtəliflik yaradır. 1989-cu ildən sonra Polşa cəmiyyətində bu zədənin 5 simptomu aşkar edilmişdi: 1) İnamsızlıq sindromu – heyranlıq və entuziazmdan sonra «növbəti şəhər sindromu» təzahür edir. İnam azalır. 2)Gələcəyə pessimist baxış – mədəni zədə simptomu. 3) Keçmiş zamanların həsrəti (nostalgiya) . 4)Siyasi apatiya – yüksək elektoral absentizm. 5)Kollektiv yaddaşın postkommunist zədələri – kommunist keçmişin və o zamankı rejimi müxtəlif dərəcələrdə müdafiə edən

adamların rolunun yüksək qiymətləndirilməsi». Ştompka bu münasibətlər çərçivəsində R.Mertonun irəli sürdüyü şəxsiyyət tiplərinin yarandığını qəbul edir(64, № 2, 2001, s.3-12). O, insanların yuxarıda təsvir edilən belə vəziyyətini sosial dəyişikliklər nəticəsində yaranan mədəni zədə adlandırır. Postsovet məkanı ölkələrindəki zədələnməni yerli mədəniyyətlə əcnəbi mədəniyyətin toqquşması və qeyri-normal olan kimi xarakterizə edir (64, № 2, 2001, s.10).

Nəzərə almaq lazımdır ki, «bu zədənin» və ya mədəni şokun nəticəsi olan depressiyadan çıxış bütöv cəmiyyət səviyyəsində iki cür ola bilər: ya milli dövlətçiliyimizi tamam itirə bilərik, ya da yeni intibaha, dirçəlişə qədəm qoya bilərik. Cəmiyyətin bir hissəsi olan şəxsiyyət isə mədəni şokdan aldığı zədədən özünü itirərək ya cəmiyyət üçün özgələşə bilər, ya da özünü təsdiqləmək üçün aqressiv mövqe tuta bilər.

Mədəni şokun nəticəsi olan qeyri-normallıq vəziyyəti cəmiyyətimizdə mənfi sosial meyllərə (cinayətkarlıq, insan alveri, küçə həyatı və s.) axınla müşahidə olunur. Bu gün cəmiyyətlə şəxsiyyətin qarşılıqlı münasibətlərində yaranan ziddiyyətlər özgələşmə, təcrid olunma kimi psixoloji vəziyyətin yaranmasına səbəb olmuşdur. Əgər şəxsiyyət özünün dəyərləndirildiyini hiss edirsə, o, cəmiyyətə uyğunlaşmağa cəhd edir və bəzən özünün dünyagörüşünə, həyat prinsiplərinə zidd hərəkət etməli olur. Lakin cəmiyyətdə baş verən dəyişikliklərə uyğunlaşa bilməyənlər özlərini itirmiş kimi faniliyə qapılırlar. Belə hisslərin güclənməsi isə narkomaniya, alkoqolizm kimi bəlalarla yanaşı özünəqəsd hallarının çoxalması ilə də müşahidə olunur. Bu, həm şəxsiyyətin, həm də onun yaşadığı cəmiyyətin böhranı deməkdir.

Müasir dövrümüzdə yuxarıda qeyd edilənlər ümumbəşəri bəla kimi təzahür edir. Bu gün Azərbaycan dünya mədəniyyətinə inteqrasiya mərhələsini yaşayır. Bu prosesdə biz Avropanın həm müsbət, həm də daha çox mənfi dəyərlərini mənimsəyirik. Azərbaycanda bu inteqrasiya prosesi müharibə şəraitində davam edir və mövcud vəziyyəti bir qədər də çətinləşdirir. Məcburi cəlb edildiyimiz müharibə həm bütöv azərbaycanlı cəmiyyətinin, həm də hər bir azərbaycanlının, xüsusilə də müharibədə iştirak etmiş adamlar və onların ailələrinin psixoloji sarsıntıları və cəmiyyətin mənəvi aşınmasını qabardan hadisələrlə müşayiət edilir. «İnsanın həyatına və taleyinə təsir göstərən anomal (qeyri-adi, ekstremal), təbii və antropogen hadisələrin (müharibələr, terrorizm, genosid, zorakılıq, bədbəxt hadisələr) geniş dairəsi mövcuddur. Anomal vəziyyətdə insan həyatın mənası kimi açılan

ölüm təcrübəsilə qarşılaşır. Ölüm təcrübəsi (real və ya simvolik) qəflətən və ya tədricən açılır və adi həyata dönən insan ətrafdakılarla və ya özü ilə sağ qalmış kimi eyniləşir. Lakin fiziki qayıdış heç də həmişə psixoloji qayıdışla üst-üstə düşmür. Geri dönən anlayır ki, onun başına gələnlər keçib, lakin o, bu keçəni «keçmiş» kimi qəbul edə bilmir. «Necə yəni keçmiş, müharibə qurtarıb, lakin indi o mənim daxilimdədir. Mən hələ də yuxuda döyüşürəm, əvvəlcə bütün bu dəhşətlər məndən kənar idi, indi isə çox illər sonra bütün bunlar mənim şəxsiyyətimin dərinliyinə yüklənib» (38, s.26-35).

Bütün bunlar Əfqanıstan müharibəsində iştirak etmiş və ölümü öz gözlərilə görmüş əsgərlərin etirafıdır. Məgər müharibə zamanı ölümlə qarşılaşmada keçirilən hisslər təxminən eyni deyilmi? Biz bu etirafları bu gün vətənimizin məcburən cəlb edildiyi Qarabağ müharibəsi iştirakçılarının etirafı kimi qəbul etməliyik. Bu hisslər yurdundan didərgin düşmüş günahsız insanların (uşaqların, qocaların, qadınların və s.) keçirdikləri hisslərdir. Əgər vətəndaşlarının hər səkkiz nəfərindən biri bu müdhiş, şəxsiyyəti ikiləşdirən hissləri keçiribsə, həmin ölkənin sağlam mənəvi gələcəyinə əmin olmaq olarmı?

Doğrudur, bəzən şəxsiyyətin sarsılması onun açılması və özünü fəallaşdırması ilə nəticələnir. Lakin çox vaxt «şəxsiyyətin transformasiyası (dəyişilməsi) şəxsiyyətlərarası münasibətlərin pozulması, sevmək qabiliyyətinin itirilməsi və s. ilə də nəticələnir. Bütün bu mənfi dəyişikliklər ailədə münasibətlərin uğursuzluğuna səbəb olur» (38,s.26-35). Şəxsiyyətin formalaşması isə məhz ailə münasibətləri üzərində qurulur. Keçid dövrünü yaşayan azərbaycanlı ailəsi qarşılaşdığı problemlərin – müharibə şəraiti, işsizlik, maddi çətinliklər və s. – həll edilməsi prosesində tədricən öz ənənəvi mahiyyətini dəyişməyə başlayır. Ailədə baş verən dəyişiklikləri izləməyə cəhd edək. Çünki ingilis tədqiqatçısı M.Rosenin də qeyd etdiyi kimi, «Mədəniyyətin ilk ötürücüsü ailədir. Heç kəs bütövlükdə ailədən ayrıla bilməz və ya ilk mühitdən aldığı mənəviyyat səviyyəsindən bütünlüklə yüksək ola bilməz. Lakin bu o demək deyil ki, ailə ötürücülüyün yeganə kanalıdır: bu cəmiyyətdə ənənələrin digər mürəkkəb yolları ilə əvəz olunur və davam edir» (79, s.329).

Bildiyimiz kimi, sosial varlıq kimi şəxsiyyətin formalaşmasının əsası ailədə qoyulur. Məhz ailədə insanlar bir-birilə ünsiyyət yaratmağın, qarşılıqlı münasibətlərin əsaslarını mənimsəyirlər. Əfsus ki, bəzən ailə münasibətlərinin formalaşdırılmasında siyasi təbliğat

milli adət-ənənələri üstələyir. Sovet sosializmi dövründə kişilərlə qadınların hüquq bərabərliyinin elan edilməsi Azərbaycanda da milli adət-ənənələrə zidd olan münasibətlər sisteminin formalaşmasına səbəb olmuşdur. Milli adət-ənənələrə uyğun ideal kişi və qadın obrazları bayağılaşdırıldı və 70 il müddətində yeni siyasi ideologiyaya uyğynlaşdırıldı. Bu isə azərbaycanlı ailəsinin mahiyyətcə dəyişməsinə səbəb oldu. Bununla yanaşı əgər qlobal demokratiyaya keçid şəraitində Qərbdə patriarxal ailə ənənələrinin müasir formalı bərpasına cəhd edilirsə, Azərbaycanda bayağı qərbləşmə prosesi gedir. Bu proses həm kişi və qadın, həm ər və arvad, həm də valideyn və övlad münasibətlərində öz əksini tapır. Bu, ənənəvi azərbaycanlı ailəsinin dağılmasına və cinsi qarışıqlığın genişlənməsinə səbəb olur.

Bu gün cəmiyyətimizi narahat edən problemlərdən biri də qadın və uşaqların bazar ticarətinə qoşulmasıdır. Bu, keçid dövrünün yaratdığı, insan mənəviyyatının kasıblaşmasına, insanın şəxsiyyət kimi yox olmasına aparan ən ağrılı problemdir. Cəlb olunduğumuz müharibə, bazar iqtisadiyyatına keçidlə bağlı müəyyən çətinliklər işsizlik problemi yaratmışdır. Belə bir şəraitdə ailənin hər iki başçısı üzərinə düşən məsuliyyət bir qədər də artır. Qadınlar da ailəni maddi cəhətdən təmin etmək üçün pul qazanmaq yollarını axtarmağa başlayırlar. Maddi ehtiyacla əlaqədar qadınların ailədən uzaqlaşması uşaqların təhsilə marağının azalmasına, dərsdən yayınmasına və uşaq əməyindən istifadəyə səbəb olur. Nəzarətsizlik uşaq cinayətkarlığının artmasına, narkomaniyanın və digər neqativ halların cəmiyyətdə köklü möhkəmlənməsinə gətirir.

Müxtəlif tarixi dövrlərdən fərqli olaraq müasir dövr şəxsiyyəti eyni zamanda 5 – 10 qrupa daxil ola bilər. Belə ki, ailə, təhsil müəssisələri, idman və ya digər kütləvi-mədəni dairələr, dostlar, qohumlar qrupu, əmək fəaliyyətində daxil olduğumuz qruplar və s. şəxsiyyətin rollarının sayını artırır. Beləliklə, şəxsiyyət gün ərzində 5 – 10 rol dəyişə bilər. Məhz belə bir şərait müasir dövr insanlarının psixi gərginliyinə səbəb olur. Bu rollara uyğunlaşaraq onları məharətlə ifa edə bilənlərdə gərginlik nisbətən az nəzərə çarpır. Lakin rollara uyğunlaşa bilməyən şəxsiyyətin özgələşməsi prosesi müşahidə olunur. Belə şəxsiyyət qapalı və aqressiv olur.

E.Fromun qeyd etdiyi kimi, «məhz keçid dövründə güclənən sadizm və nekrofiliya aqressiyanın qəddar keyfiyyətli formaları olub anadangəlmə deyil. İnsanların sosial və iqtisadi həyat şəraitlərini yaxşıya doğru dəyişməklə onların yaranmalarının qarşısını almaq olar. İnsanın həqiqi bacarıqlarının və ehtiyaclarının tam inkişafı üçün lazımi şərait

yaratmaq vacibdir, bu zaman insan fəaliyyətinin və yaradıcılığının məqsədə çevrilməsi əsasdır, çünki insanın istismarı və idarə edilməsi darıxdırıcılıq, tənbəllik və bezikdiricilik əmələ gətirir və bütün bunlar sağlam insanları psixoloji eybəcərlərə çevirir və onları sadist və dağıdıcı edir» (66, s.31-41).

Sovet imperiyası ağalığından sonra təkcə Azərbaycanda deyil, ümumiyyətlə demək olar ki, bütün keçmiş SSRİ məkanında yaşayan insanlarda belə bir dağıdıcılıq meyli qarşısıalınmaz bir qüvvəyə çevrilmişdir. Bu dağıdıcılıq meyli yalnız quruluş dəyişilməsinə qarşı deyil, həm də mənəvi dəyərlərin məhv edilməsinə doğru yönəlmişdi. Keçid dövrünü yaşadığımız zaman çərçivəsində düçar olduğumuz bəlalar insanların həyat şəraitini ağırlaşdırmış, onlarda həyatın özünə qarşı qəzəb hissi oyatmışdır.

Müasir dövrümüzdə elə bir şəxsiyyət göstərmək olmaz ki, o, dünyadakı proseslərdən tam ayrı olsun. Az da olsa, ən ucqar dağ kəndində yaşayan normal şəxsiyyət də özündən asılı olmayaraq müasir qloballaşma prosesinə daxil olur. Bu, onun həyat tərzində, hansı təbəqənin nümayəndəsinə çevrilməsində özünü aydın təzahür etdirir. Ümumiyyətlə isə elm və texnikanın ən böyük nailliyyətlərindən hesab edilən kütləvi informasiya vasitələri bəşəriyyət səviyyəsində mənəvi inteqrasiyanı təmin edir. Eyni zamanda məhz bu inteqrasiya psixi gərginliyi artırır. Bir tərəfdən, müxtəlif dünya ölkələrində baş verən təbii və siyasi fəlakətlərin, digər tərəfdən isə ideal həyat şəraitinin təsvirinə əsaslanan filmlərin izlənməsi bu gərginliyin əsas səbəbinə çevrilir. Faciə və fəlakətlərin izlənməsi şəxsiyyətdə gələcəyə inamsızlıq, həyatın faniliyi kimi hisslər yaradır, onun fəaliyyətini passivləşdirir. Filmlərdə təsvir və təbliğ olunan təmin olunmuş həyat şəraiti isə yaşadığı müddətdə özünə rahat həyat şəraiti yarada bilməyən şəxsiyyətdə aqressiv əhval-ruhiyyə oyadır. Beləliklə, özünü aid etdiyi qrupa daxil olma imkansızlığı şəxsiyyətin rollarında yaranan münaqişənin əsas səbəblərindən birinə çevrilir. Rolların yerinə yetirilməsi prosesində yaranan bu münaqişəni həm uşaq, həm də yetkin şəxsiyyətin həyatında müşahidə edə bilərik. Belə bir münaqişə təbiətən lider olan şəxsiyyət tərəfindən daha aqressiv və faciəli mənimsənilir. Nəticə isə müxtəlif ola bilər. Bu, bəzilərinin cinayətkarlıq, əxlaqsızlıq və s. mənfi münasibətlərə daxil olmasına da gətirə bilər, digər tərəfdən, şəxsiyyətin psixi və fiziki sağlamlığının, bunların nəticəsi kimi sosial mahiyyətinin itirilməsinə səbəb ola bilər. Düzdür, biz daha müsbət bir yolun mövcud ola bildiyini qeyd edə bilərik. Belə ki, daxili aqressiyasını müsbət istiqamətli dəyərlərin əldə olunmasına yönəltmək olar, lakin bu heç

də hər kəsin nail ola biləcəyi bir vəziyyət deyil. Belə ki, kapitalist münasibətləri şəraitində təsadüflərin şəxsiyyətin həyat və fəaliyyətinə təsiri daha da güclənir. Həm də kapitalist münasibətlərində meşə qanunu – güclü olan haqlıdır – şüarı həmişə öndə gedir. Burada "güc" məfhumu altında ilk növbədə kapital və sosial mövqe nəzərdə tutulur.

Hər dəfə ictimai dəyişiklikləri baş verdikdə insanlar daha ədalətli cəmiyyət quracaqlarına, köhnə cəmiyyətin bütün əyər-əskiklərindən, naqisliklərindən canlarını qurtaracaqlarına ümid edirlər. S.Səfərlinin qeyd etdiyi kimi, «Lakin cəmiyyətdə tətbiq edilən yeni qaydalar – kök atmış bütün naqislikləri, mənəvi aşıntıları daha çox qabardır, üzə çıxarır. İnzibati, iqtisadi və sosial qurumlar aşınma qarşısında öz gücsüzlüyünü hiss edir. Dövlət mülkiyyətindən şəxsi mülkiyyətə keçid adamlar arasında hansı yolla olursa, olsun mülkiyyət toplamaq uğrunda yarışa çevrilir. Bu gün Azərbaycanda mülkiyyət toplamaq uğrundakı yarışda itirənlər qazananlardan qat-qat çoxdur. İtirənlər də, qazananlar da, o cümlədən dövlət məmurundan tutmuş hərbi qulluqçuya qədər, ziyalıdan tutmuş fəhləyə qədər hər kəs yalnız gündəlik çörək puluna çatacaq əmək haqqına bel bağlamır. Aşağıdan tutmuş yuxarıya qədər oğurluq sanki adi, gündəlik vərdişə çevrilir» (2, №265(1786), 1997). Ən qorxulu hal odur ki, bu cür oğurluqlar cəmiyyətimizin ayrı-ayrı strukturları ilə yanaşı, ordu hissələrinə, incəsənət əsərlərinə və s. müqəddəs mənəvi dəyərlərimizə doğru yönəlib.

Beləliklə müşahidə etdiyimiz kimi, bu gün cəmiyyətitmizdəki dəyişikliklər mənfi və müsbət tərəflərilə şəxsiyyətin formalaşmasına qarşısıalınmaz təsir göstərir. Yuxarıdakı təhlildən göründüyü kimi, keçid dövründə cəmiyyətin mövcud mənəvi-mədəni dəyərlər sistemi deqradasiyaya uğrayır, insanların daxili mənfi potensialı üzə çıxır və həm şəxsiyyət, həm də cəmiyyət səviyyəsində faciəvi hadisələr bolluğu əmələ gəlir. Mənəvi boşluq hiss edən şəxsiyyətdə özünüaxtarış cəhdi yaranır. Özünü tapa bilməyənlər ya cəmiyyətdən təcrid olunmuş vəziyyətdə faniliyə qapılır, ya da dağıdıcı qüvvəyə çevrilib qeyri-normal fəaliyyətə başlayırlar. Şəxsiyyətin mənəvi böhranının əksi olan bu proses keçid dövrü üçün təbii vəziyyətdir. Bununla əlaqədar E.From qeyd edir ki, «Şəxsiyyətin inkişafı tez-tez cəmiyyət tərəfindən ciddi məhdudiyyətlərlə qarşılaşır. Bu günkü cəmiyyət çərçivəsində şəxsiyyətin dəyişildiyini qəbul və arzu etməyən adamlar daxili dəyişmələrə qarşı olduqlarını inqilabi frazelogiyadan istifadə edərək gizlədən saxta radikallardır.

Tənqidi radikal zəka yalnız olduqca qiymətli insani dəyərlər olan məhəbbət və həyatla birlikdə çıxış etdikdə qiymətli olur» (66, s.570-575).

Bildiyimiz kimi, ümumi və əbədi dəyərlər - gözəllik, xeyirxahlıq, məhəbbət, qadın və kişiyə xas olan ideal cəhətlər və s. bəşəriyyət üçün demək olar ki, eyni mənada qəbul edilir və ya bu qəbul etmədə oxşar cəhətlər çoxdur. Lakin bu dəyərlərin dərk edilməsində zaman və məkan amilləri müəyyən rola malik olur və həmin dəyərlərin düzgün qavranılma səviyyəsinə təsir edir. Məhz bu proses sosiallaşmanın əsas göstəricisi kimi çıxış edə bilər. Belə ki, müasir dövrümüzdə qeyd olunan dəyərlərə münasibətdə ikili standartlarla qarşılaşırıq. Bir tərəfdən sürətli qərbləşmə, digər tərəfdən, islami dəyərlərə fanatik qayıdış, üçüncü bir tərəfdən isə milli adət-ənənələrin arxaik təbliği prosesi müşahidə olunur. (Bizcə bəşəri dəyərlərin düzgün dərk edilərək təbliğində bu üç müxtəlifliyin məqsədəuyğun sintezi əsas götürülməlidir.) Bu ikili standartlar cəmiyyətin ayrı-ayrı qruplarına daxil olan uşağın və hətta yetkin şəxsiyyətin həyatında danılmaz izlər qoyur. Müəyyən ailə mühitində cəmiyyətin ümumi tələblərini ödəyən və ya bu tələblərə əks olan normalar mövcud ola bilər. Bu baxımdan ailədən ayrılaraq yeni mühitə düşən şəxsiyyət nə qədər sərbəst və tam formalaşmış olsa da, mütləq yeni mühitə marginal mövqe tutur. Yeni mühitin düzgün qavranılması və marginallığın aradan qaldırılması həm şəxsiyyətin özündən, həm də qrup üzvlərindən asılıdır. Qapalı cəmiyyətdən açıq cəmiyyətə keçid dövrünü yaşayan şəxsiyyət isə ümumiyyətlə yeni yaranan sosial münasibətlərə marginal mövqedə durur. Bu zaman müxtəlif dünyagörüşləri toqquşur. Keçid dövründə yaranan ziddiyyətli prosesləri mədəni hərəkat kimi qiymətləndirmək olar.

Danilo J.Markoviçə görə, «Mədəni hərəkat həmişə sosial və sivil prosesləri öz axarına çəkə bilir» (48, s.361). Lakin bu həmişə belə olurmu? Cəmiyyətin ən böhranlı dövrləri olan keçid mərhələlərində sosial çətinliklərlə qarşılaşan şəxsiyyətin yaşamaq instinkti ilə bağlı olan qeyri-şüuri təzahürləri qabarır. Vaxtı ilə Maltus cəmiyyətin ümumi inkişafının əsasında insanın qidaya olan ehtiyacının durduğunu qeyd edirdi. Keçid dövrünü yaşadığımıza və müəyyən müşahidələrə malik olduğumuza görə deyə bilərik ki, cəmiyyətin iqtisadi, mənəvi-mədəni, siyasi strukturlarında baş verən dağıdıcı ünsürlər də məhz şəxsiyyətin qidaya olan ehtiyacının ödənilməsinə olan tələbatdan yaxud da, qida artqlığından irəli gəlir. Belə ki, bu gün bəşəri səviyyədə müşahidə edirik ki, daha güclü ölkələrdə istehsal tarixdə heç zaman görünməmiş həddə çatıb. İstehsalın bu səviyyədə

yüksəlişi istehlak bazarlarına tələbat yaradır. Bu tələbatın ödənilməsi prosesində daha zəif olan ölkələr daha güclü olan ölkələrin siyasi, iqtisadi, mənəvi-mədəni təzyiqinə məruz qalır. Məhz bu təzyiq makro səviyyədə mədəniyyətin, mikro səviyyədə şəxsiyyətin mənəvi dünyasının böhranına gətirib çıxarır. Makro səviyyədə genişlənən təzyiq qloballlaşma prosesinin əsasını təşkil edir. Qeyd etdiyimiz kimi, bu proses özgələşmə və ya marginallıq tendensiyasının inkişafına gətirir. Bu zaman qlobal səviyyədə – dövlətlər arasındakı münasibətlərdə aşağıdakıları müşahidə edirik: hegemon dövlətlər müasir sivilizasiyaya münasibətdə marginal mövqe tutan və öz mənəvi – mədəni dəyərlərini qorumağa çalışan xırda dövlətləri təcrid etməyə, iqtisadi, mədəni, siyasi «blokadaya» salmağa başlayırlar. Bu, milli dövlətlər üçün qorxulu, qlobal təhlükə ilə müşahidə edilir. Belə ki, əgər bəzi dövlətlər və ya xalqlar siyasi təcavüzə tabe olub özlərinin marginallıq mövqeyinə uyğunlaşaraq tədricən qloballaşmaya məruz qalırlarsa, digərləri özünütəsdiqləmə prosesində aqressiv mövqe tuturlar ki, bu da terrorizm, dağıdıcı müharibələr şəklində təzahür edir.

Bu gün artıq elm qəbul edir ki, müasir bəşəriyyət qlobal demokratiyaya keçid dövrünü yaşayır. Qlobal demokratiyanın aparıcı amilləri aşağıdakılardır:

a) İdeologiya (sosial və siyasi fəaliyyətin əsasında duran ideyalar sistemi kimi)

b) İqtisadiyyatın qloballaşması (bəşəri miqyasda iqtisadi fəaliyyətin şəxsi kapital hissələri əsasında inteqrasiyası prosesi)

ç) Mədəniyyətin qloballaşması (ümumdünya miqyasında mədəni nümunələrin yayılması tendensiyasıdır. Onu da qeyd etmək olar ki, Giddensə görə «qloballaşma bu gün ancaq qərbləşmə kimi başa düşülə bilməz». Bu – mədəni pluralizmə gətirən prosesdir (34, s. 123, 227).

Qeyd edilən amillər – siyasi, mədəni, iqtisadi - bütövlükdə sivilizasiyaların mədəni dəyərlər sistemi kimi çıxış edir. Müasir sivilizasiyada bu dəyərlər yeni məna kəsb edib.

Müasir dünyanın siyasi təsviri belə nəticəyə gəlməyə imkan verir ki, qloballaşma prosesi məhz milli mədəniyyətləri elit mədəniyyətlər səviyyəsinə qaldıracaq.

Milli mədəniyyətlərin ən vacib qoruyucu amilləri aşağıdakılardır: 1.Dil; 2.Milli mərasimlərin qeyd edilməsi.

Milli mədəniyyətlərin əsas dağıdıcı amili isə informasiya texnologiyasının genişlənməsidir. Bu baxımdan qloballaşma prosesini həm də informasiya inqilabı dövrü

kimi xarakterizə etmək olar. İnformasiya inqilabı bir tərəfdən, bəşəriyyət üçün qloballaşma prosesi ilə, digər tərəfdən, şəxsiyyət üçün fərdiləşmə, kollektiv münasibətlərin dağılması ilə müşayiət olunur. Fərdiləşmə prosesi yeni düşüncə tərzinə malik olan şəxsiyyətə məhdudiyyətsiz seçim azadlığı verilməsi ilə əlaqədar yaranır. Bu prosesi C.Eburdin və P.Nesbit öz əsərləində belə izah edirlər: «Biz qloballaşma erası ilə eyni vaxtda şəxsiyyətin yüksəlişi dövrünü yaşayırıq. Qloballaşma prosesinin paradokslarından biri odur ki, ayrı-ayrı şəxsiyyətlər daha böyük əhəmiyyət kəsb edirlər və daha da güclənirlər. Bu dəyişikliklər kütləvi informasiya vasitələrində də əks olunur. İnsanlar audio və video kasetlərin köməyilə öz fərdi tələbatlarını ödəyə və mədəni proqramlara baxa bilirlər. Bu və ya digər imkanlar şəxsiyyətin rolunu və imkanlarını genişləndirir. Şəxsiyyətin yüksəlişi kollektivin məhvinin sübutudur. Kollektivdə fərdi məsuliyyətdən qaçmaq imkanı var. Lakin şəxsiyyət səviyyəsində bu imkan yox olur.

Şəxsiyyət səviyyəsində olaraq birliklər, müstəqil assosiasiyalar yaratmaq olar. Yeni texnologiya istehsalın miqyasını və məkanını əhəmiyyətsiz edib və ayrılıqda şəxsiyyətin imkanlarını genişləndirib. Artıq sahibkarlıq mədəniyyətdə daha böyük rol oynamağa başlayıb, belə ki, bu zaman şəxsiyyət özünün daha yaxşı olanı haqqında təsəvvürlərini reallaşdırır» (51,s.342–353). Sahibkarlığın mədəniyyətdə çox böyük rol oynamasının daha mühüm göstəricilərindən biri də müasir dövrümüzdə ayrı-ayrı assosiasiyalar tərəfindən qrant almaqla müəyyən bir layihənin həyata keçirilmə imkanlarının yaranmasıdır. Eyni zamanda sahibkarlığın bu rolu ilə bağlı müasir danışıq dilimizə yeni bir ifadə – «sponsor» daxil olub. Bu yeni tipli sahibkardır.

Fərdiləşmə prosesinin ən mühüm səbəblərindən biri də informasiya inqilabı nəticəsində formalaşan kütləvi mədəniyyətdir. Kütləvi mədəniyyət isə eyni cür düşünən və oxşar dünyagörüşlərinə malik olan şəxslərin sayca çoxalmasına, demək olar ki, inkubator və yə konveyer mədəniyyətin formalaşmasına səbəb olur.

E.M.Babasov kütləvi mədəniyyətin miqyasının genişlənməsi haqqında qeyd edir ki: «XX əsrin ortalarında xalq mədəniyyətinin genişlənməsilə əlaqədar olaraq kütləvi mədəniyyət ifadəsi geniş yayıldı. Öz mahiyyət və ifadə formasına görə bu mədəniyyət tipi mənəvi və maddi dəyərlərin kütləvi istifadəsinin orta səviyyəsinə uyğunlaşıb. Mədəniyyət nümunələrinin yayılmasının kütləviliyi istehsalın kütləvi, konveyer imkanlarıları ilə onların yayılması və istifadəsinə əsaslanır. Xüsusilə də son dövrlərdə teleseriallar, video

və səs yazmalar, əsasən trillerlər, hit paradlar, musiqi şlyagerləri, müxtəlif şoular bunlara böyük misaldır. Əyləndiricilik funksiyası ön plana çəkilir, oxuyan, dinləyən və seyr edən tamaşaçılara – kütləyə primitiv emosiyalar, hissilik aşılanır…, qərbləşmə və amerikanlaşma prosesi gedir. Eyni zamanda kütləvi mədəniyyətin əksinə olaraq elitar mədəniyyət seçilir. Bu, seçilmiş bir qrup adama istiqamətlənib. Onlar yüksək və yaxşı inkişaf etmiş bədii mənimsəmə qabiliyyətinə malikdirlər və onlar cəmiyyətin ən yaxşı hissəsi, elita kimi qiymətləndirilmək istəyirlər» (31, s.179-196 ).

Kütləvi mədəniyyətə xas ən ümumi cəhətlərdən biri ənənəvilik hissinin saxlanmasıdır. İ.Məmmədovun qeyd etdiyi kimi, bu gün «Azərbaycan toplumu tarixi-mədəni keçmişindəki ənənələr sistemini itirsə də hələ də ənənəviliyin dağıntıları arasında qalmaqdadır və ənənəviliyin bir çox təzahürlərini özündə göstərməkdədir» (2, № 204(2316), 1999). Qeyd etmək lazımdır ki, sosial vəziyyətindən asılı olaraq ənənəviliyə münasibət də müxtəlifdir. Məhz bu müxtəlif prizmalardan yanaşma ayrı-ayrı qruplara xas mədəni münasibətlər sisteminin yaranmasına səbəb olur. Beləliklə, kütləvi mədəniyyətin tərkibində bir qədər müxtəlif baxışlara malik olan mədəni qruplar, submədəniyyətlər seçilir. Bununla əlaqədar olaraq, E.M.Babasov kütləvi mədəniyyətdən bir qədər seçilən və müəyyən mənada onun tərkib hissəsi olan submədəniyyət haqqında qeyd edir ki, «Son dövrlərdə sosioloqlar submədəniyyət anlayışını daha tez-tez analiz edirlər. Mövcud hakim mədəniyyətin əksinə olaraq submədəniyyət özlüyündə hakim dəyərlər sisteminə reaksiya olaraq cəmiyyətdə tabe sosial – struktur mövqedə duran sosial qrup tərəfindən yaradılmış qrup şəklində normalar, davranış stereotiplərinin mənalar, dəyərlər, ifadə vasitələri, həyat tərzini əks etdirir (31, s.179-196).

E.M.Babasova görə, submədəniyyət – şəxsiyyətin daxil olduğu və özünü sərbəst hiss etdiyi, şəxsiyyətdə «mən» anlayışının «biz» anlayışı ilə qarışdığı və özünəməxsus baxışları və davranış qaydaları ilə fərqlənən qrupa xas dəyərlər sistemidir. Yuxarıda deyilənləri nəzərə alaraq bu gün Azərbaycanda həm siniflərə xas submədəniyyətlərin, həm də siniflər daxilində fərqlənən qruplara xas submədəniyyətlərin yarandığını müşahidə etmək olar. Lakin bu submədəniyyətlər arasındakı ümumi cəhət odur ki, onlar kütləvi mədəniyyətin tərkib hissəsi və kütləvi mədəniyyətə özünəxas yanaşma forması kimi formalaşır.

Müasir dövr Azərbaycan cəmiyyətində baş verən mənəvi-mədəni tənəzzülü müşahidə edən bir çox ziyalılarımız bu vəziyyətdən çıxış yolunu göstərməyə çalışırlar. Bununla

bağlı R.Əzimova qeyd edir ki, «İntellektual potensialın düşünülmüş istifadəsi ictimai həyatın keyfiyyətcə yeni formasına, ağrılı keçidi qısalda bilər» (28, №74(22792), 1996).

Göründüyü kimi, bu gün cəmiyyətimizdə mənəvi islahatlar edilməsinə tələbat yaranıb. Çünki demokratiyanın, iqtisadi tərəqqinin, elmin və s. təməli mənəviyyatdır. Bu gün çökməkdə olan mənəvi dəyərlərimizi dirçəltmək üçün «millətin mənəvi varlığı hesab olunan və onun tərəqqisini təmin edən milli şüuru, dini, iradəni, əxlaqı, xarakteri, tarixi, maddi-mənəvi irsi, adət-ənənələri özündə ehtiva edən» (2, № 51(2163), 1999) və post-modernizm xüsusiyyətlərini məntiqi şəkildə uyğunlaşdıra bilən ideologiyanın yaradılması ən düzgün çıxış yolu ola bilər. Bildiyimiz kimi, keçid dövrü müxtəlif maraqların toqquşduğu, vahid ideologiyanın olmadığı bir dövrdür. Artıq XXI əsrin ilk on illiyində deyə bilərik ki, Azərbaycanda vahid milli ideologiyanın yaradılmasına başlanıb. Belə ki, Azərbaycan Respublikasının sabiq Prezidenti H.Əliyev gənclərin ikinci forumundakı çıxışında milli ideologiyanın mahiyyətini aşağıdakı kimi müəyyən etmişdir: «Azərbaycanın suverenliyi, ölkəmizin bütün vətəndaşlarının mənsub olduğu Azərbaycan xalqı, azərbaycançılıq, ölkəmizin dövlət dili olan Azərbaycan dili, xalqımızın tarix boyu yaratdığı milli-mənəvi dəyərlərimiz, xalqımızın milli əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi, respublikamızın ilk demokratik konstitusiyası hər bir vətəndaş üçün vəzifələr, vətəndaşlarımızın hüquqları, təminatları, Azərbaycanın milli bayrağı, himni – bütün bunlar mənim fikrimcə, müstəqil Azərbaycanın milli ideologiyasını təşkil edən prinsiplərdir. Gənclərimizi təhsil, tərbiyə sahəsində, ailə həyatında bu prinsiplər əsasında formalaşdırmaq, inkişaf etdirmək və fəaliyyətə cəlb etmək lazımdır» (2, № 51(2163), 1999).

Mədəniyyəti qiymətləndirməyi bacarmadan gələcəyə, müstəqilliyə getmək, böyük mənəvi nailiyyətlər əldə etmək çox çətindir. Bu fikri əsas tutaraq, keçid dövründə Azərbaycan Respublikasında baş verən mənəvi-mədəni proseslərin öyrənilməsinin nəticəsi kimi aşağıdakı ümumiləşdirmələrə gəlmək olar:

İ. Keçid dövrü – köhnə sistemin tədricən aradan çıxması və eyni zamanda yeni sistemin rüşeymlərinin inkişaf edərək möhkəmlənməyə başlaması dövrüdür.

Keçid dövrünü həm də G.Zimmelin ifadəsi ilə desək, köhnə «mədəniyyətin böhranı» və ya mövcud mədəniyyət daxilində münaqişənin yaranması və inkişafı dövrü kimi xarakterizə etmək olar.

II. Müasir bəşəriyyət qlobal demokratiyaya keçid dövrünü yaşayır. Qlobal demokratiyanın aparıcı amilləri aşağıdakılardır:

a) İdeologiya; b) İqtisadiyyatın qloballaşması; ç) Mədəniyyətin qloballaşması.

Dünya miqyasında siyasi və iqtisadi hegemonluq iddiaları qloballaşma və ya inteqrasiya prosesində ideologiyanın formalaşmasına təsir edən əsas amillərdir. Bu idealogiyanın əsas mahiyyəti öz kultunun və dövlət quruculuğu proqramlarının iqtisadi və siyasi təzyiqlərlə diqtə edilməsidir. Qloballaşmanın ən təsirli və tez yayılan yolu isə mədəniyyətlərin inteqrasiyası prosesidir. Anti-qlobalizm hərəkatı və «milli dirçəliş» ideyası – milli mədəniyyətləri xilasetmə və qoruma məqsədi daşıyır. Bunu bəşəriyyətin «özünü xilas» və ya «özünü qoruma» instinkti adlandırmaq olar. Bu proses eyni zamanda özgələşmə və ya marginallıq tendensiyasının inkişafına gətirir. Hegemon dövlətlər müasir sivilizasiyaya münasibətdə marginal mövqe tutan və öz mənəvi – mədəni dəyərlərini qorumağa çalışan xırda dövlətləri təcrid etməyə, iqtisadi, mədəni, siyasi «blokadaya» salmağa başlayırlar.

Qloballaşma prosesi son nəticədə məhz milli mədəniyyətləri elit mədəniyyətlər səviyyəsinə qaldıracaq. Milli mədəniyyətlərin ən vacib qoruyucu amilləri aşağıdakılardır: Dil; Milli mərasimlərin qeyd edilməsi. Milli mədəniyyətlərin əsas dağıdıcı amili isə informasiya texnologiyasının genişlənməsidir. Bu baxımdan qloballaşma prosesini həm də informasiya inqilabı dövrü kimi xarakterizə etmək olar.

III. Siyasi, mədəni, iqtisadi amillər bütövlükdə sivilizasiyaların mədəni dəyərlər sistemini təşkil edir. Müasir sivilizasiyada bu dəyərlər yeni məna kəsb edib. Bu yenilik isə şəxsiyyəti mədəni şoka məruz qoyub. Mədəni şok yad və ya əcnəbi mədəniyyətlə qarşılaşmada normal və ya mövcud sosial tərəqqinin dağılması nəticəsində yaranır. Mədəni şok psixoloji gərginliyə səbəb olur. Bu proses üç səviyyədə baş verir: 1)İnkulturasiya; 2) Akkulturasiya; 3) Assimilyasiya.

IV. İmperiya ağalığından xilas olmuş postsovet məkanı ölkələrində qlobal demokratiyaya keçid yerli hüquqi dövlət quruculuğuna, mərkəzləşmiş təsərrüfatdan özəl təsərrüfat formasına keçidlə qarışır. Bu keçid şəraitində həm də dünya mədəniyyətinə inteqrasiya olunma postsovet məkanı ölkələrində dərk edilməmiş çaşqınlıq halı yaradıb. Bunu biz Azərbaycanın nümunəsində də müşahidə edə bilərik. Keçid dövründə cəmiyyətin mənəvi-mədəni həyatına təsir edə biləcək əsas amillərə – ideologiya, təhsil, tərbiyə, din,

ailə – münasibət dəyişib və bir qədər qərbləşməyə məruz qalıb. İnsanın fəaliyyət və təfəkkür azadlığı keçid dövrü şəxsiyyəti tərəfəindən müxtəlif mənalarda qəbul edilir (istədiyim kimi yaşamaq imkanı, seçimdə tam sərbəstlik, cəmiyyətin tələblərinə hörmət edərək qanun çərçivəsində yaşamaq, qanunlarala hesablaşmadan şəxsi maraqlarımı təmin edərək yaşamaq, ailəm qarşısında məsuliyyət). Bu isə cəmiyyətimizdə bir sıra mənfi sosial meyllərin (cinayətkarlıq, küçə həyatı, insan alveri və s.) genişlənməsi ilə müşayət olunur. Müharibə şəraiti yaşayan bir respublikada bunu təbii proses kimi də qəbul etmək olar.

V.Azərbaycanda kütləvi və elit mədəniyyət seçilir. Bu mədəniyyət nümayəndələri həm maddi, həm də mənəvi-intellektual səviyyələrinə görə fərqlənirlər.

# III FƏSİL – DEMOKRATİK CƏMİYYƏTİN FORMALAŞMASINDA KEÇİD DÖVRÜ ŞƏXSİYYƏTİNİN YERİ

## HİPOTEZ

«Keçid dövründə şəxsiyyət problemi» mövzusunun hipotezi bilavasitə Azərbaycan cəmiyyətində şəxsiyyətlə əlaqədar yaranmış problemlərin empirik tədqiqinin əsaslandırılması ilə bağlıdır.

Bu məqsədlə metodologiyada açıqlanan «siyasi», «iqtisadi», «mədəni» anlayışlarına empirik tədqiqatda bilavasitə institutlar kimi yanaşılır.

Keçid dövrünün qarışıqlılları və ziddiyyətləri içərisində şəxsiyyət öz mənini formalaşdırmaqda və cəmiyyətdəki mövqeyini müəyyənləşdirməkdə bu institutların fəaliyyətini necə dərk edir və ya necə qiymətləndirir? O hansı yolu seçir?

Bu gün keçid dövrünə xas olan dəyişikliklər – insan amilinin dəyərsizləşməsi, cəmiyyət və şəxsiyyət arasında getdikcə dərinləşən yadlaşma, mənliyi dərketmə, azad seçim imkan və bacarıqları və s. mənfi və müsbət proseslər gündəlik həyatımızda öz əksini tapır. Bu mərhələdə yaranan mənfi proseslər gündəlik həyatımızda öz əksini tapır. Ənənəvi azərbaycanlı ailəsinin mahiyyətcə dəyişməsi, milli dəyərlərə biganə münasibət tendensiyası müşahidə olunur.

Keçid dövrünün əsas mahiyyəti və nəticəsi sosial islahatların keçirilməsi ilə bağlıdır. Müşahidə etdiyimiz kimi, bu islahatlar nəticəsində cəmiyyətdə sosial gərginlik yaranır, istehsal münasibələrində gərginlik artır. Bunun nəticəsində fərdi xüsusiyyətlərindən asılı olaraq şəxsiyyət öz gələcək mövqeyini müxtəlif səpkidə müəyyən edir. Bəziləri fəal əmək fəaliyyətinə qoşulur və bu zaman bütün vasitələrlə öz şəxsi maraqlarını təmin edərək yaşamaq istəyir. Digərləri yeni yaranmış münasibətlərə uyğunlaşa bilməyərək öz-özünü «təcrid olunmuş» vəziyyətə salır. Bu, özgələşmə prosesinin genişlənməsinə səbəb olur. Özgələşmə prosesinin daha mühüm səbəblərindən biri də təbəqələşmənin dərinləşməsidir. Beləliklə, yeni münasibətləri müxtəlif səviyyələrdə qəbul edən şəxsiyyətin həyat dəyərlərinə münasibəti də müxtəlifdir. Belə ki, bir qism ali əxlaqi dəyərləri üstün tutaraq yaşamaq istəyir, digərləri isə heç nəyə baxmayaraq «sağ qalmağa» can atırlar. Müasir Azərbaycan cəmiyyətində belə həyat tərzi bütün sahələrdə – iqtisadi, siyasi, mənəvi-mədəni – qabarıq şəkildə təzahür edir. Beləliklə, sosial-iqtisadi münasibətlərdəki

çatışmazlıqlar, təbəqələşmənin güclənməsi, işsizlik və s. şəxsiyyətin öz hüquq və azadlıqlarını, yaşadığı tarixi dövrü və ya cəmiyyətdəki münasibətləri dərk etməsinə ziddiyyətli təsir edir.

Hipotezin əsas qayəsini təşkil edən gümanların doğruluğunu yoxlamaq üçün empirik tədqiqat struktur-funksional analiz və şəxsiyyət nəzəriyyələrinə əsaslanır. Çünki məhz cəmiyyətin struktur-funksional əsaslarını təşkil edən institutlarla qarşılıqlı fəaliyyətdə insanlar bu və ya digər peşələrə yiyələnir və müəyyən təbəqələrə aid olurlar.

Şəxsiyyət nəzəriyyəsi əsasında isə müxtəlif sosial qruplara aid olan insanların keçid dövrünə və özlərinin cəmiyyətdəki vəziyyətlərinə fərdi münasibətlərini (dərketmə səviyyəsi, özgələşmə, biganəlik, uyğunlaşma və s.) aydınlaşdırmaq mümkündür. Beləliklə, hipotezin əsas qayəsini təşkil edən gümanlar aşağıdakılardan ibarətdir:

1. Keçid dövrü cəmiyyət-şəxsiyyət, qrup-şəxsiyyət və şəxsiyyət-şəxsiyyət münasibətlərindəki gərginliyi artırır.

2. Keçid dövründə baş verən sosial, iqtisadi, siyasi dəyişikliklər şəxsiyyətin sosial keyfiyyətlərinin bu və ya digər şəkildə formalaşmasına səbəb olur. Yeni yaranan şəxsiyyət tipləri sosial münasibətlərdə müxtəlif fəaliyyət formaları ilə iştirak edirlər.

3. İctimai həyatın siyasi, iqtisadi, mənəvi-mədəni sahələrinə daxil olma imkanları həm də şəxsiyyətin fəaliyyət formalarını müəyyənləşdirir.

4. Keçid dövrü şəxsiyyətinin öz dövrünü dərk etməsi onun təhsili, yaşı, maddi vəziyyəti, əmək fəaliyyəti, maraq dairəsi və s. ilə sıx bağlıdır.

Bu gümanlarımızın həqiqətə uyğun olub-olmadığını və şəxsiyyət tərəfindən necə qəbul edildiyini müəyyənləşdirmək üçün aşağıdakı sosial qruplar üzrə sorğu aparılıb:

1. Sırf elmi tədqiqatla məşğul olanlar arasında (AMEA-nın bəzi institutlarında);
2. Ali təhsillilər, lakin elmlə məşğul olamayanlar arasında (məktəbdə, hər hansı bir özəl müəssisədə və s.);
3. Orta təhsillilər arasında;
4. İşsizlər arasında;
5. Qaçqınlar arasında.

Qeyd edilməlidir ki, sorğu kvotalı (hədli) seçmə üsuluna əsaslanır. Belə ki, təsnif edilən sosial qruplar arasında sorğu aparılarkən, Azərbaycan cəmiyyətində onların statistik göstəricilərindəki fərq nəzərə alınıb. Azərbaycan Respublikası Dövlət Statistika

Komitəsinin təqdim etdiyi məlumatlara əsasən Azərbaycan cəmiyyətində sırf elmi tədqiqatla məşğul olanlar ümumi əhalinin ≈ 6%-ni; ali təhsillilər ≈10%-ni; orta təhsillilər ≈66%-ni; işsizlər ≈6%-ni; qaçqınlar ≈12%-ni təşkil edir. Qeyd olunan statistik fərqi, ayrılıqda hər bir sosial qrupu təşkil edən respondentlərin sayındakı müxtəlifliyə əsasən təmin etməyə çalışmışıq.

## Azərbaycan Respublikasında keçid dövründə mövcud proseslərin öyrənilməsilə bağlı aparılan sosioloji sorğulardan əldə edilmiş nəticələr

Şəxsiyyət probleminin araşdırılmasına yönəldilmiş hər hansı bir sosioloji tədqiqat onu (şəxsiyyəti) daxil olduğu tarixi dövrdən və cəmiyyətdən ayrılıqda öyrənə bilməz. Bu məqsədlə «Keçid dövründə şəxsiyyət problemi» mövzusunun nəzəri tərəfinin empirik müşahidə və məlumatlarla bağlılığını sosioloji sorğular və onun nəticələrinin izahı ilə təsdiq etmək vacibdır.

Struktur-funksional analiz metoduna və A.V.Petrovskinin təklif etdiyi şəxsiyyət nəzəriyyəsinə əsaslandırılmış hipotez müasir dövrdə Azərbaycan cəmiyyətində müşahidə olunan bəzi mənfi və müsbət meyllərin, mövcud qlobal və lokal proseslərin şəxsiyyətin gündəlik həyatındakı təzahürlərini və həmçinin gələcəklə bağlı ümidlərinə və ümumiyyətlə şəxsiyyətin formalaşmasına təsirini əks etdirən bəzi gümanlarımızı əhatə edir. Sorğu bilavasitə şəxsiyyətin yaşadığı dövrə münasibətini və bu dövrü dərketmə səviyyəsini müəyyənləşdirmək məqsədi daşıyırdı.

Sovet sosializmindən informasiyalı cəmiyyətə keçid dövrünün ən qabarıq proseslərindən biri də təbəqələşmədir. Bu prosesi şəxsiyyətin necə qiymətləndirdiyini və ümumiyyətlə keçid dövrü cəmiyyətindəki təbəqələşmə prosesini öyrənmək məqsədilə sorğu blankında «Aid olduğunuz təbəqə» başlığı ilə xüsusi blok qeyd edilmişdir. Sorğu keçirilən zaman əldə olunan ilk müşahidələr və sonradan sorğunun hesablanmasından alınan nəticələrə əsasən belə qənaətə gəlmək olar ki, Azərbaycanda açıq cəmiyyətə keçid mərhələsindəki yeni mahiyyətli təbəqələşmə prosesi davam edir. Təbəqələrin parametrlərini müəyyən etmək üçün insanların fərqli əmlak və yaşayış səviyyəsinin sərhədlərinin dəqiqləşdirilməsi tələb olunur. Sosioloji sorğular zamanı aparılan

müşahidələr göstərdi ki, bir qrup insan öz vəziyyətini düzgün qiymətləndirməkdə və aid olduğu təbəqəni müəyyən etməkdə çətinlik çəkir. Bununla yanaşı qeyd etmək olar ki, sorğu müxtəlif yaş, təhsil, peşə yönümləri üzrə aparılsa da, bu təsnifatdan asılı olmayaraq, öz yaşayış səviyyəsini dərk edən insanlar kasıblıq halında olduqlarını qeyd ediblər. Bu blok əsasında aparılan yekun ümumiləşdirmələr göstərir ki, keçid dövrü cəmiyyətində orta təbəqənin formalaşması, digər təbəqələrlə müqayisədə daha aşağı səviyyədədir.

Sual bloklarında əsasən keçid dövründə qabarmış digər iqtisadi, siyasi, mənəvi-mədəni prosesləri əhatə etməyə cəhd göstərilmişdir. Bu məqsədlə sorğular üç blok üzrə təsnif edilmişdir. Siyasi proseslərlə bağlı olan I BLOKA üç sual, İqtisadi proseslərlə bağlı olan II BLOKA üç sual, Mənəvi-mədəni proseslərlə bağlı olan III BLOKA dörd sual daxil edilmişdir. Anket sorğu-menyu xarakterdə qurulmuşdur. Yəni bütün sualların cavabları düzgün olan cavablar kimi qeyd edilmişdir. Cavablardan əlavə «öz fikriniz» və «bilmirəm» bölmələri də ayrılmışdır. Suallara verilən cavabların düzgün olan cavablar kimi qeyd olunması şəxsiyyətin yaşadığı tarixi dövrü dərketmə səviyyəisini müəyyənləşdirmək məqsədi daşıyırdı. Bununla bağlı belə nəzərdə tutulmuşdur ki, bir neçə cavabı qeyd edənlər bir cavabı qeyd edənlərə nisbətən yaşadığı tarixi dövr haqqında daha geniş informasiyaya malikdirlər və bu dövrü daha yaxşı dərk edirlər. Hipotezdə nəzərdə tutduğumuz prezentativ dairə 300 nəfəri əhatə edir. Yuxarıda qeyd edildiyi kimi sorğu müxtəlif sosial qruplar arasında aparılıb, lakin həmin qruplara daxil olan respondentlər say müxtəlifliyinə görə fərqlənirlər. Sosial qrupların miqyasının belə təşkil olunmasının əsas səbəbi onunla bağlıdır ki, ümumiyyətlə Azərbaycan cəmiyyətində məsələn, elmi tədqiqatla məşğul olanar say etibarı ilə ali təhsillilərə nisbətən daha azdırlar. Bu fikri ali təhsillilər və orta təhsillilər, əmək fəaliyyəti ilə məşğul olanlar və işsizlər və s. arasında olan fərqli statistik göstəricilərə də aid etmək olar.

Onu da qeyd etmək istərdik ki, sorğu 300 nəfər arasında keçirilsə də, müəyyən səbəblərə görə respondentlərdən 284 nəfəri sorğuda iştirak etməyə razı olmuşlar. Anketlərin bir qismi – 4,2% (14 ədəd) cavablandırılmamışdır. Cədvəllərdə qeyd edilən rəqəmlər 100% respondentləri əhatə etməsə də ümumi hesablamanın nəticələrindən alınan faizlər 300 nəfərlik sorğu əsasında müəyyənləşdirilmişdir. Cədvəllərdən göründüyü kimi, sorğunun nəticələri əsasən yaş fərqinə, təhsil səviyyəinə və peşəyə görə təsnif edilmişdir. Respondentlərdən 18-24 yaşlılar – 133 nəfər (39,9%); 25-40 yaşlılar – 94 nəfər (28,2%);

40 yaşdan yuxarı olanlar – 42 nəfər (12,6%) təşkil etmişdir. Onlardan qadınlar – 169 nəfər (50,7%); kişilər – 120 nəfər (36%)-dir. Ali təhsillilər – 181 nəfər (54,3%); orta təhsillilər – 65 nəfər (19,5%); elmi tədqiqatla məşğul olanlar – 42 nəfər (12,6%) olmuşdur. Ailəli olanlar – 117 nəfər (35,1%); subaylar – 172 nəfər (51,7%) idi. Dövlət müəssisəsində işləyənlər – 116 nəfər (34,8%); özəl müəssisədə işləyənlər – 30 nəfər (9%); işləməyənlər – 148 nəfər (44,4%) idi. Özünü varlılar təbəqəsinə aid edənlər – 6 nəfər (1,8%); ortabablar təbəqəsinə aid edənlər – 178 nəfər (53,4%); kasıb təbəqəyə aid edənlər – 110 nəfər (33%) idi.

Sosioloji sorğunun nəticələrini izah edrəkən Böyük ədədlər qanunu və ya Ehtimal nəzəriyyəsinə də əsaslanmağa çalışmışıq.

Anketi əhatə edən suallar ayrı-ayrı prosesləri əks etdirməyə cəhd olduğundan 3 bloka ayrılsa da, əslində hər bir sual özlüyündə geniş izahat tələb edir.

**Blok 1.1 aid olan – «Sizcə Azərbaycanda hansı dövlət idarəçiliyi forması yaranır?» – sualına verilən uyğun cavablar aşağıdakılardır: a) xarizmatik; b) demokratik; c) avtoritar; d) bilmirəm.**

Qeyd olunan cavablar keçid dövrünə uyğun gələn və keçid dövrünün müxtəlif mərhələlərinə aid olan idarəçilik formaları kimi səciyyələndirilib. Mövzunun eyni adlı proseslərin nəzəri təhlili ilə bağlı olan fəslində keçid dövrünə xas olan bu idarəçilik formaları müxtəlif tədqiqatlar əsasında araşdırıldığından bu anlayışların təkrar açıqlanmasına ehtiyac görmürük. Onu da qeyd edək ki, 10 illik tarixi dövrün sosial-siyasi araşdırılmasına cəhd edərkən Sovet imperiyası dağıldıqdan sonra Azərbaycan cəmiyyətində yaranmış və cavab olaraq qeyd edilən idarəçilik formalarının ardıcıl və ya qarışıq şəkildə təzahürlərinin şahidi oluruq. Bəs bu tarixi dövrü yaşayan və demək olar ki, siyasiləşmiş azərbaycanlı cəmiyyəti yaşadığı dövrü necə qiymətləndirir və necə dərk edir? Sualımıza cavab tapmaq üçün Cədvəl 1 və Şkala 1-ə nəzər salaq. Cədvəldən göründüyü kimi, müxtəlif təbəqədlər arasında şəxsiyyətin yaşadığı tarixi dövrə münasibəti təəccüblü şəkildə dəyişilir. Belə ki, həm 18 – 24 yaşlı ali təhsilli, özəl müəssisədə işləyənlər, həm 25 – 40 yaşlı ali təhsilli, özəl müəssisədə işləyənlər, həm də 40 yaşdan yuxarı elmi tədqiqatla məşğul olanlar eyni sayla – 1 (0,3%) Azərbaycanda xarizmatik dövlət idarəçiliyinin yarandığını qeyd edirlər. Eyni zamanda 18–24 yaşlı tələbələr (işləmirlər) ilə eyni yaşlı və orta təhsilli işləməyənlərin (həm də oxumayanların) də fikirləri – 6 (1,8%) üst-üstə

düşür. Həmin cavaba 18–24 yaşlı ali təhsilli, dövlət müəssisəsində işləyənlərdən 2 nəfər (0,6%) cavab veriblər. Qeyd edənlər arasında təsadüfi olaraq eyni cavabı işarə edənlərin olduğunu nəzərə alıb Ehtimal nəzəriyyəsinə uyğun olaraq orta həddi götürsək, 300 nəfərdən təxminən 3 nəfərin (0,9%) bu sualın 1-ci cavabı ilə bağlı eyni fikirdə olduğunu görərik.

Cəmiyyətin çox hissəsi isə demokratik dövlət formasının yarandığına əmindir. Yuxarıda qeyd edilən təbəqələrdə bəzən daha yüksək göstəricilərlə «demokratik» cavabını işarə ediblər. Belə ki, 18–24 yaşlı ali təhsilli, işləməyənlərdən 44 nəfər (13,2%), yəni təxminən 7 dəfə çox adam demokratik quruluşun yarandığına əmindirlər. Belə fərqli cavabı 8 dəfə çox fərq ilə 40 yaşdan yuxarı elmi tədqiqatla məşğul olanlar arasında da görmək olar. 25 –40 yaşlı elmi tədqiqatla məşğul olanlar arasında bu fərq əksinə 3 dəfə azalmaqla təxminən 2,5 sayla çox, yəni 3 nəfərdən (0,9%) – 7nəfərə (2,1%) qədər dəyişir. 25 –40 yaşlı, ali təhsilli özəl müəssisədə işləyənlər arasında bu rəqəm 4 dəfə fərqlə 1 nəfərdən (0,3%) – 4 nəfərə (1,2%) qədər dəyişir. 18 – 24 yaşlı orta təhsilli, işləməyənlərdə isə bu fərq əksinə 3 dəfə azalmaqla 6 nəfərdən (1,8%) – 2 nəfərə (0,6%) qədər dəyişir. Digər təbəqələrdə də demokratik dövlət formasının yarandığını qəbul edənlər böyük sayla qalan digər cavabların qeyd edilməsinə görə də üstünlük təşkil edirlər. Belə ki, 18 – 24 yaşlı ali təhsilli, işləməyənlərin (tələbələr) 18 nəfəri (6%) avtoritar dövlət quruluşunun yarandığına əmindirlər. Onlardan 26 nəfər (7,2%) isə ümumiyyətlə yaşadıqları quruluşu qiymətləndirməkdə çətinlik çəkdikləri üçün «bilmirəm» cavabını qeyd ediblər. Eyni dəyişikliyə 18 – 24 yaşlı orta təhsilli işləməyənlər arasında da rast gəlmək olar. Belə ki, qeyd edilən cavablar bu təbəqədə 2 nəfər (0,6%) və 3 nəfər (0,9%) arası dəyişir. Oxşar fərqli dəyişikliyə 25 – 40 yaşlı elmi tədqiqatla məşğul olanlar - 10 nəfər (3%); 25 – 40 yaşlı ali təhsilli, dövlət müəssisəsində işləyənlər – 1 nəfər (0,3%) rast gəlmək olur. Digər təbəqələrdə isə qeyri-ardıcıl, daha çox fərqli dəyişikliklər müşahidə olunur. Belə ki, 18 – 24 yaşlı orta təhsilli, dövlət və özəl müəssisələrdə işləyənlər, 25 – 40 yaşlı ali təhsilli, özəl müəssisədə işləyənlər və işləməyənlər, həmin yaşlarda orta təhsilli, dövlət və özəl müəssisədə işləyənlər və işləməyənlər, 40 yaşdan yuxarı orta təhsilli, dövlət və özəl müəssisədə işləyənlər öz cavablarında ya «demokratik» dövlət formasının yarandığını, ya da ümumiyyətlə hansı dövlət formasının yarandığını bilmədiklərini qeyd ediblər. Əgər qeyd edilən cavablarda oxşar cəhətləri ümumiləşdirməyə çalışsaq ilk növbədə eyni təhsil

səviyyəsini, daha sonra isə eyni yaş hədlərini seçə bilərik. Bu ənənə tarixin bütün dövrlərində ayrı – ayrı cəmiyyətlərə xas olan ümumi cəhətlərin mövcudluğunu bir daha sübut edir. Belə ki, informasiya bolluğu nəticəsində qloballaşan cəmiyyətdə də şəxsiyyətin öz vəziyyətini və yaşadığı dövrü qiymətləndirməsində dünyagörüşü daha əhəmiyyətli rol oynayır.

Əvvəldə qeyd olunduğu kimi, sualların cavabları əsasən düzgün cavablar kimi qeyd edildiyindən respondentlər tərəfindən bir neçə cavabın işarə edilməsi daha məqsədəuyğun hesab edilir və ən yüksək balla qiymətləndirilir. Blok 1-də Sual 1 üçün bir neçə cavabın işarə edilməsi təbəqələr üzrə aşağıdakı kimidir:

18 – 24 yaşlı ali təhsilli, işləməyənlər – 9 nəfər (2,7%); 18 – 24 yaşlı orta təhsilli, işləməyənlər – 2 nəfər (0,6%); 25 – 40 yaşlı ali təhsilli, dövlət müəssisəsində işləyənlər – 16 nəfər (4,8%); 25 – 40 yaşlı ali təhsilli, işləməyənlər – 1 nəfər (0,3%); 25 – 40 yaşlı orta təhsilli, işləməyənlər – 1 nəfər (0,3%); 40 yaşdan yuxarı elmi tədqiqatla məşğul olanlar – 1nəfər (0,3%); 40 yaşdan yuxarı ali təhsilli, dövlət müəssisəsində işləyənlər – 1 nəfər (0,3%); 40 yaşdan yuxarı orta təhsilli, özəl təhsil müəssisəsində işləyənlər– 1 nəfər (0,3%).

**Cədvəl 1**-dən göründüyü kimi, bir neçə cavabın qeyd edilməsində ən böyük göstərici 25 – 40 yaşlı ali təhsilli, dövlət müəssisəsində işləyənlərə aiddir. Cəmiyyətin demək olar ki, aparıcı qüvvəsi olan bu təbəqəni həm də cəmiyyətin ümumi siması və ya orta həddi kimi də qəbul etmək olar. Çünki müasir dövrdə Azərbaycan cəmiyyətində həm sayına, həm də fəaliyyət genişliyinə görə bu təbəqə üstünlük təşkil edir.

Sual 1.1 əsasında təşkil edilmiş Cədvəl 1-ə uyğun qurulmuş şkalada 300 nəfərlik sorğudan əldə edilmiş nəticələrin təsvirinə baxaq. Belə nəticəyə gəlmək olar ki, cəmiyyətin böyük bir hissəsi – 128 nəfər (38,4%) yaşadığımız keçid dövründə məhz demokratik dövlət formasının yaranmaqda olduğuna əmindirlər. Lakin təəssüf hissi ilə qeyd edə bilərik ki, böyük bir əksəriyyət – 300 nəfərdən 59 nəfər (17,7%) hansı dövlət formasının yarandığını bilmirlər. Bu qeyddə təəssüf doğuran fakt odur ki, məhz «bilmirəm» cavabının işarə edilməsi həmin adamların sabaha inamsızlığının təcəssümü kimi qəbul edilə bilər. Bu isə ürəkaçan tendensiya deyil. Yerdə qalan cavablardan – 63 nəfər (13,8%)– avtoritar; 3 nəfər (6%) – xarizmatik işarə etmişlər. Bir neçə cavabı isə - 32 nəfər (9,6%) qeyd etmişdir. Məhz bu hədd – 32 nəfər (9,6%) keçid dövrü şəxsiyyətinn

siyasi münasibətləri dərk etməsinin orta həddi kimi götürülə bilər. Bu isə belə nəticəyə gəlməyə imkan verir ki, cəmiyyət siyasi cəhətdən lazımi səviyyədə savadlıdır və öz yaşadığı dövlət formasını düzgün qiymətləndirir.

Eyni bloka aid olan və siyasi proseslərin qavranılması səviyyəsini təyin etməyə yönəlmiş **Sual 1.2 aşağıdakı məzmundadır: «Demokratik cəmiyyətin əsas göstəriciləri hansılardır?» a) çoxpartiyalılıq; b) söz və mətbuat azadlığı; c) səsvermə hüququnun olması; d) bilmirəm; e) öz fikriniz.**

**Cədvəl 2** -dən göründüyü kimi, bu sualın cavablandırılmasında respondentlər daha fəal iştirak etmişlər. Əsas göstərici kimi götürdüyümüz – bir neçə cavabı qeyd edənlər – 60 nəfər (18%)-dir.

Sual 1.2-yə verilən cavablar cəmiyyətdə baş verən siyasi proseslərin dərk edilməsində müəyyən təzadların olduğunu üzə çıxarır. Bu ziddiyyətlər isə keçid dövrünə xas təzadlar kimi qiymətləndirilə bilər. Çünki postsovet məkanı ölkələrindəki sosial-siyasi vəziyyətin öyrənilməsilə məşğul olan həm yerli, həm də xarici tədqiqatçılar belə, yekdil fikrə gələ bilmirlər, müxtəlif – bəzən bir-birinə oxşar, bəzən isə hətta zidd olan təhlillərlə çıxış edirlər.

Cədvəl 2-dən görünür ki, cavabların qeyd edilməsində müxtəlif təbəqələr arasındakı fərq bir o qədər də böyük deyil. Sorğu aparılanlar içərisində 18-24 yaşlı ali təhsilli işləməyən gənclər əksəriyyət təşkil etdiyi üçün yüksək göstəricili rəqəmlər sırası da onlara aiddir. Belə ki, sorğu edilənlərin 106 nəfərini (31,2%) təşkil edən bu gənclərin 7 nəfəri (2,1%) Demokratik cəmiyyətin əsas göstəricisi kimi – çoxpartiyalılığı; 52 nəfəri (15,6%) – söz və mətbuat azadlığını; 6 nəfəri (1,2%) – səs vermə hüququnun olmasını; 9 nəfəri (3%) - bilmirəm; 31 nəfəri (9,3%) isə – bir neçə cavabı qeyd etmişlər. Rəqəmlərdə nəzərə çarpan fərqlərin özü də cəmiyyətin təfəkkür tərzində müəyyən qeyri-sabitliyin mövcudluğunu göstərir. Çünki gənclərin siyasi savadsızlığı və savadlılığı arasında nəzərə çarpan fərq 3 dəfədən çoxdur.

Belə fərqlərə 18-24 yaşlı orta təhsilli işləməyənlər arasında da rast gəlirik. Bu təbəqəyə aid olanlardan 1 nəfər (0,3%) - birinci, 4 nəfər (1,2%) - ikinci, 1 nəfər (0,3%) - üçüncü cavabları işarə etmişlər. Bu təbəqəyə aid olanlardan 3 nəfər (0,6%) - bilmirəm və 3 nəfər (0,6%) - bir neçə cavabı qeyd etmişlər. Bu təbəqədə siyasi savadlılıq və siyasi savadsızlıq arasındakı fərq nəzərə çarpacaq dərəcəyə çatmır.

25-40 yaşlı elmi tədqiqatla məşğul olanlar isə eyni cavabları aşağıdakı kimi qiymətləndirmişlər: 1 nəfər (0,3%) - birinci; 70 nəfər (21%) - ikinci; 1 nəfər (0,3%) - üçüncü bəndləri; 2 nəfər (0,6%) - bilmirəm; 10 nəfər (3%) - bir neçə cavabı qeyd etmişlər. Bu cavablar arasında 5 dəfəyə qədər olan fərq yuxarıda qeyd edilən eyni təzadlı vəziyyətin mövcudluğunu sübut edir. Belə nəticəyə gəlmək olar ki, keçid dövrü həqiqətən də qarışıq ideologiya və fikirlərin hakim olduğu bir dövrdür. Eyni zamanda bu təbəqədə «bilmirəm» cavabının qeyd edilməsi bir qədər təəccüb doğurur. Belə ki, 18-24 yaşlı orta təhsilli işləməyənlərlə 25-40 yaşlı elmi tədqiqatla məşğul olanlar arasında «bilmirəm» cavabının qeyd edilməsi eyni faizlə – 3 nəfər (0,6%) nəticələnib. Belə güman etmək olar ki, elmi tədqiqatla məşğul olanların bir qismi ancaq öz ixtisas dairəsi çərçivəsində biliklərə malikdir və informasiya axını insanların bilik dairəsinin genişlənməsinə nəzərə çarpan təsir göstərir.

Ali təhsilli 25-40 yaşlı dövlət müəssisəsində işləyənlərdən 4 nəfər (1,2%) - birinci; 12 nəfər (3,6%) - ikinci; 3 nəfər (0,6%) - üçüncü bəndləri; 3 nəfər (0,9%) - bilmirəm; 7 nəfər (2,1%) isə bir neçə cavabı qeyd etmişlər. Son cavabların qiymətləndirilməsi arasındakı fərq əvvəlki təbəqələrdə olduğu kimi nəzərə çarpan – 2,5 dəfədir.

Eyni fərqli qiymətlərə 25-40 yaşlı ali təhsilli, özəl müəssisədə işləyənlər arasında da rast gəlmək olar. Belə ki, bu təbəqəyə aid olanlardan 2 nəfər (0,6%) - birinci; 1 nəfər (0,3%) - ikinci; 1 nəfər (0,3%) - üçüncü bəndləri; 2 nəfər (0,6%) - bilmirəm; 2 nəfər (0,6%) isə bir neçə cavabı qeyd etmişlər.

40 yaşdan yuxarı elmi tədqiqatla məşğul olanlardan isə 2 nəfər (0,6%) - birinci; 6 nəfər (1,8%) - ikinci; 1 nəfər (0,3%) - üçüncü bəndləri; 1 nəfər (0,6%) - bilmirəm; 7 nəfər (2,1%) isə – bir neçə cavabı işarə etmişlər. Son bəndlərin qeyd edilməsi arasındakı fərq 3,5 dəfəyə qədərdir.

40 yaşdan yuxarı ali təhsilli, dövlət müəssisəsində işləyənlərdən 5 nəfər (1,5%) - birinci; 8 nəfər (2,4%) - ikinci; 6 nəfər (1,2%) - üçüncü bəndləri; 3 nəfər (0,9%) isə – bir neçə cavabı qeyd etmişlər. Alınan rəqəmlər belə nəticəyə gəlməyə əsas verir ki, bu təbəqəyə aid olanlar siyasi proseslərlə daha çox maraqlanır və daha çox siyasi savadlıdırlar.

Digər xüsusi qeyd etmədiyimiz lakin cədvəldə cavablandırma səviyyələri qeyd olunmuş təbəqələrdə bir qədər pərakəndəlik nəzərə çarpır. Bu nizamsızlıq müəyyən bir

fikir söyləməyə çətinlik yaradır. Ümumilikdə bütün təbəqələrə aid olan təzadlı düşüncə tərzini qeyd olunmayan təbəqələrə də aid etmək olar. Belə nəticəyə gəlmək olar ki, müasir cəmiyyətdə siyasi şüurun formalaşmasında elmi savadlılıq səviyyəsindən çox informasiya bolluğu əsas rol oynayır. Qeyd edilən rəqəmlər arasında müqayisə apararaq belə nəticəyə gəlmək olar ki, əslində siyasi proseslərin dərk edilməsində təbəqələr arasındakı fərq bir o qədər də böyük deyil. Doğrudur ki, məsələn, elmi tədqiqatla məşğul olanlar «çoxpartiyalılıq» anlayışını olduğu kimi bütün tərəflərilə bildikləri üçün qeyd edirlər. Orta təhsilli işləməyənlər isə yaşadığımız keçid dövrü mərhələsində siyasi proseslərin aparıcı qüvvəsinə çevrilmiş partiyaların nəzərə çarpan fəaliyyətləri haqqında müəyyən gündəlik təcrübəyə əsaslanan məlumatlara malikdirlər və öz mövqelərini məhz bu nöqteyi nəzərdən ifadə edirlər.

Sual 1.2 əsasında hazırlanmış cədvəlin şkalasına nəzər salaq. Burada ümumi göstəricilər aşağıdakı kimidir: burada ən yüksək faizlə – 123 nəfər (36,6%) söz və mətbuat azadlığını demokratik cəmiyyətin ən yüksək göstəricisi kimi qeyd edib. Bir neçə cavabı – 6 nəfər (1,8%); bilmirəm cavabını – 26 nəfər (7,8%) işarə edib. Beləliklə, cavabları qeyd edənlərin sayı arasında müqayisə apararaq belə nəticəyə gələ bilərik ki, dərketmə səviyyəsilə siyasi savadsızlıq arasındakı fərq 2,5 dəfədir. Bu isə ümumilikdə siyasi savadlılığın yüksək olduğunu göstərir. Cədvəl 2-də 13 nəfər (4,5%) öz əlavə fikirlərini qeyd edənlərdir. Bu fikirlər arasında əlaqəsiz cavablarla yanaşı, əksəriyyətin fikrinin ifadəsi olan eyni cavablar da işarə olunub. Xüsusilə «qanunların aliliyi və lazımi səviyyədə tətbiqi» fikri də demokratik cəmiyyətin əsas göstəricilərindən biri kimi qəbul edilir.

Siyasi proseslərlə bağlı olan **Sual 1.3 – «İnsanın fəaliyyət və təfəkkür azadlığını necə qəbul edirsiniz?» a) istədiyim kimi yaşamaq imkanı; b) seçimdə tam sərbəstlik; c) cəmiyyətin tələblərinə hörmət edərək qanun çərçivəsində yaşamaq; ç) qanunlarla hesablaşmadan şəxsi maraqlarımı təmin edərək yaşamaq; d) ailəm qarşısında məsuliyyət; e) bilmirəm; ə) öz fikriniz.**

Bu sualı bilavasitə insanların siyasi azadlığı ilə də əlaqələndirmək olar. Bu cavablarla bağlı tərtib olunmuş **Cədvəl 3**-dəki göstəricilər də böyük maraq doğurur. Belə ki, 18-24 yaşlı ali təhsilli işləməyən gənclərin cavabları aşağıdakı kimidir: a) – 11 nəfər (3,3%); b) – 27 nəfər (7,8%); c) – 44 nəfər (13,2%); ç) –3 nəfər (0,9%); d) – 2 nəfər (0,6%).

Hesablanan faizlərdən göründüyü kimi, gənclərin böyük bir qismi – 44 nəfəri (13,2%) məhz cəmiyyətin tələblərinə uyğun qanunlar çərçivəsində yaşamağa üstünlük verirlər. Lakin təəssüflə qeyd etmək lazımdır ki, müasir Azərbaycan cəmiyyətinin gələcək qurucuları və aparıcı qüvvəsi olacaq bu gənclərin müəyyən hissəsi – 3 nəfər (0,6%) də qanunlarla hesablaşmadan şəxsi maraqlarını təmin edərək yaşamaqdan çəkinmirlər. Onu da qeyd etmək lazımdır ki, Qərb həyat tərzinin güclü təsiri gənclərdə ailə qarşısındakı məsuliyyəti zəiflədib. Həm də subay adamlarla evli adamların ailə qarşısındakı məsuliyyətə münasibətləri də fərqli xarakter daşıyır.

Bütün cavabları qeyd edənlər içərisində orta təhsilli 18-25 yaşlı işsizlərin cavabları da böyük maraq doğurur. Belə ki, a) – 1 nəfər (0,3%); b) – 3 nəfər (0,9%); c) – 3 nəfər (0,9%); d) – 2 nəfər (0,6%); e) – 2 nəfər (0,6%)-dır. Göründüyü kimi bu təbəqədə cəmiyyətin tələblərinə hörmət edərək qanun çərçivəsində yaşamaq və ailə qarşısında məsuliyyət böyük əhəmiyyət kəsb edir.

25-40 yaşlı orta təhsilli, özəl müəssisədə işləyənlərdə isə bu rəqəmlər aşağıdakı ardıcıllıqla dəyişir: a) – 4 nəfər (1,2%; b) – 2 nəfər (0,6%); c) – 1 nəfər (0,3%); ç) – 1 nəfər (0,3%); d) –10 nəfər (3%). Görünür ki, oxşar tendensiya bu təbəqədə də müşahidə olunur. Ziddiyyətli cəhət odur ki, bu təbəqədə «ailəm qarşısında məsuliyyət» cavabı ən böyük faizlə – 10 nəfər (3%) qeyd olunub. Bu, xüsusilə həmin təbəqəyə aid olan ailəli qadınların fikrini əks etdirir. Lakin məhz həmin təbəqədə də «qanunlarla hesablaşmadan şəxsi maraqlarımı təmin edərək yaşamaq imkanı» cavabı da nəzərə çarpan göstəriciyə malikdir.

Bu sualla bağlı tərtib etdiyimiz Cədvəl 3-ə nəzər salsaq, ümumi mənzərənin nə qədər təzadlı olduğunu görə bilərik. Burada «cəmiyyətin tələblərinə hörmət edərək yaşamaq» cavabını 85 nəfər (25,5%) qeyd edib. Eyni zamanda «istədiyim kimi yaşamaq imkanı» cavabını - 43 nəfər (12,9%); «seçimdə tam sərbəstlik» - 40 nəfər (12%) göstərib. Ayrı-ayrı təbəqələrdə müəyyən faizlə qeyd edilən ç bəndində ümumi hesab – 28 nəfər (8,4%)-dir. Bu suala da bir neçə cavabı işarə edənlər nəzərə çarpan göstəriciyə 43 nəfərə (13,2%) malikdir.

Bildiyimiz kimi insanlar bilavasitə KİV - ilə siyasi prosesləri izləyir və öz imkanları və maraqları çərçivəsində müəyyən məlumatlara yiyələnə və siyasi prosesləri dərk edə bilirlər. Qeyd edilənləri nəzərə alaraq deyə bilərik ki, siyasi proseslərlə bağlı olan birinci

blokun suallarına verilən cavablar informasiya bolluğu olan cəmiyyətdə insanların geniş siyasi məlumatlara malik olduğunu göstərir.

Yuxarıda qeyd edildiyi kimi, sorğunun ikinci blokundakı suallar iqtisadi proseslərlə bağlıdır və burada da bir neçə cavabın işarə olunması yüksək göstərici kimi qəbul edilir. İkinci blokda da üç sual ayrılıb.

**Sual 2.1 – Bazar iqtisadiyyatının inkişafına təsir edən amillər hansılardır?**

**a) istehsalın genişlənməsi; b) daxili bazarın inkişafı; s) dünya bazarına inteqrasiya; ç) kiçik biznesin inkişafı; d) idxalın genişlənməsi; e) öz fikriniz**

**Cədvəl 4**-dəki göstəricilər əsasında təbəqələr arasında sualların cavablandırma səviyyəsinə nəzər salaq. Respondentlərin böyük bir hissəsini təşkil edən 18-25 yaşlı ali təhsilli işləməyənlərin (tələbələr) 19 nəfəri (5,7%) – istehsalın genişlənməsini; 20 nəfəri (6%) - daxili bazarın inkişafını; 23 nəfəri (6,9%) – dünya bazarına inteqrasiyanı, 8 nəfəri (2,4%) - kiçik biznesin inkişafını; 6 nəfəri (1,2%) - idxalın genişlənməsini; 3 nəfəri (0,9%) - ixracın genişlənməsini əsas götürürlər. Rəqəmlərdən göründüyü kimi ilk 3 cavab daha böyük göstəricilərlə qeyd edilib. Belə nəticə çıxarmaq olar ki, gənclər ölkənin daxili iqtisadiyyatının irəliləyişinə üstünlük verirlər. Onların bir qismi sərbəst ticarətin genişləndirilməsi tərəfdarıdırlar. Bu isə mövcud iqtisadi durumda demək olar ki, yeganə nicat yoludur. Daxili iqtisadiyyatın inkişafı bir sıra sosial tələblərin ödənilməsinə yol aça bilər. Respondentlərdən – 3 nəfər (0,9%) - bilmirəm; 21 nəfər (6,3%) isə bir neçə cavabı işarə ediblər. Bu rəqmlər gənclərin iqtisadi proseslərə fəal münasibətini əks etdirir. Bütün cavabların qeyd edilməsində iştirak edən təbəqələrdən biri də 18-24 yaşlı orta təhsilli işləməyən gənclərdir. Bu gənclər verilən sualı aşağıdakı kimi cavablandırıblar: 1 nəfər (0,3%) - birinci; 4 nəfər (1,2%) - ikinci; 3 nəfər (0,6%) - üçüncü; 1 nəfər (0,3%) - dördüncü; 1 nəfər (0,3%) - beşinci cavabları işarə ediblər. Göründüyü kimi, bu təbəqədə daxili bazarın inkişafı böyük bir üstünlüklə qeyd edilib. Gənclər arasında da son üç cavab zəif göstərilib. Bu tendensiya həm də iqtisadi proseslərin bir tərəfli dərkini əks etdirir. Lakin burada da bir neçə cavab – 4 nəfər (1,2%) tərəfindən işarə edilib. Bu rəqəmlər təhsil səviyyəsindən asılı olmayaraq gənclərin dünyagörüşündə oxşar tərəflərin çox olduğuna işarədir. Cədvəl 4-ə nəzər saldıqda 25-40 yaşlı ali təhsilli, özəl müəssisədə işləyənlər və həmin yaşda orta təhsilli, özəl müəssisədə işləyənlərin fikirlərində oxşar tendensiyanı müşahidə etmək mümkündür. Belə ki, bu təbəqələr iqtisadiyyatın inkişafına təsir edən

amillər sırasında daxili bazarın inkişafı və dünya bazarına inteqrasiyaya üstünlük verirlər. Bu təbəqələrdə bir neçə cavabın aşağı rəqəmlərlə qeyd edilməsi onların iqtisadi proseslərə zəif maraqlarının əksi kimi qiymətləndirilə bilər. Müqayisə kimi göstərə bilərik ki, eyni yaşlı ali təhsilli dövlət müəssisəsində işləyənlər arasında bir neçə cavabın qeyd edilməsi 7 nəfərə (2,1%) aiddir. Lakin burada təzadlı cavabların işarə edilməsinə də rast gəlmək olur. Belə ki, 0,5% - bilmirəm cavabını qeyd ediblər. Bütün bu deyilənlər belə bir nəticəyə gətirir ki, insanlar öz maraq dairələri çərçivəsində, həm də onlara toxunan hadisələr haqqında müəyyən məlumata malikdirlər. Qarşılaşmadıqları hadisələrə isə demək olar ki, biganədirlər.

Əgər iqtisadi proseslərin dərkedilmə səviyyəsinin göstəricisi olan bir neçə cavabın qeyd edildiyi bölməyə baxsaq, burada ən yüksək faizin elmi tədqiqatla məşğul olanlara məxsus olduğunu görərik. 25-40 yaşlı elmi tədqiqatla məşğul olanlardan – 12 nəfər (3,6%); 40 yaşdan yuxarı elmi tədqiqatla məşğul olanlardan isə 11 nəfər (3,3%) bu bölməni qeyd etmişlər.

İqtisadi prosesləri əks etdirən cavabların ümumi qiymətləndirilməsində də ən yüksək göstəricilər ilk üç cavaba aiddir. Belə ki, a) İstehsalın genişlənməsi – 57 nəfər (17,1%); b) daxili bazarın inkişafı – 52 nəfər (15,6%); c) dünya bazarına inteqrasiya – 52 nəfər (15,6%); ç) bir neçə cavabın qeyd edilməsi – 72 nəfər (21,6%) tərəfindən qeyd edilib. Bu isə ümumilikdə şəxsiyyətin iqtisadi proseslərdə fəal iştirakının göstəricisidir.

Bildiyimiz kimi, keçid dövrünün xarakterik xüsusiyyətlərindən biri cəmiyyətin müxtəlif institutlarını, xüsusilə də iqtisadiyyatı əhatə edən islahatlardır. Buna görə də bu dövrdə islahatların keçirilməsi böyük bir proses kimi qəbul edilə bilər. Bəs bu proses şəxsiyyət tərəfindən necə dərk edilir və şəxsiyyət bu proseslərə necə münasibətdədir? Bu suala cavab vermək üçün **Sual 2.2 əsasında hazırlanmış Cədvəl 5-ə nəzər salaq.**

**İqtisadi proseslərlə bağlı olan Sual 2.2 – İqtisadi islahatlar iqtisadi sabitliyə necə təsir göstərir? a) sosial gərginliyi artırır; b) istehsal münasibətlərindəki gərginliyi artırır; c) şəxsiyyəti aktiv əmək fəaliyyətinə cəlb edir; ç) şəxsiyyətin çaşqınlığına səbəb olur; d) öz fikriniz**

Bu cavablar müxtəlif təbəqələr arasında aşağıdakı kimi qiymətləndirilmişdir: 18-25 yaşlı ali təhsilli işləməyən gənclərdən (tələbələr) 11 nəfər (3,3%) - sosial gərginliyin artdığına; 14 nəfər (4,2%) - istehsal münasibətlərindəki gərginliyin artdığına əmindirlər.

31 nəfər (9,3%) - bu proseslərin şəxsiyyəti aktiv əmək fəaliyyətinə cəlb etdiyini; 10 nəfər (3%) - şəxsiyyətin çaşqınlığına səbəb olduğunu qeyd etmişlər. 7 nəfər (2,1%) – bir neçə cavabı işarə etmişlər. Suallar tərtib edilərkən verilən cavabların hər birinin islahatların doğurduğu hadisələri əks etdirməsi nəzərdə tutulmuşdu. Cavablara ümumi nəzər saldıqda yenə də belə nəticəyə gəlirik ki, respondentlər islahatlar prosesində bilavasitə onlara toxunan və ya şəxsən iştirakçısı olduqları hadisələri işarə etmişlər.

Bu prosesləri 25-40 yaşlı elmi tədqiqatla məşğul olanlardan – 7 nəfər (2,1%); həmin yaşda ali təhsilli dövlət müəssisəsində işləyənlərdən – 10 nəfər (3%); 40 yaşdan yuxarı elmi tədqiqatla məşğul olanlardan isə 6 nəfər (1,2%) qeyd etmişlər. Birinci təbəqəyə daxil olanlardan 5 nəfər (1,5%) islahatların şəxsiyyətin çaşqınlığına səbəb olduğuna əmindirlər. Həmin cavaba 25-40 yaşlı orta təhsilli, özəl müəssisədə işləyənlər də yüksək faizlə – 8 nəfər (2,4%) cavab vermişlər. Həqiqətən də 25-40 yaşlı şəxslər arasında çaşqınlıq halı kütləvi xarakter alıb. Bu isə qorxulu bir tendensiyadan xəbər verir. Bu çaşqınlıq bəzilərində aqressiv şəkil alaraq oğurluq, adam öldürmə, kölgəli ticarətlə bağlanmaq, korrupsiya və s. kimi fəaliyyət formaları kimi təzahür edir. Digərlərində isə passiv çaşqınlıq – özünə qəsd, narkomaniya və sərxoşluğa qurşanma və s. hallarla nəzərə çarpır. Bu isə cəmiyyətin özəyi olan ailələrin dağılmasına, şəxsiyyətin bir tərəfli formalaşmasına, milli-mənəvi dəyərlərin itirilməsinə və s. səbəb olur.

Yuxarıda qeyd edilən ikinci təbəqəyə aid olanlardan isə 11 nəfər (3,3%) istehsal münasibətlərindəki gərginliyi qeyd etmişlər. Qeyd edilən cavabın yüksək göstəricilərlə qiymətləndirilməsinə səbəb isə dövlət müəssisələrindəki ixtisara salınma və əmək haqqının yaşayışı təmin edəcək səviyyədə olmamasıdır. Həmin təbəqəyə daxil olanlar 7 nəfər (2,1%) əmindir ki, bu proseslər şəxsiyyəti aktiv əmək fəaliyyətinə cəlb edir. Belə qəbul etmək olar ki, yaşadığımız keçid dövrü cəmiyyəti insanlarının müəyyən hissəsi mövcud vəziyyətə uyğunlaşaraq çıxış yolu tapmağa cəhd edirlər. Bu fikrin təsdiqi kimi müxtəlif şəxslərin 2 və hətta 3 iş yerinin olmasını göstərə bilərik.

Bu tendensiyalar ümumi baxışda hansı nəticələri əks etdirib? : a) – 38 nəfər (11,4%); b) – 53 nəfər (15,6%); c) – 61 nəfər (18,3%); ç) – 34 nəfər (10,2%) qeyd edilib. Göründüyü kimi ən yüksək göstərici – şəxsiyyətin aktiv əmək fəaliyyətinə cəlb olunması ilə bağlıdır. Bu göstərici sübuta ehtiyacı olmayan bir fikri xatırladır: «hər şey axır, hər şey dəyişir» və «həyat davam edir». Deməli, cəmiyyət artıq keçid dövrünün tələblərinə

uyğunlaşaraq öz həyatını tarazlamağa cəhd edir. Eyni zamanda istehsal münasibətlərində iqtisadi gərginliyin artdığını – 53 nəfər (15,6%) və sosial gərginliyin artdığını – 38 nəfərin (11,4%) qeyd etməsi şəxsiyyətin öz həyatından narazılıq səviyyəsi kimi qiymətləndirilə bilər.

Lakin böyük təəssüflə şəxsiyyətin çaşqınlığının yüksək göstəricilərlə – 34 nəfər (10,2%) qeyd olunmasını yuxarıda sadalanan və sadalanmayan nəticələrə gətirə biləcək qorxulu tendensiya kimi qəbul edə bilərik.

Bəs ümumilikdə şəxsiyyət bu prosesləri ən azı bir müşahidəçi kimi qavraya bilirmi? Bu suala cavab olaraq – 33 nəfərin (9,9%) bir neçə cavabı qeyd etdiyini göstərə bilərik. Deməli, cəmiyyətimizin iqtisadi proseslərdə iştirakı, bu proseslərə münasibəti və bu prosesləri qavraması kafi səviyyədədir.

İqtisadi proseslərlə bağlı olan **Sual 2.3 aşağıdakı kimidir: - Hansıları bazar iqtisadiyyatının xarakterik xüsusiyyətləri hesab etmək olar?**

**a) Özəlləşdirmə; b) ilkin kapital axını; c) investisiya qoyuluşu; ç) maliyyə böhranları; d) işsizlik; e) bilmirəm**

Bu sualın cavabları təbəqələr arasında necə qiymətləndirilib. **Cədvəl 6-**da dəyişən rəqəmlərə nəzər salaq.

18-24 yaşlı ali təhsilli işləməyənlər (tələbələr) – 31 nəfər (6,3%) bu suala özəlləşdirmə cavabını qeyd ediblər. Heç də təəccüblü deyil ki, əsasında ümumi mülkiyyət duran bir quruluşdan əsasını xüsusi mülkiyyət təşkil edən yeni quruluşa keçid dövründə özəlləşdirmə iqtisadi islahatların ən nəzərə çarpan tərəfi kimi təzahür edir və hər kəsə bu və ya digər dərəcədə mənfi və ya müsbət təsir göstərir. Keçid dövrünün ilk böyük və mənfi təzahürü işsizlikdir. Bu dövrdə işsizlik əsl prosesə çevrilir. Bu proses daha çox gəncləri əhatə edir. Məhz bu tendensiyanın nəticəsi olaraq Cədvəl 6-da işsizlik bölməsini 19 nəfər (5,7%) qeyd edib. İşsizlik insanların, xüsusilə də gənclərin həyata münasibətini dəyişir, onların gələcəyə inamsızlığını artırır. Sorğu aparılan zaman bu inamsızlıq çox qabarıq şəkildə nəzərə çarpırdı. Gələcəyə inamsızlıq, işsizlik, asudə vaxtın çoxluğu və səmərəli istifadəsinin qeyri-mümkünlüyü qorxulu meyllərin əsasını təşkil edir.

Yeni mülkiyyət formasının əmələ gəldiyi bir dövrdə insanların müəyyən bir hissəsi imkanlara uyğun gəlməyən kapital toplayır, digərləri isə müflisləşirlər. Böyük miqdarda kapital toplanmasının əsasında da özəlləşdirmə durur. Xüsusi mülkiyyətə çevrilmiş

təsərrüfat sahələri məhz ilkin kapitalın hesabına böyüyür. Bu proses orta sinfin formalaşmasına şərait yaradır və daxili bazarın inkişafına təsir göstərir. Özəlləşdirmə prosesinə məhz mülkiyyətçi kimi qoşularaq müflisləşənlər ilkin kapitaldan məhrum olanlardırlar. İqtisadi inkişafda ilkin kapitalın rolunu düzgün qiymətləndirən gənclərdən 14 nəfər (4,2%) bu sualı işarə etmişlər. Yuxarıda qeyd edilən cavabların daha fəal işarə edilməsi bu proseslərin bilavasitə kütləyə aidiyyəti ilə bağlıdır. Keçid dövrünün mahiyyəti ilə bağlı olan maliyyə böhranları və investisiya qoyuluşu xüsusilə də bizim cəmiyyətdə dövlətlə əlaqədar olduğuna və dövlətdən keçərək şəxsiyyətə toxunduğuna görə daha az fəallıqla işarə edilib.

Ümumilikdə iqtisadi proseslərin gənclər tərəfindən dərk edilməsi nə səviyyədədir? Respondentlərin 100 nəfərini (30%) təşkil edən gənclərdən ancaq 11 nəfər (3,3%) bir neçə cavabı qeyd etmişlər. Bu isə sorğu edilənlərin 1/10 hissəsi deməkdir və olduqca kiçik göstəricidir. Deməli, gənclər iqtisadi prosesləri lazımi səviyyədə dərk etməyiblər. Əslində bu meyl bütün təbəqələr arasında müşahidə edilməkdədir. Belə ki, 25-40 yaşlı elmi tədqiqatla məşğul olanlardan 3 nəfər (0,9%) birinci cavabı; 4 nəfər (1,2%) dördüncü cavabı işarə etmişlər. Bir neçə cavabı isə 9 nəfər (2,7%) cavablandırmışdır. Bu isə yuxarıda qeyd edilən oxşar meyllərin təzahürüdür. Bu təbəqəyə aid olanların bir qismi iqtisadi proseslərin müxtəlif ölkələrdə müxtəlif təzahür formalarının olduğunu qeyd edərək, heç bir sualı cavablandırmayıblar.

25-40 yaşlı ali təhsilli, dövlət müəssisəsində işləyənlərin də əksəriyyəti – 10 nəfər (3%) özəlləşdirməni bazar iqtisadiyyatının daha xarakterik xüsusiyyəti hesab edirlər. Onlardan 5 nəfər (1,5%) bir neçə cavabı; 3 nəfər (0,9%) isə bilmirəm cavabını qeyd ediblər. 40 yaşdan yuxarı elmi tədqiqatla məşğul olanlardan 3 nəfər (0,9%) işsizliyin; 3 nəfər də (0,9%) bir neçə cavabın qeyd edilməsində iştirak etmişlər.

40 yaşdan yuxarı ali təhsillilərdən – 9 nəfər (2,7%) özəlləşdirməni və 8 nəfər (2,4%) – işsizliyi qeyd ediblər. Bu meyl 40 yaşdan yuxarı orta təhsillilər arasında da nəzərə çarpır. Belə ki, onlardan özəlləşdirməni – 5 nəfər (1,5%); işsizliyi – 3 nəfər (0,9%) işarə ediblər. Bir neçə cavab isə 1 nəfər (0,3%) tərəfindən qiymətləndirilmişdir.

İqtisadi proseslərin şəxsiyyət tərəfindən qavranılmasının ümumi nəticələrində eyni fərqləri görmək olar. Ümumi nəticə Cədvəl 6 əsasında tərtib edilmiş şkalada daha aydın

nəzərə çarpır. İqtisadi proseslərin ən xarakterik xüsusiyyəti kimi özəlləşdirmə və işsizlik qiymətləndirilib. Ümumi dərketmə səviyyəsi isə orta həddədir.

Anket sorğusunun sonuncu – üçüncü bloku mənəvi-mədəni proseslərlə bağlı olub 4 sualı əhatə edir.

**Sual 3.1 – Keçid dövründə cəmiyyətin mənəvi-mədəni həyatına təsir edən amillərdən hansını daha vacib hesab edirsiniz?**

**a) ideologiya; b) təhsil; s) tərbiyə; ç) din; d) ailə; e) bilmirəm; ə) öz fikriniz**

**Cədvəl 7**-yə nəzər salsaq, görərik ki, sual müxtəlif təbəqələr arasında aşağıdakı kimi cavablandırılmışdır: 18-24 yaşlı ali təhsilli işləməyən gənclərin (tələbəlirin) böyük bir qismi – 25 nəfər (7,5%) təhsili aparıcı amil hesab edirlər. Bu sevindirici haldır. Çünki həqiqətən təhsilli şəxsiyyət cəmiyyətdə öz mövqeyini müəyyənləşdirə bilər.

Uzun bir dövr ərzində müxtəlif ideologiyalar dünyanı iki hissəyə – kapitalizm və kommunizm cəbhələrinə bölmüşdülər və bu həmin regionların əhalisinin dünyagörüşündə ciddi fərqlərin əmələ gəlməsinə səbəb olmuşdu. Alınmış hesablamadan belə nəticəyə gəlmək olar ki, müasir gənclər cəmiyyətin idarə edilməsində ideologiyanın rolunu düzgün qiymətləndirə bilirlər.

11 nəfər (3,3%) tərbiyə və 8 nəfər (2,4%) ailənin rolunu yüksək qiymətləndirmişlər. Ümumilikdə mənəvi-mədəni proseslərin dərkedilmə səviyyəsinin göstəricisi kimi götürülən bir neçə cavabı gənclərdən – 29 nəfər (8,7%) işarə etmişdir. Bu isə sorğuda iştirak etmiş gənclərin 29%-ni təşkil edir. Digər cavablardan fərqli olaraq bir neçə cavabın qeyd edilməsi 18-24 yaşlı orta təhsilli gənclər arasında da üstünlük təşkil edir – 8 nəfər (2,4%).

Digər təbəqələrdə isə təhsil xüsusilə ön plana çəkilir. 25-40 yaşlı elmi tədqiqatla məşğul olanlardan 5 nəfər (1,5%); eyni yaşda orta təhsilli özəl müəssisədə işləyənlərdən 6 nəfər (1,8%); 40 yaşdan yuxarı ali təhsilli dövlət müəssisəsində işləyənlərdən 9 nəfər (2,7%) əmindir ki, məhz təhsil səviyyəsi mənəvi-mədəni həyatın formalaşmasına təsir edən ilk amildir. Eyni zamanda 25-40 yaşlı orta təhsilli, özəl müəssisədə işləyənlərdən 8 nəfər (2,4%) ailəni; 40 yaşdan yuxarı elmi tədqiqatla məşğul olanlarıdan isə 7 nəfər (2,1%) tərbiyəni əsas təsiredici vasitə hesab edir.

Ümumi götürüldükdə bu proseslərin dərk olunması səviyyəsi də digər siyasi və iqtisadi proseslərin dərk edilməsilə müqayisədə üstünlük təşkil edir. Belə ki, bu baxımdan

əsas götürülən bir neçə cavabın qeyd edilməsində 25-40 yaşlı elmi tədqiqatla məşğul olanlardan 13 nəfər (3,9%); eyni yaşda ali təhsilli, dövlət müəssisəsində işləyənlərdən 9 nəfər (2,7%); 40 yaşdan yuxarı ali təhsilli, dövlət müəssisəsində işləyənlərdən 5 nəfər (1,5%); eyni yaşda orta təhsilli, dövlət müəssisəsində işləyənlərdən 5 nəfər (1,5%) iştirak etmişlər.

Cədvəldən göründüyü kimi, təbəqələr arasında bir neçə cavabın qeyd edilməsi 93 nəfəri (27,3%) əhatə edir. Bu isə şəxsiyyət və onun daxil olduğu cəmiyyət haqqında çox böyük təəssürat yaradır. Deməli, şəxsiyyət onu əhatə edən mənəvi-mədəni vəziyyəti düzgün qiymətləndirə bilir.

Cədvəldən göründüyü kimi, təhsil 68 nəfər (20,4%); ideologiya 27 nəfər (8,1%); ailə 16 nəfər (7,8%) tərəfindən əsas təsiredici amil kimi işarə olunub. Bunu insanların cəmiyyətə və özlərinə olan birbaşa münasibəti kimi qəbul etmək olar.

Təhsili ən yüksək göstərici ilə qeyd edən respondentlərin keçid dövründə təhsilin vəziyyətinə münasibəti necədir? Bunu öyrənmək məqsədilə sorğu vərəqində **Sual 3.2 – Təhsilə maraq sizi qane edirmi? – ayrılmışdır.**

**a) keyfiyyət artıb; b) keyfiyyət azalıb; s) qənaətbəxşdir; ç) təhsil müəssisələrində tələbkarlıq güclənib; d) özəl iş yerlərində tələbkarlıq güclənib; e) öz fikriniz**

**Cədvəl 8**-ə əsasən deyə bilərik ki, respondentlərin əksəriyyətini təşkil edən 18-24 yaşlı ali təhsilli gənclərin böyük əksəriyyəti – 39 nəfər (11,7%) təhsilin keyfiyyətinin azaldığına əmindirlər. 30 nəfər (9%) - təhsilə marağın qənaətbəxş olduğunu; 11 nəfər (3,3%) isə təhsildə keyfiyyət artımının olduğunu qeyd etmişlər.

Gündəlik müşahidələrimiz göstərir ki, müasir dövrdə təhsilin keyfiyyəti cəmiyyətin hər bir üzvünün gələcək həyat fəaliyyətinin tənzimlənməsində aparıcı rol oynayır. Bu gün qloballaşan dünyamızda şəxsiyyətin yeni proseslərə uyğunlaşması üçün yeni mədəniyyət formaları yaranır. Y.Q.Volkovun qeyd etdiyi kimi, «perspektivli işə yiyələnmək üçün insanlar müxtəlif dilləri öyrənirlər ki, bu da mədəniyyətlərin daha da oxşarlaşmasına şərait yaradır». Azərbaycan cəmiyyətində də eyni vəziyyətə rast gəlinir. Əslində qloballaşma prosesi özü bu vəziyyəti tələb edir. Çünki bu gün öyrənilməsi dəb halına yüksəlmiş ingilis, alman, fransız, rus və s. dillərə yiyələnmədən hətta elmi nailliyyətlərdən də xəbərsiz qalmaq olar.

Bu gün yaxşı maaşlı işə yiyələnmək üçün dil ən vacib amilə çevrilib. Özəl iş yerlərində dil və kompüter bilgilərinə xüsusi tələbat yaranıb. Bu tələbat təbəqələr arasında necə qiymətləndirilir? Respondentlərin qeyd olunan məsələyə münasibələrini aydınlaşdırmaq üçün sorğuda – özəl iş yerlərində təhsilə tələbkarlığın artması kimi xüsusi cavab ayrılmışdır. Bu cavab 4 nəfər (1,2%) tərəfindən qeyd edilmişdir. Bu isə göstərir ki, keçid dövrü şəxsiyyəti öz vəziyyətini dərk etmək və gələcək həyat tərzini müəyyənləşdirmək məsələlərində çətinlik çəkir.

25-40 yaşlı elmi tədqiqatla məşğul olanlardan 17 nəfər (5,1%); eyni yaşlı ali təhsilli, özəl müəssisədə işləyənlərdən 4 nəfər (1,2%); eyni yaşlı orta təhsilli, özəl müəssisədə işləyənlərdən 12 nəfər (3,6%); 40 yaşdan yuxarı elmi tədqiqatla məşğul olanlardan 14 nəfər (4,2%); 40 yaşdan yuxarı ali təhsilli, dövlət müəssisəsində işləyənlərdən – 13 nəfər (3,9%); həmin yaşda orta təhsilli özəl müəssisədə işləyənlərdən 6 nəfər (1,8%) təhsilə marağın azaldığına əmindir. 18-25 yaşlı ali təhsilli, dövlət müəssisəində işləyənlərdən 5 nəfər (1,5%) təhsilin keyfiyyətinin artdığına; 3 nəfər (0,9%) isə bu sahədə qənaətbəxş vəziyyətin yarandığına inanır.

Şkaladan göründüyü kimi, ümumi rəydə təhsilin keyfiyyfətinin azalması 104 nəfər (42%); qənaətbəxş vəziyyətdə olması 70 nəfər (21%) və keyfiyyətinin artdığı isə 26 nəfər (7,8%) göstərilmişdir. Bu isə cəmiyyətimizdə təhsilliliyin ümumi orta həddinin lazımi səviyyədən xeyli aşağı olduğunu sübut edir. Bu vəziyyət daha bir mənfi tendensiya kimi qiymətləndirilə bilər. Sual 3.1-dən gördük ki, insanların əksəriyyəti məhz təhsili mənəvi-mədəni həyatın formalaşmasına təsir edən ən vacib amil olaraq qeyd etmişlər. Təhsilin 106 nəfər (42%) tərəfindən keyfiyyətcə zəifləməsinin qeyd edilməsi çox təəssüfləndirici haldır və gələcəyə olan ümidsizliyin ən bariz nümunəsidir.

Mənəvi-mədəni proseslərin şəxsiyyət tərəfindən dərk edilmə səviyyəsinin öyrənilməsi məqsədilə tərtib edilmiş **Sual 3.3 – Mənəvi-mədəni həyatın tənzimlənməsinə yönəldilmiş prezident (H.Əliyevin) bəyanatına münasibətiniz?**

**a) keçid dövrünün gedihşindən doğan bir bəyanatdır; b) vaxtında verilmiş bəyanatdır; ç) bir qədər gecikmiş bəyanatdır; d) insan hüquq və azadlıqlarını pozur; e) öz fikriniz**

Bu sualın cavablandırılmasında maraqlı göstəricilər alınıb. **Cədvəl 9** – dan göründüyü kimi, sualın cavablandırılmasında prezidentin danılmaz xarizmatik liderliyi də öz təsirini

göstərib. Belə ki, sorğu edilən 18-24 yaşlı ali təhsilli işləməyən gənclərdən - 18 nəfər (5,4% ) keçid dövrünün gedişindən doğan bir bəyanat olduğunu; 11 nəfər (3,3%) - vaxtında verilmiş bəyanat olduğunu; 43 nəfər (12,9%) isə bir qədər gecikmiş bəyanat olduğunu qeyd etmişlər. Eyni yaşlı orta təhsilli, işləməyən gənclərdən 3 nəfər (0,9%) birinci; 5 nəfər (1,5%) ikinci cavabı işarə etmişlər.

Elmi tədqiqatla məşğul olan 25-40 yaşlılardan 4 nəfər (1,2%) vaxtında verilmiş bəyanat olaraq; 6 nəfər (1,8%) isə bir qədər gecikmiş bəyanat olaraq qəbul edirlər. Eyni yaşlı ali təhsilli, dövlət müəssisəsində işləyənlərdən 7 nəfər (2,1%) keçid dövrünün gedişindən doğan; 13 nəfər (3,9%) isə vaxtında verilmiş bəyanat kimi qiymətləndirib.

25-40 yaşlı orta təhsilli, özəl müəssisədə işləyənlərdən 13 nəfər (3,9%) bəyanatın vaxtında verilmiş olduğunu qeyd etmişlər. 40 yaşdan yuxarı elmi tədqiqatla məşğul olanlardan 6 nəfər (1,8%) vaxtında verilmiş; 8 nəfər (2,4%) isə bir qədər gecikmiş bəyanat kimi dəyərləndirmişlər. 40 yaşdan yuxarı orta təhsilli, dövlət müəssisəsində işləyənlərdən 7 nəfər (2,1%) vaxtında verilmiş bəyanat olduğunu qəbul edirlər. Ümumi göstəricidə də maraqlı rəqəmlər alınıb. Şkaladan göründüyü kimi, 38 nəfər (11,4%) keçid dövrünün gedişindən doğan bir bəyanat; 74 nəfər (22,2%) vaxtında verilmiş; 79 nəfər (23,7%) isə bir qədər gecikmiş bəyanat olaraq qeyd etmişlər. Maraqlı nəticələri «bilmirəm» cavabının qiymətləndirilməsinə də aid etmək olar. Belə ki, respondentlərdən 26 nəfər (7,8%) bu cavabı işarə etmişlər. Qeyd edilən bəyanat həqiqətən də dövlətin cəmiyyətdə baş verən mənəvi-mədəni proseslərə təsiri, nəzarəti və bu prosesləri düzgün istiqamətə yönəltməyə cəhdi kimi çox əhəmiyyətlidir. Əlavə edə bilərik ki, sorğu zamanı bəzi respondentlərin bəyanat haqqında məlumatsızlığı müəyyən mənfi göstəricilərin əldə edilməsinə səbəb olmuşdur.

Bu sualla bağlı qeyd etmək istərdik ki, ümumiyyətlə sosioloji sorğularda siyasi liderlərin adlarının çəkilməsi və ya nəzərdə tutulması cavablandırma prosesində əsaslı rol oynayır. Belə bir təsirin empirik tədqiqi ilə məşğul olan rus sosioloqu A.Y.Myaqkov qeyd edir ki, «sosioloqlara çoxdan məlumdur ki, respondentlər sualların tərtib edilməsindəki hər bir nüansa çox həssas olurlar. Siyasi xadimlərin adlarının qeyd edildiyi tədqiqatların nəticələrinə görə» sorğu zamanı respondentlər «müəyyən ideyanın qiymətləndirilməsində» siyasətçinin mövcud nüfuzuna «xüsusi reaksiya göstərirlər» (64, 2001, №3, s.94).

Mənəvi- mədəni proseslərin empirik tədqiqatları ilə bağı olan Üçüncü Blokun son sualı **Sual 3.4 – Azərbaycanda kütləvi və elit mədəniyyət mövcuddurmu? – məzmunundadır. a) hə; b) yox; s) bilmirəm**

**Cədvəl 10**-a nəzər salsaq, görərik ki, bu sual aşağıdakı kimi cavablandırılıb: 18-24 yaşlı ali təhsilli gənclərdən 23 nəfər (7,6%) «hə»; 32 nəfər (9,6%) «yox»; 45 nəfər (13,5%) «bilmirəm» cavablarını; eyni yaşlı orta təhsilli, işləməyənlərdən 4 nəfər (1,2%) «hə»; 6 nəfər (1,8%) «yox»; 3 nəfər (1,2%) «bilmirəm»; 25-40 yaşlı elmi tədqiqatla məşğul olanlardan 9 nəfər (2,7%) «hə»; 9 nəfər (2,7%) «yox»; 5 nəfər (1,5%) «bilmirəm»; eyni yaşlı ali təhsilli dövlət müəssisəsində işləyənlərdən 8 nəfər (2,4%) «hə»; 15 nəfər (4,5%) «yox»; 7 nəfər (2,1%) «bilmirəm»; 25-40 yaşlı orta təhsilli özəl müəssisədə işləyənlərdən 6 nəfər (1,8%) «hə»; 4 nəfər (1,2%) «yox»; 8 nəfər (2,4%) «bilmirəm»; 40 yaşdan yuxarı elmi tədqiqatla məşğul olanlardan 7 nəfər (2,1%) «hə»; 11 nəfər (3,3%) «yox»; 1 nəfər (0,3%) «bilmirəm»; 40 yaşdan yuxarı ali təhsilli dövlət müəssisəsində işləyənlərdən 6 nəfər (1,8%) «hə»; 5 nəfər (1,5%) «yox»; 11 nəfər (3,3%) «bilmirəm»; həmin yaşda orta təhsilli dövlət müəssisəsində işləyənlərdən – 4 nəfər (1,2%) «hə»; 2 nəfər (0,6%) «yox»; 5 nəfər (1,5%) «bilmirəm» cavablarını qeyd etmişlər.

Ümumi cavablandırmada 85 nəfər (25,5%) «hə»; 13 nəfər (3,9%) «yox»; 92 nəfər (27,6%) «bilmirəm» cavablarını qiymətləndirmişlər.

Qeyd edilən müxtəlif rəqəmlər şəxsiyyətin yaşadığı tarixi dövrdəki mədəni proseslərə münasibətinin ən yaxşı göstəricisidir. Müşahidələrə əsasən demək olar ki, xüsusilə gənclər arasında «yox» cavabının qeyd edilməsi zamanı insanlar arasında bərabərlilik prinsipinə üstünlük verilmişdir. Bu isə həm də sualın düzgün başa düşülməməsindən irəli gəlir.

Ümumi sorğudan alınan nəticələr belədir: Kütləvi mədəniyyət insanlarda oxşar, kütləvi dərketmənin formalaşmasına səbəb olduğundan sualların cavablandırılmasında təbəqələr arasındakı fərq ancaq intellektual səviyyəyə görə seçilir. Gənclər arasında gələcəyə inam çox zəifdir. Ümumiyyətlə, bütün səviyyələrdə ruh düşkünlüyü və sabahkı günə inamsızlıq hiss olunur.

Sorğuların nəticələri ilə hipotezin müqayisəsi göstərir ki, hipotezdə irəli sürülən tendensiyalar həqiqətə uyğundur və hətta daha dərin və ağrılı, eyni zamanda bir qədər mütərəqqi prosesləri müşahidə etmək mümkündür.

Sorğu vərəqlərinin analizi aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1.Əhalinin siyasi mədəniyyət səviyyəsi ortadır.

2.Milli ənənələrin qorunmasına meyl yüksəkdir.

3. İqtisadi proseslər sosial gərginlik yaradır.

4.Təbəqələşmə dərinləşir, lakin müəyyən qrup adamlar hansı təbəqəyə aid olduqları haqqında dəqiq təsəvvürə malik deyillər. Cəmiyyətin əksər hissəsini kasıblar təşkil edir. Buraya eyni zamanda müxtəlif peşə sahibləri də daxildir.

1.Şəxsiyyət iqtisadi proseslərə bilavasitə məişət qayğıları ilə qoşulur və iqtisadi proseslərin bilavasitə onu narahat edən istiqamətlərini dərk edir.

2.Kütləvi informasiya vasitələri şəxsiyyətdə kütləvi şüur və kütləvi mədəniyyət formalaşdırır.

3.Şəxsiyyət bu gün ilə yaşayır, onun gələcəyə inamı zəifdir.

Bu nəticələr keçid dövründə şəxsiyyətin daxil olduğu proseslərin təhlilinə ümumi yanaşma kimi qəbul edilə bilər. Çünki əvvəlki fəsildə bu proseslərin elmi əsaslandırmaqla əks olunmasına cəhd edilir. Empirik tədqiqatlarda interaktiv metoda və refleksliik konsepsiyasına üstünlük verilib. Refleksliik konsepsiyası düşüncə və həqiqəti, ideal və maddi olanı əlaqələndirir, subyektlə obyektin ziddiyyətli qarşılıqlı münasibətlərinin nəticəsini izah edir. Bu konsepsiyanın açılışı kimi V.Franklinin aşağıdakı fikrini qəbul edə bilərik: «Mən (şəxsiyyət) yalnız olduğum kimi hərəkət etmirəm, həm də öz hərəkətimə uyğun olaraq dəyişirəm».

Sorğular da məhz keçid dövrü şəxsiyyətinin təfəkkür tərzinin, yaşadığı dövrü qiymətləndirmə bacarığının müəyyən edilməsinə yönəldilmişdir. İrəli sürülən proqnozlarda İ.V.Bestujev-Ladanın fikirlərinə istinad edilib. O, qeyd edir ki, proqnoz verərkən refleksin yönəlməli olan istiqamətini aşağıdakı kimi izah edir: «Müşahidə edilən tendensiyada «nə olacaq?» sualı deyil, «nə ola bilər?» sualı nəzərə alınmalıdır və elə etmək lazımdır ki, daha çox arzu olunan alınsın». Qeyd edilənləri nəzərə alaraq, proqnoz verilməsində ehtimal nəzəriyyəsinə üstünlük verilir. Verilən proqnozlar 5 ildən – 15 ilədək müddəti əhatə edir:

1.Demokratik qanunlar tam bərqərar ola və təmin edilə bilər.

2.Siyasi münaqişələr olmadığı təqdirdə müasir tipli demokratik dövlət quruluşu formalaşa bilər.

3.Təbəqələşmə prosesi dərinləşə, orta sinif genişlənə bilər.

4.Azərbaycan iqtisadiyyatı dünya bazarına tam inteqrasiya olunma istiqamətindədir.

5.İqtisadi inkişaf özəl təsərrüfat formasından tam asılı vəziyyətə düşə bilər.

6.İşsizlik arta bilər.

7.Ailə cəmiyyətin ən dəyərli sərvəti kimi qiymətləndirilə bilər.

8.Təhsil almaq ancaq əhalinin müəyyən imkanlı təbəqəsinə aid ola bilər ki, bu da savadsızlığın genişlənməsinə gətirə bilər.

9.Kütləvi informasiya vasitələri kütləvi mədəniyyət səviyyəsini daha aşağı sala bilər. Yalnız milli mədəni ənənələrin qorunması həqiqi elit mədəniyyətin formalaşmasına gətirə bilər.

## NƏTİCƏ

«Keçid dövründə şəxsiyyət problemləri (sosioloji aspekt)» mövzusundakı tədqiqat işi nəzəri və empirik sosiologiyanın qovuşuğunda tədqiq edilmişdir. İşin birinci hissəsində verilən nəzəri-metodoloji araşdırma göstərdi ki, müasir sosioloji tədqiqatların tarixi prinsiplə yanaşı struktur-funksional analiz və fenomenoloji metodologiyanın vəhdəti olan sintetik metodologiyaya əsaslanması özlüyündə elmi araşdırmaların səmərəliliyini artırır. Beləliklə, ümumi nəzəri və empirik tədqiqatlardan alınan ümumiləşdirmələr göstərdi ki, keçid dövrü - mövcud mədəni ənənələrin (iqtisadi, siyasi, mənəvi-mədəni) təsirlilik dərəcəsinin tədricən itirilməsi və yenidən dərketmə prosesində yeni iqtisadi, siyasi, mədəni ənənələrin formalaşmasının başlanğıc mərhələsidir. Bu dövrdə yaranan gərginlik ənənəvi cəmiyyətin əsaslarını laxladaraq, öz növbəsində şəxsiyyətin təfəkkür tərzininin, sosial təbiətinin tədricən dəyişməsinə, onun yaradıcı yaxud, dağıdıcı imkanlarını büruzə verməsinə şərait yaradır.

Tədqiq olunan problem bilavasitə Azərbaycanda XX əsrin 90-cı illərində yaranan və bu gün də inkişafda olan proseslərin öyrənilməsinə yönəldilib. Qeyd də bilərik ki, postsovet məkanı ölkələrinin, o cümlədən Azərbaycan cəmiyyətinin dünyaya inteqrasiya olunması dövlətimizin lokal şəkildə demokratik münasibətlərə keçidilə qovuşur. Müharibə şəraitində olan ölkəmizdə bu ikili keçid yelpəkvari gərginliklərlə müşayiət olunur.

Tədqiqat işində şəxsiyyət problemləri yuxarıda qeyd olunan məsələlərlə bağlı araşdırılır. Araşdırmalar göstərdi ki, cəmiyyətin keçid mərhələsində şəxsiyyət-cəmiyyət arasında qarşılıqlı əlaqə və qarşılıqlı təsir gərginləşərək, bir tərəfdən şəxsiyyətin seçim məkanını məhdudlaşdırır, digər tərəfdən isə onun seçim bacarığının üzə çıxmasına şərait yaradır. Bu mənada keçid mərhələsi həm cəmiyyət, həm də hər bir şəxsiyyət üçün sınağa çevrilir.

Tədqiqat işində nəzəri tədqiqatın davamı olan empirik sosioloji tədqiqatlar konkret iqtisadi, siyasi, mənəvi-mədəni məkanda şəxsiyyətin dərketmə və yaşam vəziyyətinin öyrənilməsinə yönəlmişdir. Tədqiqat əsasında aşağıdakı nəticələrə gəlmişik:

I. Keçd dövründə sosial faktlar toplusu - sosial sistem, onun institutları və normaları (E.Dürkqeym) mahiyyətcə tədrici dəyişmə istiqaməti alır və sosial faktalrın təsirlilik, təzyiq göstərmə imkanları yeni xarakter qazanır. Belə ki, əvvəlki ənənələrin şəxsiyyətə

təsiretmə dərəcəsi azaldığı halda, yeni ənənələrin təzyiqi güclənir və şəxsiyyətin özünü və mövcud şəraiti dərketmə potensialını dəyişir.

II. Keçid dövründə təbəqələşmə prosesi yeni xarakter alır. Gəldiyimiz nəticəyə görə, keçid dövründə iqtisadi proseslərin gedişində yaranan ziddiyyətlər təbəqələşmənin dərinləşməsi ilə müşayiət olunur. Belə ki, bir ictimai quruluşdan digərinə keçid dövrünü yaşayan şəxsiyyət artıq özünü konkret bir sinfə aid etməyə çətinlik çəkir. Sorğular əsasən elmi işçilər, orta məktəb müəllimləri, ali təhsil ocaqlarının tələbələri arasında apırlıb və onlardan 53,4%-i özünü orta təbəqəyə, 33%-i kasıb təbəqəyə, 1,8%-i isə varlı təbəqəyə aid edirlər. Sorğular zamanı belə bir hal da müşahidə olundu ki, insanların çoxu özünün kasıb olduğunu etiraf etməyə çəkinsələr də, yeni yaranmaqda olan iqtisadi proseslərə bilavasitə öz şəxsi karyerası, şəxsi taleyi ilə bağlı münasibət bildirirlər. Burada, iqtisadi proseslərə münasibət bildirən 18,3%-respondent qeyd edir ki, iqtisadi islahatlar şəxsiyyətin əmək fəallığını artırır. 15,6% respondent isə islahatların istehsal münasibətlərində gərginliyi artırması ilə razılaşırlar. Bununla yanaşı respondentlərin 14,4%-i bazar münasibətlərinin işsizliyə gətirdiyini vurğülayırlar.

II. Siyasi proseslər şəxsiyyətin siyasi fəallığını artırsa da, kütlənin siyasi dərketməsi orta səviyyədən aşağıdır. Ümumi respondentlərin 36,9% Azərbaycanda demokratik dövlət quruluşunun mövcudluğunu etiraf edirlər. Siyasi proseslərlə bağlı qoyulan sualların cavablarndırlması göstərdi ki, əsasən 25-40 yaşlı dövlət müəssisəsində işləyən ali təhsilli respondentlər sorğularda daha fəal iştirak edərək, keçid dövründə Azərbaycanda qarışıq dövlət idarəçilik formasının (xarizmatik, demokratik, avtoritar) mövcud olması ilə razılaşırlar (Bax Cədvəl 4).

III. Keçid dövründə baş verən sosial, iqtisadi, siyasi dəyişikliklər şəxsiyyətin sosial xüsusiyyətlərinin bu və ya digər şəkildə dəyişməsinə səbəb olur. Şəxsiyyətin öz dövrünü dərk etməsini ona xas olan bir sıra fərdi amillər (təhsili, yaşı, maddi vəziyyəti, əmək fəaliyyəti, maraq dairəsi və s.) müəyyən edir.

Respondentlər keçid dövründə cəmiyyətin mənəvi-mədəni həyatına təsir edən amillərdən – təhsili (20,4%), ideologiyanı (8,4%), ailəni (7,8%), tərbiyəni (1,2%) xüsusi qeyd edirlər. Bir qrup respondent (27,3%) isə bu qeyd edilən amillərdən bir neçəsinin birgə mühüm təsirini vurğulayırlar (Bax səh.144, Cədvəl 7).

IV. Keçid prosesində bir tərəfdən cəmiyyətimizdə obyektiv sosial gərginliyi, digər tərəfdən isə, fərdi dərketmə və uyğunlaşma səviyyəsini nəzərə alaraq, biz bir neçə özünü daha qabarıq büruzə verən şəxsiyyət tiplərini vurğulayırıq. Konkret olaraq, burada əsasən «təqlidçi», «konservator», «konformist» və «novator» şəxsiyyət tiplərinin çoxluq təşkil etdiyini deyə bilərik. Tədqiqat prosesində aparılan müşahidələr göstərdi ki, hal-hazırda «təqlidçi» və «konservator» şəxsiyyət tipləri üstünlük təşkil edir. Eyni zamanda bu dövrdəki bir çox sahələrdə baş verən qeyri-sabitlik halı ayrı-ayrı şəxsiyyətlərdə bəzi tiplərin qarışıq təzahürünü mü□ahidə etmə□ə imkan yaradır.□□ydqiqatda vurğulanan şəxsiyyət tiplərini nisbi dəqiqliklə qəbul etmək olar.

V. Empirik tədqiqatlar nəticəsində belə ümumiləşdirməyə gəlmək olar ki, respondentlərin əksəriyyətinin sosioloji mədəniyyəti hələ lazımi səviyyədə deyil. Çox vaxt onlar qoyulan suallara sərbəst cavab verməyə çətinlik çəkirlər. Eyni zamanda çox az qism də olsa sorğuların mahiyyəti ilə tanış olduqdan sonra sorğu anketində qeyd olunan problemlərə aqressiv münasibət göstərir və hətta cavab verməkdən imtina edirdilər. Respondentlərin sərbəst seçim və dərketmə bacarığı hələ də, qənaətbəxş deyil. İqtisadi, siyasi və mənəvi-mədəni proseslərə münasibətin öyrənilməsi məqsədilə keçirilən sosioloji sorğular göstəridi ki, iqtisadi sfera ilə bağlı qoyulan suallara respondentlər daha fəal və sərbəst şəkildə cavab verirlər. Burada müsbət bir nəticə kimi, onu da qeyd etmək olar ki, təhsil ocaqlarında gənclər mənəvi-mədəni sahədə gedən proseslərə daha sərbəst şəkildə öz münasibətlərini ifadə edirdilər.

VI. Elmi araşdırma tədqiq olunan bir sıra problemlərin bütövlükdə deyil, qeyd olunmuş məsələlərin bir neçə vacib cizgilərinin aşkar olunmasına yönəlmişdir. Burada açıqlanmamış bir sıra problemləri gələcək işimizdə tədqiqat mərkəzində saxlayacağıq.

Tədqiqatın nəticələrinə əsaslanaraq, bir neçə təkliflər irəli sürülür:

1.Təbəqələşmə dinamikasının sürətlə inkişaf etməsini nəzərə alaraq, şəhər və kənd təsərrüfatına uyğun yeni peşələrlə bağlı kadrlar hazırlığı imkanları genişlənməlidir. İqtisadiyyatda özəl təsərrüfatın genişlənməsi üçün sahibkarlara maddi və mənəvi yardım fəallaşmalıdır. Həm fermer təsərrüfatı, həm də sənayenin inkişafı ilə bağlı investisiya cəlb edilməli və xarici sahibkarlarla müştərək iş üçün imkanlar yaradılmalıdır.

2. Demokratik münasibətlərin möhkəmlənməsi üçün dövlət quruculuğu institutlarının və siyasi münasibətlərin nəzəri araşdırılması ilə məşğul olan tədqiqat institutlarının yeni

proqramları işlənilməlidir. Siyasi biliklərin səviyyəsi və təbliği müasir standartlara uyğunlaşmalıdır. Gənclərimizin siyasi savadı və siyasi mədəniyyəti ifratçılığa gətirməməsi üçün təhsil və mədəniyyət ocaqlarında siyasi maariflənməyə xüsusi yer ayrılmalıdır. Dövlət idarəçiliyi ilə bağlı kadrların hazırlanmasına xüsusi diqqət yetirilməlidir.

3. Keçid mərhələsində iqtisadi, siyasi və mənəvi-mədəni sahələrdə yaranan gərginliyi aradan qaldırmaq yolunda milli dəyərlərə ziyan vermədən, yeni dövrün tələblərinə uyğun struktur dəyişiklikləri aparılmalıdır. Cəmiyyətin özəyini təşkil edən və şəxsiyyətin sosiallaşmasının mənbəyi olan azərbaycanlı ailəsinin milli xüsusiyyətlərini qorumaq yolunda dövlət səviyyəsində geniş təbliğat proqramı hazırlanmalıdır. Milli dəyərlərin deqradasiyasına səbəb olan informasiyanın qarşısını almaq üçün KİV-ə senzura tətbiq edilməlidir. Milli adət-ənənələrin təbliği üçün məqsədyönlü dövlət proqramı hazırlanmalıdır.

# ƏLAVƏLƏR.

*CƏDVƏL 1. - Dövlət idarəçilik sistemi tiplərinə təbəqələrin münasibəti və qəbul etmə səviyyəsi.*

| Sual 1.1 – Sizcə Azərbaycanda hansı dövlət idarəiliyi forması yaranır? | Xarizmatik | Demokratik | Avtoritar | Bilmirəm | Bir neçə cavabı qeyd edən | Cəmi |
|---|---|---|---|---|---|---|
| Ali\təh. döv. müəs.-də işləyənlər(18-24yaş) | 2 | | | | | 2 |
| Ali\təh. Ozəl müəs.-də işləyənlər(18-24yaş) | 1 | | 3 | | | 4 |
| Ali\təh.işləməyənlər(18-24yaş) | 3 | 41 | 20 | 24 | 9 | 97 |
| Orta\təh. döv. müəs.-də işləyənlər(18-24 yaş) | | | | | | |
| Orta\təh. özəl müəs.-də işləyənlər(18-24 yaş) | | | | | | |
| Orta\təh.işləməyənlər(18-24 yaş) | 6 | 2 | 2 | 1 | 2 | 13 |
| Elmi tədq. Məşğ. olanlar(25-40 yaş) | 3 | 7 | 10 | 3 | | 23 |
| Ali\təh. döv. müəs.-də işləyənlər(25-40 yaş) | | 11 | 1 | 1 | 16 | 29 |
| Ali\təh. özəl. müəs.-də işləyənlər(25-40 yaş) | 1 | 4 | | 3 | | 8 |
| Ali\təh.işləməyənlər(25-40 yaş) | | 1 | | 1 | 1 | 3 |
| Orta\təh. döv. müəs.-də işləyənlər(25-40 yaş) | | 4 | | 1 | | 5 |
| Orta\təh. özəl müəs.-də işləyənlər(25-40 yaş) | | 10 | | 8 | | 18 |
| Orta\təh. Işləməyənlər(25-40yaş) | | 6 | | 1 | 1 | 8 |
| Elmi təd.məşğ.olanlar(40 yaşdan yux.) | 1 | 8 | 9 | | 1 | 19 |
| Ali\təh. döv. müəs.-də işləyənlər(40 yaşdan yux.) | | 12 | 1 | 8 | 1 | 22 |
| Ali\təh. özəl müəs.-də işləyənlər(40 yaşdın yux.) | | | | 1 | | 1 |
| Ali\təh. işləməyənlər(40 yaşdan yux.) | | 2 | | | | 2 |
| Orta\təh. döv. müəs.-də işləyənlər(40 yaşdan yux.) | | 9 | | 2 | | 11 |
| Orta\təh. öz. müəs.-də işləyənlər(40 yaşdan yux.) | | 2 | | 1 | 1 | 4 |
| Orta\təh. işləməyənlər(40 yaşdan yux.) | | 4 | | | | 4 |
| Cəmi | 17 | 123 | 46 | 55 | 32 | 273 |




<u>Sorğuda iştirak etmiş sosial təbəqələr</u> [1]

1. Ali\təh. döv. müəs.-də işləyənlər(18-24yaş)
2. Ali\təh. Özəl müəs.-də işləyənlər(18-24yaş)
3. Ali\təh.işləməyənlər(18-24yaş)
4. Orta\təh. döv. müəs.-də işləyənlər(18-24 yaş)
5. Orta\təh. özəl müəs.-də işləyənlər(18-24 yaş)
6. Orta\təh.işləməyənlər(18-24 yaş)
7. Elmi tədq. Məşğ. olanlar(25-40 yaş)
8. Ali\təh. döv. müəs.-də işləyənlər(25-40 yaş)
9. Ali\təh. özəl. müəs.-də işləyənlər(25-40 yaş)
10. Ali\təh.işləməyənlər(25-40 yaş)
11. Orta\təh. döv. müəs.-də işləyənlər(25-40 yaş)
12. Orta\təh. özəl müəs.-də işləyənlər(25-40 yaş)
13. Orta\təh. İşləməyənlər(25-40yaş)
14. Elмi təd.məşğ.olanlar(40 yaşdan yux.)
15. Ali\təh. döv. müəs.-də işləyənlər(40 yaşdan yux.)
16. Ali\təh. özəl müəs.-də işləyənlər(40 yaşdın yux.)
17. Ali\təh. işləməyənlər(40 yaşdan yux.)
18. Orta\təh. döv. müəs.-də işləyənlər(40 yaşdan yux.)
19. Orta\təh. öz. müəs.-də işləyənlər(40 yaşdan yux.)
20. Orta\təh. işləməyənlər(40 yaşdan yux.)

[1] Шкаланын алтында гейд едилян рягямляр гейд едилян тябягяляирн эюстяриъисидир.

*CƏDVƏL 2. – Demokratik cəmiyyətin əsas göstəricilərinə təbəqələrin münasibəti və qəbul etmə səviyyəsi.*



| Sual 1.2 – Demokratik cəmiyyətin əsas göstəriciləri hansılardır? | Çoxpa rityalı lıq | Söz və mətbuat azadlığı | Səsvermə hüququnun olması | Bilm irəm | Oz fik riniz | Bir neçə cavabı qeyd edənlər | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Ali\təh. döv. müəs.-də işləyənlər(18-24yaş) | 1 | | | | | | 1 |
| Ali\təh. Ozəl müəs.-də işləyənlər(18-24yaş) | 1 | | | | | | 1 |
| Ali\təh.işləməyənlər(18-24yaş) | 7 | 52 | 4 | 10 | | 31 | 104 |
| Orta\təh. döv. müəs.-də işləyənlər(18-24 yaş) | | 1 | | | 2 | | 3 |
| Orta\təh. özəl müəs.-də işləyənlər(18-24 yaş) | | 3 | | | | | 3 |
| Orta\təh.işləməyənlər(18-24 yaş) | 1 | 4 | 1 | 2 | 2 | 2 | 12 |
| Elmi tədq. Məşğ. olanlar(25-40 yaş) | 1 | 7 | 2 | 2 | | 10 | 22 |
| Ali\təh. döv. müəs.-də işləyənlər(25-40 yaş) | 4 | 12 | 2 | 3 | | 7 | 28 |
| Ali\təh. özəl. müəs.-də işləyənlər(25-40 yaş) | 2 | 1 | 1 | 2 | | 2 | 8 |
| Ali\təh.işləməyənlər(25-40 yaş) | 1 | 2 | | | | | 3 |
| Orta\təh. döv. müəs.-də işləyənlər(25-40 yaş) | | 3 | 1 | | | 1 | 5 |
| Orta\təh. özəl müəs.-də işləyənlər(25-40 yaş) | 5 | 12 | | | 1 | | 18 |
| Orta\təh. Işləməyənlər(25-40yaş) | | 6 | | 1 | | | 7 |
| Elmi təd.məşğ.olanlar(40 yaşdan yux.) | 2 | 6 | 1 | 2 | 2 | 7 | 20 |
| Ali\təh. döv. müəs.-də işləyənlər(40 yaşdan yux.) | 5 | 8 | 4 | | 3 | 3 | 23 |
| Ali\təh. özəl müəs.-də işləyənlər(40 yaşdın yux.) | | | | | | | |
| Ali\təh. işləməyənlər(40 yaşdan yux.) | | | 1 | | | 1 | 2 |
| Orta\təh. döv. müəs.-də işləyənlər(40 yaşdan yux.) | 6 | 3 | | | 3 | | 12 |
| Orta\təh. öz. müəs.-də işləyənlər(40 yaşdan yux.) | 3 | 1 | | 3 | | | 7 |
| Orta\təh. işləməyənlər(40 yaşdan yux.) | 2 | 1 | | | 1 | | 4 |
| Cəmi | 41 | 122 | 17 | 25 | 14 | 64 | 283 |

Sorğuda iştirak etmiş sosial təbəqələr [1]

1. Ali\təh. döv. müəs.-də işləyənlər(18-24yaş)
2. Ali\təh. Özəl müəs.-də işləyənlər(18-24yaş)
3. Ali\təh.işləməyənlər(18-24yaş)
4. Orta\təh. döv. müəs.-də işləyənlər(18-24 yaş)
5. Orta\təh. özəl müəs.-də işləyənlər(18-24 yaş)
6. Orta\təh.işləməyənlər(18-24 yaş)
7. Elmi tədq. Məşğ. olanlar(25-40 yaş)
8. Ali\təh. döv. müəs.-də işləyənlər(25-40 yaş)
9. Ali\təh. özəl. müəs.-də işləyənlər(25-40 yaş)
10. Ali\təh.işləməyənlər(25-40 yaş)
11. Orta\təh. döv. müəs.-də işləyənlər(25-40 yaş)
12. Orta\təh. özəl müəs.-də işləyənlər(25-40 yaş)
13. Orta\təh. İşləməyənlər(25-40yaş)
14. Elмi təd.məşğ.olanlar(40 yaşdan yux.)
